Altıncı çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

On beşinci sessiya
Yaz

64-cü cild

15 mart 2024-cü il

Milli Məclisin nəşri
Bakı – 2024

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

# ALTINCI ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# XV SESSİYASI İCLASININ

# PROTOKOLU № 162

*Milli Məclisin iclas salonu.*
*15 mart 2024-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 104 deputatı iştirak etmişdir.**

| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
|---|---|
| İştirak edir | 100 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Əli Əsədov**, Azərbaycan Respublikasının Baş naziri.

**Şahin Mustafayev**, Azərbaycan Respublikası Baş nazirinin müavini.

**Əli Əhmədov**, Azərbaycan Respublikası Baş nazirinin müavini.

**Fərid Əhmədov**, Azərbaycan Respublikasının ədliyyə naziri.

**Samir Şərifov**, Azərbaycan Respublikasının maliyyə naziri.

**Mikayıl Cabbarov**, Azərbaycan Respublikasının iqtisadiyyat naziri.

**Vüqar Mustafayev**, Azərbaycan Respublikasının müdafiə sənayesi naziri.

**Sahil Babayev**, Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri.

**Məcnun Məmmədov**, Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri.

**Emin Əmrullayev**, Azərbaycan Respublikasının elm və təhsil naziri.

**Teymur Musayev**, Azərbaycan Respublikasının səhiyyə naziri.

**Rəşad Nəbiyev**, Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri.

**Fərid Qayıbov**, Azərbaycan Respublikasının gənclər və idman naziri.

**Rauf Hacıyev**, Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini.

**Ragim Lətifov**, Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini.

**Samir Vəliyev**, Azərbaycan Respublikası energetika nazirinin müavini.

**Səadət Yusifova**, Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini.

**Rasim İsmayılov**, Azərbaycan Respublikası səhiyyə nazirinin müavini.

**Səbuhi Məmmədov**, Naxçıvan Muxtar Respublikasının Baş naziri.

**Samir Seyidəhmədli**, Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasında səlahiyyətli nümayəndəsinin müavini.

**Şahin Bağırov**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri.

**Tahir Budaqov**, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri.

**Bahar Muradova**, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri.

**Fuad Muradov**, Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri.

**Səyyad Salahlı**, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin vəzifəsini müvəqqəti icra edən.

**Anar Quliyev**, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri.

**Rövşən Rzayev**, Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri.

**Qoşqar Təhməzli**, Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri.

**Fuad Nağıyev**, Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri.

**Vüsal Hüseynov**, Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi.

**Zaur Mikayılov**, Azərbaycan Respublikası Dövlət Su Ehtiyatları Agentliyinin sədri.

**Səbuhi Sadıqov**, Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyinin İdarə Heyətinin sədri.

**Zaur Əliyev**, Azərbaycan Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri.

**Taleh Kazımov**, Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin sədri.

**İsrafil Məmmədov**, Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru.

**Rüfət Məmmədov**, Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbəri.

**Ələsgər Ələsgərov**, Azərbaycan Respublikası Baş nazirinin Katibliyinin rəisi.

**Azər Əmiraslanov**, Azərbaycan Respublikası Nazirlər Kabinetinin İqtisadiyyat şöbəsinin müdiri.

**Zakir Paşayev**, Azərbaycan Respublikası Nazirlər Kabinetinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri.

**Fəxri İsmayılov**, Azərbaycan Respublikası Baş nazirinin köməkçisi.

**İbrahim Məmmədov**, Azərbaycan Respublikası Nazirlər Kabinetinin Mətbuat xidmətinin rəhbəri.

**Vüqar Gülməmmədov**, Azərbaycan Respublikası Hesablama Palatasının sədri.

**Bəxtiyar Əsgərov**, Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi nümayəndəliyinin rəhbəri.

**İclasın gündəliyinə aşağıdakı məsələ daxil idi:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatı.

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.06 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

| | |
|---|---|
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

**1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatı.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Əsədov, Zahid Oruc, Fazil Mustafa, Tahir Mirkişili, Nurlan Həsənov, Soltan Məmmədov, Əhliman Əmiraslanov, Elnur Allahverdiyev, Kamran Bayramov, Vüqar Bayramov, Müşfiq Məmmədli, Elşad Mirbəşir oğlu, Musa Qasımlı, Aydın Mirzəzadə, Bəhruz Məhərrəmov, Sahib Alıyev, Eldar Quliyev, Azər Badamov, Razi Nurullayev, Bəxtiyar Əliyev, Kamilə Əliyeva, Qüdrət Həsənquliyev, Azay Quliyev, Emin Hacıyev, Ceyhun Məmmədov, Müşfiq Cəfərov, Sevil Mikayılova, Səbinə Xasayeva, Sadiq Qurbanov, Naqif Həmzəyev, Əli Məsimli, Sabir Rüstəmxanlı, Musa Quliyev, Əziz Ələkbərov, Əli Hüseynli, Fəzail Ağamalı

**Təklif:** Çıxışlar 5 dəqiqə olsun

| **Səsvermənin nəticələri** | (saat 11.45 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.52 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 2 |
| Bitərəf | 2 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*15 mart 2024-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*
***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli Baş nazir, hörmətli hökumət üzvləri, hörmətli deputatlar, hörmətli media nümayəndələri.

Hörmətli həmkarlar, xahiş edirəm, qeydiyyatdan keçək. Buyurun.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
| İştirak edir | 100 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var, biz iclasa başlaya bilərik.

Hörmətli həmkarlar, icazənizlə, mən ötən iclasdan bəri, yəni təqribən 10 gün ərzində Milli Məclisdə görülmüş işlər haqqında sizə qısa məlumat verim.

Qeyd edim ki, bu dövrdə Milli Məclisin 13 komitə iclası keçirilmişdir. Bir sıra qanunvericilik aktlarının layihələri ətraflı və geniş müzakirə edilmiş və plenar iclasda baxılmasına dair rəy verilmişdir.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi "Nəqliyyatın idarə edilməsində yeniliklər və çağırışlar" mövzusunda ictimai dinləmə keçirmişdir. Dinləmədə Milli Məclisin müxtəlif komitələrinin üzvləri, Aparatının müvafiq şöbələrinin əməkdaşları, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin, Yerüstü Nəqliyyat Agentliyinin rəhbər vəzifəli şəxsləri, habelə Boston Consulting Group şirkətinin nümayəndəsi və müstəqil ekspertlər də iştirak etmişlər.

Hörmətli həmkarlar, ötən dövrdə Milli Məclisin beynəlxalq əlaqələrinin inkişafı sahəsində mühüm tədbirlər həyata keçirilmişdir. Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev, Bolqarıstan Xalq Məclisinin sədri Rosen Dimitrov Jelyazkov, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Parlamentinin üzvü Əfzəl Xan, Almaniya Bundestaqının Hüquq siyasəti komitəsinin sədri Elizabet Vinkelmayer-Beker və rəhbərlik etdiyi heyət, Avstriya Parlamentinin Cənubi Qafqazla dostluq qrupunun rəhbəri Andreas Minnix və qrupun üzvləri, Gürcüstan Parlamentinin Təhsil, elm və gənclər məsələləri komitəsinin sədri Givi Mikanadze və komitənin üzvləri, UNICEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbəri Saca Faruq Abdullah ilə mənim görüşlərim olmuşdur.

Görüşlərdə ikitərəfli əməkdaşlıq məsələləri, xüsusən parlamentlər arasında iş birliyinin gücləndirilməsi yolları nəzərdən keçirilmişdir.

Həmsöhbətlərimə Azərbaycanın bugünkü reallıqları barəsində geniş məlumat verdim. Cənubi Qafqaz regionunda vəziyyət, Azərbaycanla Ermənistan arasında sülh prosesinin perspektivləri barədə fikirlərimi bölüşdüm. Bəzi beynəlxalq təşkilatlarda Azərbaycana qarşı ikili

standartların olduğunu da vurğuladım.

Hörmətli həmkarlar, bu dövrdə Milli Məclisdə Türk Dövlətləri Parlament Assambleyasının Hüquq məsələləri və beynəlxalq əlaqələr komissiyasının 11-ci iclası da keçirilmişdir. İclas "TÜRKPA üzvü olan dövlətlərdə elmi və texnoloji inkişafda parlamentlərin rolu və qanunvericilik dəstəyi" mövzusuna həsr edilmişdi.

Hörmətli deputatlar, son olaraq onu da qeyd edim ki, martın 13-də Avropa Parlamenti ölkəmizə qarşı qərəzli münasibətini bir daha nümayiş etdirərək "Avropa İttifaqı və Ermənistan arasında daha yaxın əlaqələr və Azərbaycanla Ermənistan arasında sülh sazişinə ehtiyac" adlı qətnamə qəbul etmişdir. Milli Məclis anti-Azərbaycan xarakterli bu növbəti qətnaməyə yenə də öz qəti etirazını bildirmişdir. Yəqin ki, müvafiq sənədlə mətbuatda siz tanış olmusunuz.

Hörmətli deputatlar, mənim məlumatım bu qədər. İndi isə xahiş edirəm, gündəliyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.06 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi.

Hörmətli cənab Baş nazir və hökumət üzvləri! Hörmətli deputatlar! Xanımlar və cənablar! Bu gün Milli Məclisin yaz sessiyasının beşinci iclasıdır və Konstitusiyaya uyğun olaraq, Nazirlər Kabineti ötən ildəki fəaliyyəti barədə hesabat verir.

Hörmətli həmkarlar, ilk öncə qeyd edim ki, Nazirlər Kabinetinin yeni tərkibi formalaşdıqdan sonra hökumət üzvləri ilk dəfədir, Milli Məclisin iclasında iştirak edirlər. Fevralın 16-da Baş nazirin təyinatına razılıq məsələsinə baxılarkən biz hörmətli Əli Əsədovu təbrik etmişdik. İndi isə fürsətdən istifadə edərək, hökumətin bütün üzvlərini səmimi qəlbdən təbrik edirik və onlara yeni uğurlar arzulayırıq! (*Alqışlar.*)

Hörmətli cənab Baş nazir və hökumət üzvləri! Hörmətli deputatlar! 2023-cü il milli inkişaf tariximizə "Heydər Əliyev İli" kimi daxil olmuşdur. Bununla birlikdə, ötən il möhtərəm cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20-ci ildönümü qeyd edilmişdir. Keçdiyimiz tarixi dövrün təhlili göstərir ki, Ulu Öndərin rəhbərliyi ilə ölkə iqtisadiyyatında bərqərar edilmiş inkişaf dinamikası möhtərəm cənab Prezidentin rəhbərliyi ilə ildən-ilə daha da möhkəmlənmiş və 2023-cü ilin uğurlu göstəricilərində yeni ifadəsini tapmışdır.

Hörmətli həmkarlar, mən yalnız bir neçə rəqəmi qeyd edəcəyəm və bilirəm ki, bu haqda ətraflı məlumat veriləcək. Sadəcə, onu deyim ki, ötən il ölkədə 123 milyard manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur. Bu, 2022-ci illə müqayisədə 1,1 faiz çoxdur. Sevindirici hal odur ki, artım qeyri neft-qaz sektorunun hesabına təmin edilmişdir.

Diqqəti çəkən məqamlardan biri də dövlətin strateji valyuta ehtiyatlarının 17  faizdən çox artması və 68,5 milyard ABŞ dolları təşkil etməsidir.

2023-cü ildə ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün 20 milyard manatdan çox investisiya qoyuluşu həyata keçirilmişdir. Bu isə əvvəlki illə müqayisədə 9,8 faiz çoxdur.

İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması və bərpası üçün 2023-cü ildə 5,6 milyard manatadək vəsait xərclənmişdir. Ötən üç ildə isə bu vəsait 12 milyard manatdan çox olmuşdur.

Hörmətli həmkarlar, bütün bunlar dövlət başçısı möhtərəm cənab İlham Əliyevin müəyyən etdiyi sosial-iqtisadi inkişaf strategiyasının həyata keçirilməsi, makroiqtisadi sabitliyin və maliyyə dayanıqlığının möhkəmləndirilməsi, iqtisadiyyatın şaxələndirilməsi və neft gəlirlərindən asılılığın azaldılması, infrastrukturun inkişafı və digər sahələrdə hökumətin fəaliyyətinin səmərəli qurulduğunu söyləməyə əsas verir.

Hörmətli cənab Baş nazir və hökumət üzvləri! Hörmətli deputatlar! Əminliklə söyləmək olar ki, bu gün ölkəmizin malik olduğu zəngin resurslar qarşıya qoyulan hər bir vəzifəni uğurla yerinə yetirməyə imkan yaradır. Mən bu il fevralın 14-də möhtərəm cənab Prezidentin andiçmə mərasimində söylədiyi nitqdən bir fikri xatırlatmaq istəyirəm. Cənab Prezident demişdi ki, “yeni dövrə qədəm qoyarkən böyük ümidlərlə yaşayırıq.

...Bu yeni dövr uğurla başlayır. Əminəm ki, uğurla da davam edəcək”.

Hörmətli cənab Baş nazir və hökumət üzvləri! Hörmətli deputatlar! Biz həmişə məmnunluqla qeyd edirik ki, Nazirlər Kabinetinin illik hesabatlarının Milli Məclisdə dinlənilməsi parlamentlə hökumət arasında təmasların artmasına, sosial-iqtisadi inkişaf məsələlərinin obyektiv araşdırılmasında və həllində deputatların iştirakına şərait yaradır.

Onu da deyim ki, ötən il Milli Məclisdə Nazirlər Kabinetinin hesabatının müzakirəsi zamanı irəli sürülmüş təkliflər, həmişə olduğu kimi, yenə də hökumət tərəfindən

diqqətlə araşdırılmışdır. Bu təkliflərin icra vəziyyətinə dair ətraflı məlumat bizə təqdim edilmişdir. Eyni zamanda, artıq 4 ildir ki, hesabata ayrıca olaraq, sosial və infrastruktur obyektlərinin əsaslı təmiri və tikintisi, xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması barədə Milli Məclis deputatlarının təkliflərinin icrası barədə məlumat da daxil edilir.

Düşünürəm ki, deputatlar bu gün aparacağımız müzakirədə fəal iştirak edəcək və səmərəli təkliflər irəli sürəcəklər.

Hörmətli həmkarlar, indi isə Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatı təqdim etmək üçün Azərbaycan Respublikasının Baş naziri hörmətli cənab Əli Əsədova söz verirəm. Əli müəllim, buyurun.

**Ə.Əsədov,** *Azərbaycan Respublikasının Baş naziri.*

Hörmətli xanım sədr, hörmətli deputatlar! Bu gün Nazirlər Kabineti 2023-cü ildəki fəaliyyəti haqqında hesabatla Milli Məclis qarşısında çıxış edir. Belə bir hesabatlılıq hökumətlə Milli Məclis arasında səmərəli və işgüzar əməkdaşlığa böyük fayda verir, hökumətin gördüyü işləri hörmətli millət vəkilləri ilə birlikdə müzakirə etməyə və qarşıda duran vəzifələri və çağırışları bir daha dəqiqləşdirməyə şərait yaradır.

Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuz tərəfindən Ermənistanın 30 ilə yaxın işğalçılıq siyasətinə 44 günlük Vətən müharibəsində son qoyulduqdan 3 il sonra, 2023-cü ilin sentyabr ayında həyata keçirilən bir günlük antiterror tədbirləri nəticəsində ərazi bütövlüyümüz və suverenliyimiz tam təmin edilmişdir. Bu, tarixi hadisədir və bu tarixi hadisə bizim çoxəsrlik tariximizdə xüsusi yerə malikdir.

Məhz 7 fevral Prezident seçkilərinin əsas xüsusiyyəti və önəmi ondadır ki, müstəqillik dövründə ilk dəfə seçkilər ölkəmizin bütün ərazilərində keçirilmişdir.

2023-cü il Azərbaycan xalqı və ölkəmiz üçün çox əlamətdar və uğurlu il olmuşdur. Prezident İlham Əliyev 2024-cü ilin yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində xüsusi olaraq vurğulamışdır ki, "bu gün biz 2024-cü ilə suverenliyini tam bərpa etmiş ölkə kimi, xalq kimi başlayırıq".

Dövlətimizin başçısı müasir tariximizin yeni dövrünün məhz 2023-cü il sentyabrın 20-dən sonra başladığını bildirmiş və bu gün ölkə qarşısında duran yeni vəzifələri yeni dövrün vəzifələri kimi dəyərləndirmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyətinə dair hesabat dövrü həm də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə, Prezident İlham Əliyevin prezidentlik fəaliyyətinin 20-ci ildönümünə təsadüf etmişdir. Dövlət başçısının prezidentlik fəaliyyətinin 20-ci ildönümünün "Heydər Əliyev İli"nə təsadüf etməsi olduqca əlamətdardır. Ulu Öndərin layiqli davamçısı olan Prezident İlham Əliyev onun strateji inkişaf xəttini uğurla davam etdirərək müstəqil dövlətçiliyin və müasir inkişafın Azərbaycan modelini yaratdı.

Hörmətli deputatlar, 2023-cü ili əhatə edən hesabat dövründə də Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə aparılan məqsədyönlü və genişmiqyaslı sosial-iqtisadi islahatlar, həyata keçirilən kompleks tədbirlər nəticəsində ölkəmizdə makroiqtisadi və maliyyə sabitliyi təmin edilmişdir.

Belə ki, hesabat ilində ölkədə 123 milyard manatlıq və ya 2022-ci illə müqayisədə real ifadədə 1,1 faiz çox

ümumi daxili məhsul istehsal olunmuşdur. Əhalinin hər nəfərinə düşən ÜDM isə 0,5 faiz artaraq 12,1 min manat təşkil etmişdir. 2023-cü ildə ÜDM-in istehsalı 2022-ci illə müqayisədə neft-qaz sektorunda 1,7 faiz azaldığı halda, iqtisadiyyatın qeyri-neft-qaz sektorunda 3,7 faiz, qeyri-neft-qaz sənayesi isə 8 faiz artmışdır.

2023-cü ildə xarici ticarət dövriyyəmiz təxminən 45 milyard ABŞ dollarına çatmış, müsbət ticarət saldosu 10,3 milyard dollar olmuşdur. Qeyri-neft ixracı 9,8 faiz artaraq 3,3 milyard dolları üstələmişdir.

2023-cü ildə ölkənin strateji valyuta ehtiyatları 17 faiz və ya 10 milyard ABŞ dolları artaraq 68,5 milyard dollar təşkil etmişdir və xarici dövlət borcunu 10 dəfədən çox üstələyir.  Bu da ÜDM-in 95 faiz səviyyəsindədir.

2023-cü ilin sonuna xarici dövlət borcunun məbləği 3,5 faiz azalaraq 6,46 milyard ABŞ dolları olmuş və ÜDM-in 8,9 faizini təşkil etmişdir.

Milli iqtisadiyyatın inkişafında və ÜDM-in artım tempində neft faktorunu xüsusi nəzərə almalıyıq. Bu baxımdan neft hasilatının sabitləşməsi istiqamətində işlər ciddi nəzarət ilə davam etdiriləcəkdir. Ortamüddətli dövrdə qeyri-neft-qaz ÜDM-nin artım tempinin sürətlənməsinin neft-qaz sektorunda azalmanı kompensasiya edəcəyi və iqtisadi artımın sürətlənməsinə töhfə verəcəyi proqnozlaşdırılır.

Hesabat ili ərzində büdcə gəlirlərinin yüksək icrası şəraitində 2023-cü ilin dövlət büdcəsinin xərcləri dürüstləşmə zamanı 3,3 milyard manat artırılmışdır ki, bu da ötən il strategiyada nəzərdə tutulan hədəflərə çatmağa imkan vermişdir.

Bütövlükdə, 2023-cü ildə dövlət büdcəsinin gəlirləri təxminən 35,6 milyard manat olmuşdur ki, bu da 2022-ci

illə müqayisədə 4,9 milyard manat və ya 16 faiz çoxdur. Xərcləri isə 36,5 milyard manat və ya 99,5 faiz səviyyəsində icra olunmuşdur ki, bu da 2022-ci illə müqayisədə 4,4 milyard manat və ya 13,7 faiz çoxdur.

Eyni zamanda, Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilmiş dövlət müəssisələrinin maliyyə və əməliyyat göstəricilərində əhəmiyyətli yaxşılaşma müşahidə edilir. 2023-cü ildə Portfel Şirkətlərin səmərəli fəaliyyəti nəticəsində ümumi gəlirlər təqribən 74 faiz, EBİTDA göstəricisi 101 faiz artmış və 11 şirkətdən 8-də potensial dividend ödəmə imkanları yaranmışdır.

Hörmətli deputatlar, 2023-cü ildə əldə olunmuş müsbət makroiqtisadi göstəricilərdən biri olan inflyasiya xarici və daxili amillərin, o cümlədən həyata keçirilən antiinflyasiya siyasətinin təsirindən azalmışdır. Hökumət tərəfindən həyata keçirilən antiinflyasiya tədbirləri, valyuta bazarında tarazlığın qorunması, məzənnə sabitliyinin idxal inflyasiyasına azaldıcı təsiri, qəbul edilmiş büdcə qaydasının parametrləri və monetar siyasət qərarları inflyasiya təzyiqlərini yumşaltmışdır.

Nazirlər Kabinetində inflyasiya proseslərinin və onun səbəblərinin araşdırılması və təhlili istiqamətində "İnflyasiya və qiymət monitorinqi" üzrə İşçi qrup yaradılmışdır. Qiymət formalaşması nöqtələrində qiymətlərin artım dinamikasını izləməyə, vaxtında və çevik müdaxilələr etməyə imkan verən "Qiymət İzləmə Tətbiqi" sistemi yaradılmışdır.

Həyata keçirilən tədbirlər nəticəsində 2023-cü ildə birrəqəmli, 8,8 faiz orta illik inflyasiyaya nail olunmuşdur. İllik inflyasiya isə 2,1 faiz təşkil etmişdir.

Hörmətli deputatlar, 2023-cü ildə əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədi ilə dövlət büdcəsi

xərclərinin 36 faizi və ya 13,1 milyard manatı sosialyönlü xərclərin maliyyələşdirilməsinə yönəldilmişdir. Artım 12,7 faiz təşkil etmişdir.

2023-cü ildə minimum əmək haqları 15 faiz artırılaraq 300 manatdan 345 manata çatdırılmışdır. Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan 700 min nəfər işçinin əməkhaqqı orta hesabla 15 faiz artırılmışdır. Həmçinin, minimum pensiya məbləği 16,7 faiz, orta pensiya məbləği 17,3 faiz, yaşa görə pensiya məbləği isə 16,5 faiz artmışdır.

2023-cü il üçün yaşayış minimumu və ehtiyac meyarının həddi bərabərləşmiş və müvafiq olaraq 2022-ci illə müqayisədə 17 faiz və 23 faiz artırılaraq 246 manat müəyyən edilmişdir.

2023-cü ildə təkcə əməkhaqqı və sosial ödənişlərdə yeni artımlar üçün əlavə olaraq 750 milyon manat vəsait ayrılmış və 1,9 milyon vətəndaşı əhatə etmişdir.

Hesabat ilində səhiyyə xidmətlərinə çıxışın yaxşılaşdırılması məqsədi ilə əhalinin icbari tibbi sığortalanması üzrə dövlət büdcəsinin payına düşən vəsait 1 milyard 264 milyon manat təşkil etmişdir. Artım 12,6 faiz olmuşdur.

Hörmətli deputatlar, ötən il sizlərin də dəstəklədiyi dərman vasitələrinin tənzimlənməsi sahəsində qanunvericilikdə mütərəqqi, beynəlxalq təcrübəyə uyğun mühüm dəyişikliklər edilmişdir. Belə ki, əczaçılıq sahəsində qabaqcıl ölkələrdə istehsal olunan dərman vasitələrinin dövlət qeydiyyatına alınması prosesi sadələşdirilir, qiymətqoyma sistemi təkmilləşdirilir, elektron reseptin tətbiqinə başlanılır. İcbari tibbi sığorta çərçivəsində dərman vasitələri təminatının əhatə dairəsi genişləndirilir, yerli istehsalın təşkili istiqamətində müvafiq tədbirlər görülür. Bütün bunlar ölkə ərazisində dərman vasitələrinin

çeşidinin artmasına, əczaçılıq sektorunun rəqabətli inkişafına və əhalinin daha keyfiyyətli dərman vasitələri ilə optimal qiymətlərlə təchizatına xidmət edəcəkdir.

Cənab Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanın Əliyevanın daim diqqət və qayğısı ilə postmüharibə dövründə şəhid ailələrinə, müharibə əlillərinə və həssas təbəqədən olan digər şəxslərə 6000 mənzil verilmişdir, habelə müharibə əlillərinə 474 avtomobil təqdim edilmişdir. Keçmiş qaçqın və məcburi köçkünlərin sosial müdafiəsinin təmin edilməsi məqsədlərinə 2023-cü ilin dövlət büdcəsindən 354 milyon manat vəsait yönəldilmişdir.

Hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi tədbirləri çərçivəsində hərbi qulluqçulara 473 ədəd tam təmirli mənzil alınmışdır.

Hörmətli deputatlar, qeyd etməliyəm ki, ölkə ərazisində qəzalı binalarla bağlı problemlərin həlli üçün son illərdə respublikanın 12 şəhər və rayonunda qəzalı binaların sökülərək yeni binaların tikintisinə və ya sakinlərə maddi yardımların verilməsinə 44,7 milyon manat vəsait ayrılmışdır. 26 binada yaşayan 971 ailənin mənzil-məişət şəraiti yaxşılaşdırılmışdır.

Bu istiqamətdə cənab Prezidentin tapşırığına uyğun olaraq, Bakı, Gəncə və Sumqayıt kimi iri şəhərlərdə ən təhlükəli vəziyyətdə olan 69 bina, təxminən 2886 ailə ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün 50 milyon manat vəsait ayrılmışdır. Növbəti 3 ildə bu istiqamətdə işlər davam etdiriləcəkdir.

2023-cü ildə təhsil sisteminin inkişafı üçün dövlət büdcəsində təhsil xərclərinə 4,4 milyard manat vəsait ayrılmışdır. Artım 19,2 faizdir. 2023-cü ildə 186 təhsil müəssisəsində əsaslı təmir və tikinti işləri aparılmış,

habelə ötən il Heydər Əliyev Fondu tərəfindən 17 ümumi təhsil müəssisəsi tikilmiş, 2-si əsaslı təmir olunmuş və 9-nun isə tikinti işləri davam etdirilir.

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 noyabr tarixli Sərəncamı ilə Xankəndi şəhərində Qarabağ Universiteti yaradılıb.

Hörmətli deputatlar, ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi, əsas ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi, idxaldan asılılıq səviyyəsinin azaldılması hökumətin gündəliyində duran əsas vəzifələrdən biridir. Kənd təsərrüfatı məhsulları istehsalçılarına maliyyə dəstəyi olaraq ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün 478 milyon manat vəsait ayrılmışdır.

2024-cü il yanvarın 1-dən kənd təsərrüfatı sahəsi üzrə vergi güzəştlərinin vaxtı daha 3 il müddətinə uzadılmışdır.

Deputatları narahat edən pay torpaqları üzərində mülkiyyət hüquqlarının rəsmiləşdirilməsi üzrə problemlərin həlli ilə bağlı mülkiyyət sənədləri almayan vətəndaşlardan 53 min 516 nəfərin müraciəti daxil olmuşdur ki, onlardan 47 min 509 müraciət üzrə dövlət qeydiyyatı aparılmış və mülkiyyət sənədləri verilmişdir. Bu, müraciət edənlərin təxminən 90 faizidir.

Kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi üçün vacib olan su problemlərinin həlli də hökumətin qarşısında duran ən mühüm vəzifələrdən biridir. Mövcud su ehtiyatlarından səmərəli istifadə olunması, fermerlərin suvarma suyu ilə təchizatı və suvarma sahələrinin genişləndirilməsi tədbirləri üçün 2023-cü ilin dövlət büdcəsindən 408 milyon manat vəsait yönəldilmişdir.

Hesabat ilində respublika üzrə kənd təsərrüfatı bitkiləri 1 milyon 466 min hektar sahədə orta hesabla 3,4 dəfə suvarılmışdır. 2023-cü ilin sonunda əsas su anbarlarında

suyun həcmi 13,3 milyard kubmetr təşkil etmişdir ki, bu da 2022-ci illə müqayisədə 2,2 milyard kubmetr çoxdur.

Ötən il su sahəsində fəaliyyət göstərən qurumlarda institusional, struktur islahatlarının aparılması su ehtiyatlarından səmərəli istifadəyə və su təsərrüfatının təkmil idarə olunmasına ciddi töhfə verəcəkdir.

Hörmətli deputatlar, möhtərəm Prezidentin birbaşa iştirakı və rəhbərliyi ilə ötən il də işğaldan azad edilmiş ərazilərdə geniş quruculuq işləri aparılmış və ölkə iqtisadiyyatına reinteqrasiyası istiqamətində işlər sürətlə davam etdirilmişdir. Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası üçün 2022–2026-cı illərdə, ümumilikdə, təqribən 32 milyard manatdan çox vəsait tələb olunur. 2021–2023-cü illərin dövlət büdcəsindən bu məqsədlər üçün 12,1 milyard manat, o cümlədən 2023-cü ildə 5,6 milyard manat vəsait ayrılmışdır. 2024-cü ildə 4 milyard manat məbləğində vəsaitin ayrılması nəzərdə tutulur.

2023-cü ilin sonunadək işğaldan azad olunmuş ərazilərə, ümumilikdə, 1186 ailə, 4691 nəfər keçmiş məcburi köçkün köçürülmüşdür. 2024-cü ilin sonunadək işğaldan azad olunmuş 25 yaşayış məntəqəsi üzrə, ümumilikdə, 5171 ailənin, təxminən 20 min nəfərdən çox insanın köçürülməsi planlaşdırılır.

İşğaldan azad edilmiş ərazilərdə bütün sosial infrastruktur obyektləri – yollar, tunellər və körpülər inşa edilir. Elektrik təsərrüfatı yenidən qurulur, dəmir yolları çəkilir, iki beynəlxalq hava limanı açılıb, üçüncüsü də Laçında istifadəyə veriləcək. 24 yaşayış məntəqəsində isə qaz xəttinin çəkilməsi həyata keçirilib.

İşğaldan azad edilmiş ərazilərdə 165 meqavat gücündə 20 stansiya "Azərenerji" tərəfindən istismar edilməkdədir.

İşğaldan azad olunan ərazilərdə "yaşıl enerji"

potensialının yaradılması məqsədi ilə 122 meqavat gücündə 17 ədəd su elektrik stansiyası yenidən qurulub, tikilib və ya bərpa edilib, 73 meqavat gücündə 9 ədəd su elektrik stansiyasının tikintisi davam etdirilib.

Hörmətli deputatlar, genişmiqyaslı layihələrin həyata keçirilməsi üçün işğaldan azad olunmuş ərazilərdə 2023-cü ildə Minatəmizləmə Agentliyi və minatəmizləmə əməliyyatlarına cəlb olunmuş dövlət və qeyri-dövlət qurumları tərəfindən, ümumilikdə, 53,1 min hektar ərazi minalardan təmizlənmişdir. Ümumiyyətlə, 2024-cü il martın 1-dək 123 mindən artıq hektar təmizlənib və 114.730 mina və partlamamış hərbi sursat aşkar edilib. 2024-cü ildə isə 60 min hektar ərazinin minalardan təmizlənməsi planlaşdırılır.

Ölkənin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin daha da gücləndirilməsi məqsədi ilə 2023-cü ilin dövlət büdcəsindən müdafiə və milli təhlükəsizlik xərclərinə təqribən 5,9 milyard manat vəsait ayrılmışdır. Bu, 2022-ci illə müqayisədə 19,6 faiz çoxdur.

Hörmətli deputatlar, hesabat ilində Azərbaycanın beynəlxalq enerji təhlükəsizliyində və nəqliyyat dəhlizlərinin inkişafında rolu daha da güclənmişdir. Azərbaycan qazı ilə təchiz edilən ölkələrin sayı 8-ə çatmışdır. Gələcəkdə bizim ixrac coğrafiyamız Avropa istiqaməti üzrə daha da artırılacaqdır. Eyni zamanda, ölkəmiz böyük bərpaolunan külək və günəş enerjisi potensialına malikdir. Prezident İlham Əliyevin uğurlu enerji siyasətinin nəticəsində bu istiqamətdə mühüm işlər görülür. Ölkədə, habelə Xəzər regionunda və MDB məkanında ən böyük günəş elektrik stansiyası olan 230 meqavat gücündə "Qaradağ" Stansiyası istismara verilmişdir.

2023-cü ildə Naxçıvanda 400 meqavat gücündə günəş elektrik stansiyasının tikintisi və elektrik enerjisinin Türkiyəyə ixracı üzrə əməkdaşlığa dair memorandum imzalanmışdır.

Azərbaycanın ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin ötürmə qabiliyyətinin artırılması və tranzit potensialının reallaşdırılması üçün kompleks tədbirlər həyata keçirilməkdədir. 2023-cü ildə nəqliyyat dəhlizlərində daşınmış yüklərin həcmi 32,8 milyon ton olmuşdur. Dəhlizlər vasitəsi ilə daşınmış yüklərin 57 faizini tranzit yüklər təşkil etmişdir. Azərbaycan ərazisindən keçən tranzit yükdaşımalar 12,5 faiz artmışdır.

Hörmətli xanım sədr, hörmətli deputatlar! Hökumətin qarşısında 2024-cü və gələcək illərdə duran əsas vəzifələr və çağırışlar barədə sizləri məlumatlandırmaq istərdim.

Yeni inkişaf mərhələsindəki hədəflərə çatmaq üçün "2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın və "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın uğurlu icrası və maliyyə təminatının yaradılması vacib vəzifələrdən hesab olunur.

Müasir ordu quruculuğu prosesi və milli təhlükəsizlik potensialının artırılması davam etdiriləcəkdir. Dövlət büdcəsində ən böyük xərclər növbəti illərdə də hərbi xərclər olacaqdır.

Əsas vəzifələrdən biri də Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsidir. Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq, 2026-cı ilədək 34.500 ailənin, təxminən 140 min nəfərin doğma torpaqlarına qayıdışı təmin olunmalıdır.

Qarabağ və Şərqi Zəngəzur qeyri-neft iqtisadiyyatının inkişafında yeni drayverlərdən biri olacağı nəzərdə tutulur.

İqtisadi sahədə aparılacaq islahatlar çərçivəsində sağlam rəqabətə əsaslanan, şəffaf və sağlam biznesin inkişafı ilə bağlı zəruri addımlar atılacaqdır. Məhz Rəqabət Məcəlləsinin qəbul olunması və dövlət-özəl tərəfdaşlığının təşviqi iqtisadi artımın sürətlənməsinə əlavə zəmin yaradacaqdır. Eyni zamanda, cənab Prezidentin sərəncamı ilə səkkiz dövlət müəssisəsinə özəl investisiyaların cəlb edilməsi bu prosesə təkan verəcəkdir.

Ölkədə pul və kapital bazarlarının inkişafının dəstəklənməsi, qiymətli kağızlar bazarında investisiyaların cəlbediciliyinin artırılması və ümumən, investisiya aktivliyinin yüksəldilməsi istiqamətində zəruri işlər davam etdiriləcəkdir.

Büdcə xərclərinin səmərəliliyinin qiymətləndirilməsi, ortamüddətli xərclər çərçivəsinin əhatə dairəsinin genişləndirilməsi və nəticə əsaslı büdcə mexanizminə keçidlə bağlı islahatlar sürətləndiriləcəkdir.

Cənab Prezidentin hökumət qarşısında qoyduğu əsas vəzifələrdən biri də yüksək rəqabətli insan kapitalını formalaşdırmaqdır. Bunun üçün azərbaycançılıq prinsiplərini özündə ehtiva edən innovativ müasir təhsilin və elmin, sağlam cəmiyyətin və texnoloji inkişafın təşviq edilməsi əsas şərtlərdir.

Dünyada gedən geosiyasi proseslər ölkəmizin nəqliyyat infrastrukturuna olan ehtiyacını daha da artıracaq. Bu sahədə qəbul olunmuş proqramlar Azərbaycanın tranzit-logistika potensialının genişləndirilməsinə və tranzit yükdaşımaların təşviqinə imkan verəcəkdir.

Cənab Prezidentin hökumət qarşısında qoyduğu hədəflərdən biri də 2030-cu ilin sonunadək Azərbaycanda 5 min meqavata yaxın bərpa olunan enerji istehsalına nail olmaqdır. Eləcə də ölkəmiz “Qara Dəniz Yaşıl Kabel”

layihəsi ilə Avropaya “yaşıl enerji” ixrac edən vacib tərəfdaşlardan biri olmağı planlaşdırır.

Məhz cənab Prezident tərəfindən aparılan məqsədyönlü və uğurlu “yaşıl enerji” siyasətinin nəticəsidir ki, COP29 beynəlxalq konfransının Bakıda keçirilməsi qərara alınmışdır. Bu, beynəlxalq birliyin Azərbaycana olan böyük hörmət və etimadının bariz göstəricisidir.

Əlbəttə ki, bütün bu vəzifələrə və hədəflərə nail olmaq üçün dayanıqlı və diversifikasiya olunmuş iqtisadiyyatın inkişafı təmin edilməlidir.

Çıxışımın sonunda qeyd etmək istəyirəm ki, möhtərəm cənab Prezidentin söylədiyi kimi, “bu gün heç kimdən asılı olmayan Azərbaycan inamla, uğurla inkişaf edir və öz siyasətini də buna uyğun şəkildə aparır”.

Hörmətli xanım sədr, hörmətli deputatlar! 2024-cü ildə məsuliyyətli və şərəfli vəzifələrin yerinə yetirilməsində, qanunvericilik sahəsində fəaliyyətinizdə sizə uğurlar arzulayıram. Fürsətdən istifadə edərək, qarşıdan gələn Novruz bayramı münasibəti ilə sizi ürəkdən təbrik edir, sizə can sağlığı və xoşbəxtlik arzulayıram. Diqqətinizə görə təşəkkür edirəm. (*Alqışlar.*)

**Sədrlik edən.** Çox hörmətli Əli müəllim, çox sağ olun. Hörmətli həmkarlar, biz hesabatı dinlədik. İndi isə müzakirələrə keçirik. Xahiş edirəm, yazılın. Buyurun. Təklif var, 5 dəqiqəyə keçək. Hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Mən təklifi səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.45 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 1 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, təklif səs çoxluğu ilə qəbul edildi. Protokol qaydasında qərar qəbul edildi.

Xahiş edirəm, 5 dəqiqə. 5 dəqiqədən artıq vaxt istəməyin, əlavə vaxt verməyəcəyəm. Zahid Oruc. Buyurun.

**Z.Oruc.** Hörmətli xanım sədr, hörmətli Baş nazir. 2023-cü ildə hökumətin fəaliyyətini qiymətləndirərkən ilk dəfə coğrafi və siyasi bütövlüyümüzün təmin olunmasını tarixi hadisə kimi qeyd edirik. Nəhayət, yarımçıq hesabatlardan xilas olduq. Son 300 ildə elə bir quruluş olmayıb ki, biz torpaq itkilərinə və köçkünlüyə məruz qalmayaq. Prezident İlham Əliyev çoxəsrlik tarixi gedişi dəyişdirdi.

Hökumətin Böyük Qayıdış siyasəti işğaldan əvvəl Qarabağda olan 936 yaşayış məntəqəsini gələcəkdə 316-ya endirməyi nəzərdə tutur. Yaponlar və almanlar da oxşar yolla gediblər. Lakin təkcə büdcə vəsaitləri ilə Qarabağı tikmək qeyri-mümkündür.

2023-cü il yanvarın 1-dən 10 il müddətinə texnika və qurğuların, xammal və materialların idxalı ƏDV-dən azad olunub. Bu, müsbət addımdır. Eyni zamanda, emal sənayesi və xidmət infrastrukturunu yaratmaq, onu iqtisadi sistemə qoşmaq üçün azad torpaqlarda "sıfır vergi" siyasətini tətbiq etsək, daxili-xarici investisiyanın yolunu açarıq. Hökumət xüsusi qaydalar hazırlaya, azad torpaqlara qayıtmaq istəyən, köçkün olmayan vətəndaşlara çağırış edə, şəffaf şərtlərlə bir kənddə 100 evi tikmək istəyən şirkətin planlarına icazə qarşılığında onların xərclərini qarşılaya bilər və dövlətin yükü paylaşılar.

Ötən il iqtisadi artımın 1 faizdən kiçik olması adambaşına düşən gəlirlərin də azaldığını göstərir. Qeyri-neft sektorunun 3,2 faizlik artımı, neft sektorunun 1,6 faizlik azalması ilə iqtisadi artım 0,8 faiz təşkil edib. Bunun başlıca səbəblərindən biri də sərhədlərin bağlı olması, əhalinin sərbəst hərəkət edə bilməməsi ticarətdəki məhdudluqdur. Dövlətin qərarı başa düşüləndir, lakin Rusiya ilə ticarət dövriyyəsinin tarixdə ilk dəfə rekord həddə – 7,3 milyard manata çatmasını nəzərə alaraq, qonşu ölkə ilə sərhədlərin açılması əhalinin iqtisadi aktivliyi və gəlirlərini bərpa edə bilər.

Türk Dövlətləri Təşkilatı ötən il beynəlxalq mövqelərini gücləndirdi. Sevindiricidir. Lakin İslam Konfransı Təşkilatı, o cümlədən 156 milyonluq əhali, 1,3 trilyon dollarlıq ÜDM-ə malik olan türk coğrafiyası azad torpaqlarda 100 məktəb inşa etsə, "Marşal planı"nın bir parçası olar. Hökumət Amerika və Avropa Birliyinə açıq müraciət edə bilər ki, işğalın nəticələrini aradan qaldırmaq üçün ölkəmizə kömək etsinlər. Əgər milli tikinti şirkətlərinə onların inamı azdırsa, Beynəlxalq İnkişafa Yardım Agentliyinin xətti ilə öz tikinti qurumlarına sifariş versinlər. Ötən il Qarabağın bərpası üçün Beynəlxalq Donor Konfransı keçirilməsini təklif etmişdik. Bütün dövlətlərə dəvət göndərsək, gəlməyən ölkələrin ədalətə, sülhə münasibətini dünyaya göstərərik. Müharibəni xalqımız özü apardı, heç olmasa, 10 kəndi, 100 evin inşasını sabiq Minsk qrupu həmsədr ölkələri üzərinə götürsün ki, BMT tribunasından danışmağa üzləri olsun.

Seçkilər zamanı Asiya Universitetində görüşdə bəlli oldu ki, qlobal coğrafiyanı öyrədən təhsil müəssisəsi bağlanıb. 8 fakültəsi, 270 tələbəsi olan universitetə gənclər nədən gəlməyiblər? Bəlkə təbliğatı düzgün qurmamışıq.

Asiya qitəsində 4,4 milyard əhali yaşayır, Çin və Yaponiya ÜDM-nə görə 192 ölkə içərisində ilk onluqdadır. Böyük qitə ilə işləyən mütəxəssislər nə qədər çox olsa, iqtisadiyyat şaxələnər, ixracın coğrafiyası genişlənər.

Ölkəmizdə Qərb Universiteti var, Avropa Birliyi ticarət dövriyyəmiz 36 faizlik bir çəkiyə malikdir. Lakin sərt iqtisadi standartları olmayan Əfqanıstandan İraqa və Çinə qədər milyard manatlıq mal sata bilərik. İraqla 2012-ci ildə 418 milyon dollarlıq ticarət dövriyyəsi indi 29 milyon dollara, Əfqanıstanla isə 2014-cü ildə 275 milyon dollarlıq ticarətimiz 37 milyon dollara düşüb. Asiya Universitetini bərpa etmək, minlərcə kadr hazırlığına başlamaq gərəkdir. Biz təhsili və texnologiyanı Qərbdən ala, ticarəti Şərqlə apara bilərik.

Ermənistanla kommunikasiyalar ötən il də açılmadı. Azərbaycan Şərqi Zəngəzur yollarının tikintisini başa çatdırır. Biz Ermənistana müraciət etməliyik, Qərbi Zəngəzurda quru və dəmir yollarını da ölkəmiz çəkməyə hazırdır, o şərtlə ki, bütün məsrəfləri geri almaq üçün rusum və ödənişlər müəyyən müddətə bizim büdcəyə ödəniləcək. Diplomatik münasibətləri olmayan iki ölkə arasında bu, ilk körpü olar.

Ölkəmiz bərpa olunan enerjiyə keçiddə yüksək siyasi iradə göstərir. Ona görə də Prezident bəyan edir ki, dünyada əksər neft şirkətləri təyinatlarını dəyişib çox-profilli enerji kompaniyaları olur. Hökumət ötən il "Yaşıl Azərbaycan" siyasətini bir mərkəzdən idarə etmək üçün SOCAR-ı genişləndirib onu "Yaşıl Enerji Şirkəti"nə çevirə bilər.

Yekunda bir daha qalib xalqımızın sosial-iqtisadi gözləntilərinin artdığını, yaxşı idarəetmə üçün tələblərinin

gücləndiyini...

**Sədrlik edən.** Sağ olun. Fazil Mustafa. Buyurun.

**F.Mustafa.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hökumət üzvləri, millət vəkilləri. Öncə ölkə Prezidentinin yenidən etimad göstərdiyi hörmətli cənab Baş naziri və bütün hökumət üzvlərini fəaliyyətə başlamaları münasibəti ilə təbrik edir, fəaliyyətlərində uğurlar diləyirəm.

Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabat məzmunca həm də 2023-cü il 20 sentyabr tarixinə gətirib çıxaran yolun hesabatıdır. Yəni ərazi bütövlüyümüzün tam şəkildə bərpa olunduğu ilin hesabatıdır və həm də qısa müddətdə işğaldan azad olunmuş ərazilərimizin genişmiqyaslı bərpasının davam etdiyi tarixin hesabatıdır. Formaca da bu hesabat əvvəlki illərdən daha müsbət sayıla biləcək tendensiya, yenə də millət vəkillərinin 1 il öncə qaldırdığı məsələlərə verilmiş əsaslı şərhlərlə yanaşı, onların səsləndirdikləri və yazılı şəkildə təqdim etdikləri faydalı təkliflərin ayrıca yer almasıdır. O deməkdir ki, burada səslənən bütün təklif və təşəbbüslərə hökumətin həssas yanaşması var.

Ancaq bunlarla yanaşı, yaşadığımız reallıqlar çox ciddi islahatların sürətlə həyata keçirilməsini tələb edir. İlk öncə mədəniyyət sahəsinə aid olan bəzi təkliflərimizi səsləndirmək istəyirəm. Hazırda mədəniyyət sahəsində ümumi daxili məhsulda payı 0,5 faiz təşkil edir. 2023-cü ilin dövlət büdcəsində birbaşa və dolayısı ilə mədəniyyət sahəsinə aid xərclər cəmi 454 milyon manat təşkil edir. Bu da dövlət büdcəsi xərclərinin 1,3 faizindən az hissəsidir. Mədəniyyət Nazirliyinə ayrılan vəsait bu istiqamət üçün ayrılan vəsaitin yalnız bir hissəsini təşkil edir. Bu isə mədəniyyət sahəsində ciddi bir dönüş yaratmağa imkan

vermir. Ölkədə müxtəlif sahələr üzrə yaradıcı ittifaqlar və digər qeyri-hökumət təşkilatları fəaliyyət göstərir. Dövlət də onların yaşaması, fəaliyyəti üçün vəsait ayırır. Ancaq bir çox hallarda bu, ayrı-ayrı yaradıcı istedadların dəstəklənməsi üçün optimal yol sayılmır. Ona görə də ayrı-ayrı istedadları yaradıcı ittifaqlar üzərindən deyil, xüsusi yaradılmış istedadları himayə fondu tərəfindən hərtərəfli dəstəkləmək ölkəmiz üçün daha məqsədəuyğun olardı.

Mədəni irsin qorunması istiqamətində mühüm işlər görülmüşdür. Ancaq ölkədə əsas problem mədəniyyət infrastrukturuna əlçatanlıqla bağlıdır. Yüzlərcə yaşayış məntəqəsi var ki, insanların mədəni inkişafına yardım edəcək mədəniyyət evi və saraylarının, musiqi məktəblərinin, yaradıcı sənət ocaqlarının olmaması ölkədə cinayət törədən, narkomaniyanın, insan alverinin qurbanına çevrilən və başqa neqativ subyektlərin artmasının əsas səbəblərindən biridir. Fikrimcə, hökumət hər bir bölgədə hər bir vətəndaş üçün əlçatan mədəniyyət ocağı strategiyasını gerçəkləşdirməlidir.

Digər tərəfdən, Qarabağ komandasının dünənki uğuru nəyi göstərdi? Maliyyə müstəqilliyi olan bir komanda Avropada Azərbaycan idmanının bu qədər üstünlüklərini göstərə bildi. Deməк, bunun işinə bürokratiya müdaxilə etmədikcə, onda inkişaf daha çox olur. Ona görə də biz idmanımızın da bu sahədə inkişafına diqqət yetirməliyik.

Biz digər tərəfdən, Nazirlər Kabinetinin hesabatında dövlətin, ölkənin qarşısında duran problemlərindən daha çox vaxt qıtlığına görə millət vəkili kimi özümüzün qəbulda qarşısında dura bilmədiyimiz problemlərdən bəhs etməyi düşünürük. Bunlar, əsasən, işsizlik, əlilliyin və pensiyaların təyinatı, ailə və uşaq problemləri, təhsillə

bağlı problemlərdir.

Təsəvvür edin ki, 2025-ci ilədək 17 regional Dost Mərkəzinin 55 rayon filialının açılması nəzərdə tutulub. Hesabat ilində Dost mərkəzləri vasitəsi ilə əhaliyə 15 istiqamət üzrə 159 xidmət göstərildiyi qeyd olunur. Doğrudanmı, 159 xidmətə görə bu qədər bina tikilib, işçi götürüb bir qurumu saxlamaq faydalıdır, yoxsa aşağı faizə özəl sektora kredit verib yeni iş yerlərinin açılmasını stimullaşdırmaq? Sonra da yazılır ki, 2023-cü ildə Dost Mərkəzi tərəfindən gündəlik 2,9 min nəfər olmaqla 700 min nəfər şəxsə müvafiq xidmətlərin göstərilməsi təmin edilmişdir. Özləri də qiymət verirlər ki, 98 faiz məmnunluq səviyyəsi var. Bunu necə qiymətləndirirlər? Axı, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 643 min nəfərə peşə yönümlü məsləhət verdiyi, 486 min nəfərə iş yeri açıldığı qeyd olunur. Olmaz ki, iş yeri açdığı qədər məsləhət, məsləhət verdiyi qədər də iş yeri açaydı? İşə düzəldirlər, 1 il keçəndən sonra çağırır ki, bəs müqavilənin müddəti bitib. Yerinə başqa adamı götürürlər. Belə hallar işsizliyin artmasına səbəb olur. Ona görə də bu nöqsanların ortadan qaldırılıması vacibdir və bu istiqamətdə hökumətin fəallıq...

**Sədrlik edən.** Sağ olun. Tahir Mirkişili. Buyurun.

**T.Mirkişili.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli hökumət üzvləri və deputat həmkarlarım. Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatla bağlı ətraflı çıxışına və bizə təqdim edilmiş geniş hesabata görə hörmətli Baş nazirə öz təşəkkürü bildirmək istərdim.

2023-cü ildən danışan zaman ağıla ilk gələn ərazi bütövlüyümüzün tam bərpası, möhtərəm Prezident cənab İlham Əliyev tərəfindən bayrağımızın Xankəndidə, Xo-

calıda ucaldılması, Azərbaycan xalqının tam azadlığa qovuşmasıdır. Bu, əslində, 100 ilin hesabatı oldu. Biz bu il ilk dəfə olaraq bir neçə gündən sonra Novruz bayramını bütün ərazilərimizdə qeyd edəcəyik. Fürsətdən istifadə edib, mən də sizi qarşıdan gələn bayram münasibəti ilə təbrik edirəm.

Bu hadisənin miqyası o qədər böyükdür ki, digər bütün rəqəmlər onun kölgəsində qalır. Amma bu möhtəşəm qələbəmizin əbədi olması üçün fikrimcə, hər bir sahə inkişaf etməli, əldə edilən nəticələr daim təhlil edilməli və dayanmadan səylər göstərilməlidir. Bu kontekstdə təqdim olunan hesabat və Milli Məclisin yanında büdcə nəzarəti orqanı olan Hesablama Palatasının il ərzində təqdim etdiyi auditin nəticələri Nazirlər Kabinetinin fəaliyyətinə qiymət vermək üçün lazımi əsas yaratmışdır.

Hesab edirəm ki, təqdim edilmiş hesabat struktur və məzmun baxımından əhatəli və informativdir. Dövlət başçısı tərəfindən hökumətə verilmiş tapşırıqların icra səviyyəsinin ölçülməsi üçün xeyli məlumatlarla təchiz olunmuşdur. Hesabata yeni bölmələrin əlavə edilməsi, Milli Məclis deputatlarının və Hesablama Palatasının 120-yə yaxın təklif və tövsiyəsinin icrasına da geniş yer ayrılması təqdirəlayiq haldır. Ümumiyyətlə, Nazirlər Kabinetinin son illər bu istiqamətdə fəaliyyətini hər il daha da genişləndirməsi dövlət maraqlarına birgə xidmət etmək yolunda, hörmətli xanım sədr, Sizin də qeyd etdiyiniz kimi, Milli Məclis–hökumət əməkdaşlığını daha da gücləndirir, dövlət başçısının sosial-iqtisadi siyasətinin daha effektiv icrasına və bundan ölkə vətəndaşlarının bütün sahələrdə daha çox fayda əldə etməsinə imkan yaradır.

Hesabat ilində ölkəmizdə iqtisadi artımın qeyri-neft-qaz

sektoru hesabına təmin edilməsini, neft-qaz sektorunun isə regional iqtisadi nüfuzumuzun güclənməsində aktiv rol oynamasını, strateji ehtiyatlarımızın artmasının iqtisadi müstəqilliyimizi daha da gücləndirməsini, makroiqtisadi sabitliyin qorunub saxlanılmasını, sosial ödəmələrin tam yerinə yetirilməsini yüksək qiymətləndirirəm. Çünki hesab edirəm ki, bu vəzifələr böyük fədakarlıq tələb edir.

Hesabat ilində orta illik inflyasiyanın 8,8 faiz təşkil etməsini hökumət və Mərkəzi Bank tərəfindən görülən antiinflyasiya tədbirlərinin, monetar siyasətin müsbət nəticəsi kimi qəbul edirik. Bu il inflyasiya gözləntilərinin cəmi 2,4 faiz təşkil etməsi cəmiyyətlə qurulan aktiv kommunikasiyanın uğurlu nəticəsi kimi qeyd edilməlidir.

2023-cü ildə dövlət büdcəsi gəlirlərinin proqnozdan artıq, xərclərinin 99,5 faiz səviyyəsində icra olunmasını təqdirəlayiq hal hesab edirəm. İcra səviyyəsinin yüksək olması planlaşdırılan işlərin və layihələrin yerinə yetirilməsi baxımından çox vacibdir. Bu göstərici həm də müvafiq qaydalar çərçivəsində büdcə mexanizmlərinin effektiv işlədiyini deməyə əsas verir.

Dövlət borcuna və öhdəliklərinə xidmətlə bağlı xərclərin yığılan vergilərə nisbətinin cəmi 5,7 faiz olması yaxşı göstərici sayılır. İşğaldan azal olunmuş ərazilərinin yenidən qurulması və bərpası üçün həyata keçirilən işləri yüksək qiymətləndiririk.

Hörmətli cənab Baş nazir, hökumət üzvləri. Bütün bunlarla yanaşı, gələcək fəaliyyətin təkmilləşməsi baxımından bir neçə təklifi də diqqətinizə çatdırmaq istərdim.

Birincisi, fikrimcə, Nazirlər Kabinetinin öz fəaliyyəti haqqında hesabatının hər il Milli Məclisin yaz sessiyasının 5-ci iclasında deyil, may ayında təqdim etməsi daha məqsədəuyğun ola bilərdi. Bu, həm də hesabatda təqdim

edilmiş məlumatların daha dolğun və daha tam olmasına imkan verərdi. Məsələn, təqdim edilmiş fəaliyyətdə tədiyyə balansının rəqəmləri 9 aylıq rəqəmlərdir.

İkincisi, hesabatda dövlət proqramlarının icrası haqqında daha geniş məlumatın verilməsi məqsədəuyğun olardı. Bu, həm də deputatların öz dairələrində görülən işlər haqqında daha geniş məlumata sahib olmalarına, deputat-seçici münasibətlərinin inkişafına səbəb olardı.

Üçüncüsü, publik hüquqi şəxslərin maliyyə-təsərrüfat fəaliyyətlərində əsaslandığı qaydalar və bu qaydaların Nazirlər Kabinetinin qaydaları ilə uyğunluğunun təhlil edilməsinə, fikrimcə, böyük ehtiyac vardır.

Dördüncüsü, istehsal sahəsi üçün tələb olunan torpaqların təyinatı və istifadəsi qaydalarında çevik və iqtisadi cəhətdən səmərəli mexanizmlərin yaradılmasına, fikrimcə, böyük ehtiyac vardır.

Hesab edirəm ki, bu təkliflərin nəzərdən keçirilməsi iqtisadi səmərəliyi daha da artırar, investisiyanın həcmini daha da böyüdər  və nəzarət mexanizmlərini isə gücləndirə bilər.

Yekun olaraq, Nazirlər Kabinetinin 2023-cü il üçün fəaliyyəti haqqında hesabatı mən də müsbət qiymətləndirirəm. Azərbaycan yeni dövrə qədəm qoyub, bu reallıqları yaradan və onu idarə edən dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz əminəm ki, bütün sahələrdə daha güclənəcəkdir. Sizə bu yeni missiyada uğurlar arzu edirəm və hesabata da səs verəcəyəm. Çox sağ olun.

**Sədrlik edən.** Tahir müəllim, çox sağ olun. Xatırladım, Konstitusiyaya uyğun olaraq, 5-ci iclas.

Nurlan Həsənov. Buyurun.

**N.Həsənov.** Hörmətli xanım sədr, hörmətli cənab Baş

nazir, hökumət nümayəndələri, dəyərli deputat həmkarlar. Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə qarşısında kifayət qədər çətin vəzifələr olmasına baxmayaraq, Azərbaycan 2023-cü ili böyük bir uğurla başa vurdu. Ərazi bütövlüyümüz tam bərpa edildi, Qarabağda quruculuq işləri davam etdirildi və hərbi potensialımız, müdafiə qabiliyyətimiz daha da gücləndirildi.

Günümüzün həqiqəti soyuq müharibə dövründən dünyamıza miras qalan güc mərkəzləri arasında siyasi qütbləşmənin heç vaxt olmadığı qədər kəskinləşməsidir. Bu gün dünyamızda beynəlxalq hüququn heçə sayılması və münaqişələrin artıq diplomatik yolla deyil, güc yolu ilə həll edilməsi reallığı yaranmışdır. Müstəqilliyin və ərazi bütövlüyünün qorunması, işğala məruz qalmama kimi çağırışlar güclü orduya sahib olmaq ehtiyacını yaradır. Əminliklə deyə bilərik ki, 2023-cü ildə cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bütün bu çağırışlara cavab verə bilmişdir. Bu uğurların pik nöqtəsi, əlbəttə ki, cənab Prezident İlham Əliyevin Xankəndidə Azərbaycan Bayrağını dalğalandırması, ərazi bütövlüyümüzün tamamilə bərpa edilməsi, Azərbaycan xalqına ağır günlər yaşatmış cinayətkar separatçı rejimin nümayəndələrinin hüquq mühafizə orqanlarımız tərəfindən məsuliyyətə cəlb edilməsi olmuşdur.

Bu gün Qarabağda şəxsən cənab Prezident İlham Əliyevin iştirakı ilə neçə şəhər, kənd və qəsəbənin təməli qoyulur. 30 illik işğal dövründə təbii resurslarımızın vəhşicəsinə istismarı nəticəsində təbiətimizə böyük zərbə vurulmaqla ekoloji fəlakət zonasına çevrilməyə yaxın olan Qarabağ cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan yenidənqurma işləri nəticəsində tezliklə “yaşıl enerji” istehsal edən ekoloji təmiz zonaya çevriləcəkdir.

Bu isə, əlbəttə ki, öz vətənini sevən hər bir azərbaycanlının qəlbini qürur hissi ilə doldurur.

Hörmətli xanım sədr, hökumət nümayəndələrinin burada olmasını nəzərə alaraq, vacib və faydalı hesab etdiyim bir təklifi səsləndirmək istəyirəm. Bildiyimiz kimi, ölkəmizdə son dövrlərdə dövlət xidmətlərinin elektronlaşdırılması istiqamətində bir çox işlər görülmüş, dövlət orqanlarının informasiya sistemləri təkmilləşdirilmiş, inteqrasiya edilmiş, vətəndaş məmnunluğu artırılmış, korrupsiya və sui-istifadə halları kəskin azalmışdır. Azərbaycan Respublikasının Prezidenti 2022-ci il aprel ayının 4-də "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında" Sərəncam imzalamışdır. Həmin sərəncamın 1.8-ci bəndinə uyğun olaraq, İqtisadiyyat Nazirliyimizə "tikilməkdə olan və ya tikilmiş və istismara qəbul edilməmiş çoxmənzilli binalarda mənzillərə dair verilmiş hüquqmüəyyənedici sənədlərin vahid informasiya bazasının yaradılması, bu istiqamətdə daşınmaz əmlakın təminat qeydinin aparılması mexanizmlərinin təkmilləşdirilməsi" tapşırığı verilmişdir. Dünya təcrübəsinə nəzər salsaq, rahat şəkildə görə bilirik ki, təminat qeydi mexanizminin tətbiqi gündəlik həyatımızda vətəndaşlarımızın tez-tez qarşılaşdığı, bir mənzilin bir neçə şəxsə satılması kimi böyük bir problemi asanlıqla həll edə bilər və dünya ölkələrində bu mexanizm geniş tətbiq edilir. Əminliklə deyə bilərəm ki, bu mexanizmin tətbiqi daşınmaz əmlak bazarında şəffaflığın daha yaxşı təmin olunmasına, vətəndaşlarımızın mülkiyyət hüquqlarının qorunmasına, vergidən yayınma hallarının, tikinti şirkətləri tərəfindən sui-istifadə hallarının qarşısının alınmasına, vətəndaşlarımızın ipotekadan istifadəsinin asan-

laşdırılmasına aparacaqdır. Bu mexanizmin tətbiqi daşınmaz əmlak bazarından dövlət büdcəmizə daxilolmaların həcmini böyük həcmdə artıra və şəffaflığı tam təmin edə bilər. Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Soltan Məmmədov. Buyurun.

**S.Məmmədov**. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir və hökumət üzvləri, dəyərli həmkarlar və media nümayəndələri! Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatından görünür ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası uğurlu nəticələrin əldə olunmasına imkan yaradıb. İqtisadiyyatın bütün sahələrinin inkişafını əks etdirən göstəricilər, əhalinin sosial rifahının yaxşılaşdırılması məqsədi ilə atılmış addımlar ölkəmizin daha da güclənməsinə xidmət edir. Ötən il ərzində makroiqtisadi sabitliyin möhkəmləndirilməsi, iqtisadiyyatın şaxələndirilməsi, sahibkarlığın və qeyri-neft sektorunun inkişafı istiqamətində mühüm nailiyyətlər var.

Düşünürəm ki, təqdim olunan hesabat sosial-iqtisadi proseslərin real mənzərəsini müfəssəl əks etdirir. Bu baxımdan səhiyyə sahəsində əldə olunmuş uğurlar da təqdirəlayiqdir. İcbari tibbi sığortanın tətbiqi, tibbi xidmətlər zərfinin genişləndirilməsi, səhiyyə sahəsində idarəetmənin təkmilləşdirilməsi əhaliyə göstərilən xidmətlərin əlçatanlığını artırmağa imkan yaradır.

Hesabatda qeyd olunduğu kimi, ixtisaslaşmış narkoloji tibb müəssisəsinin tikintisinə əlavə 10 milyon manat vəsait ayrılıb. Bu, narkoloji xəstəliklərlə mübarizə çərçivəsində çox müsbət addımdır. “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair

2019–2024-cü illər üçün Dövlət Proqramı”nın əsas hədəflərindən biri də reabilitasiya mərkəzlərinin sayının artırılması idi. Bu istiqamətdə, həqiqətən, ciddi uğurlar var və Azərbaycanda artıq çoxlu sayda belə mərkəzlər yaradılıb.

Narkoloji xəstəlikdən əziyyət çəkən vətəndaşların müalicə və reabilitasiya prosedurları xüsusi həssaslıq tələb etdiyindən, bu müəssisələrin “Narkoloji xidmət və nəzarət haqqında” Qanunun tələblərinə uyğun olaraq, fəaliyyət göstərməsinə nəzarətin gücləndirilməsi vacibdir. Narkoloji yardım sahəsində xidmət göstərən hüquqi şəxslərin fəaliyyətinin Səhiyyə Nazirliyi tərəfindən verilmiş xüsusi razılıq əsasında həyata keçirilməsi də mühüm əhəmiyyət kəsb edir. Bu müəssisələr müəyyən edilmiş müalicə protokollarından kənara çıxma hallarına yol verməməlidirlər.

İmmunoprofilaktika yoluxucu infeksion xəstəliklərə qarşı ən effektiv müdafiə metodu kimi Azərbaycanda hər zaman uğurla həyata keçirilib. Ümumdünya Səhiyyə Təşkilatının hesabatlarında da ölkəmizin bu sahədə qabaqcıl yerlərdə olduğu əksini tapıb. Bəzi infeksion xəstəliklərin, xüsusi ilə uşaqlar arasında qızılca xəstəliyinin yayılması immunoprofilaktika tədbirlərinin nə qədər vacib olduğunu bir daha təsdiq edir. 1 yaşına qədər uşaqların beşvalentli vaksinlə 68,3 faiz, pnevmokok əleyhinə peyvəndlə 68,2 faiz, 6 yaşlı uşaqların qızılca, məxmərək və epidemik parotit əleyhinə vaksinlə 72,3 faiz əhatə olunması bu sahədə daha çox səy göstərilməsinin zəruriliyinə işarədir. Eyni zamanda, uşaqların peyvənd proqramlarına cəlb olunması məsələsinə yenidən baxmaq, ehtiyac olduğu halda bəzi digər xəstəliklərə qarşı vaksinasiyanı da milli pevənd təqviminə daxil etmək olar.

Biz bu mövzuda Səhiyyə Nazirliyi ilə mütəmadi müzakirələr aparırıq və təqdirəlayiq haldır ki, nazirlik məsələni xüsusi diqqətdə saxlayır.

Müxtəlif xəstəliklərin müalicəsi ilə bağlı proqramların icrasına ayrılan vəsait dövlətin səhiyyəyə və vətəndaşların sağlamlığına xüsusi diqqətinin ifadəsidir. Bu proqramların qəbul edilməsi icbari tibbi sığorta sisteminin tam uğurlu tətbiqinə doğru ardıcıl addımların atıldığı mərhələdə böyük önəm kəsb edir. İcbari tibbi sığorta sisteminin tətbiq dairəsinin genişlənməsi tendensiyası gələcəkdə ayrı-ayrı dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin xidmətlər zərfində tam əhatə olunacağına böyük ümidlər yaradır. Nümunə üçün qeyd edək ki, ötən il "Uşaqlarda anadangəlmə ürək qüsurlarının aradan qaldırılması tədbirləri" proqramının icrasına 2 milyon manatdan bir qədər çox vəsait ayrılıb. Bununla paralel olaraq, 2023-cü il ərzində icbari tibbi sığortanın xidmətlər zərfi çərçivəsində 451 uşağa 521 ürək-damar əməliyyatı və proseduru icra olunub.

Müxtəlif xəstəliklərin müalicəsi ilə bağlı dövlət proqramlarının icrası sahəsində görülən işlər hesabatda əks olunub. Əvvəlki illərlə müqayisəli göstəricilərin hesabata daxil edilməsi görülən işlərin həcmi barədə daha müfəssəl məlumat almaq baxımından məqsədəuyğun olardı.

Hesab edirəm ki, Nazirlər Kabinetinin hesabatı ölkəmizin inkişafını, əhalinin sosial rifahının ildən-ilə yaxşılaşdığını göstərir. Hesabatı müsbət qiymətləndirir və həmkarlarımı hesabatı dəstəkləməyə çağırıram. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Əhliman Əmiraslanov. Əhliman müəllim, buyurun.

**Ə.Əmiraslanov.** Hörmətli Sahibə xanım, hörmətli Əli müəllim, hörmətli hökumət üzvləri. Mən də sizləri qarşıdan gələn Novruz bayramı münasibəti ilə təbrik edir, sizə uzun ömür, can sağlığı və uğurlar arzu edirəm.

Hörmətli həmkarlar, müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun ölkəmizin ərazi bütövlüyünü tam bərpa etməsi ölkəmizin hərtərəfli inkişafına yeni imkanlar yaradır. Müdrik və qalib Azərbaycan xalqı növbədənkənar Prezident seçkilərində yenidən cənab İlham Əliyevi dəstəklədi, bununla da gələcək tərəqqi və rifahımıza dəyərli töhfəsini verdi.

Hörmətli həmkarlar, hökumətin 2023-cü il hesabatı ilə tanış olduqda görürük ki, digər sahələrdə olduğu kimi, əhalinin sağlamlığının qorunması sahəsində də uğurlu addımlar atılmışdır.

İcbari tibbi sığortanın uğurla həyata keçirilməsi sayəsində əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətində və kəmiyyətində ciddi yüksəliş müşahidə olunur. Şübhəsiz ki, bu uğurların əsasında İcbari tibbi sığorta fondunun vəsaitinin artması durur. Fondun vəsaiti hesabat ilində 2 milyard manata yaxınlaşmışdır. Fondun vəsaitinin artımı əhaliyə göstərilən xidmətlər zərfinin də genişlənməsinə imkan yaradır. Təqdirəlayiq haldır ki, fondun xidmətlər zərfi hesabat ilində 2550-dən 3315-ə çatdırılmışdır. Bu da əvvəllər sığorta ilə qarşılanmayan bir sıra yüksək maliyyə tutumlu müayinə və müalicələrin sığorta ilə əhatə olunmasına imkan yaratmışdır. Belə cərrahi əməliyyatlardan ağciyər, böyrək, sümük iliyi transplantasiyası və mürəkkəb açıq qəlb əməliyyatlarını göstərmək olar. Ümid etmək olar ki, belə cərrahi əməliyyatlara qoyulan say məhdudiyyəti də yaxın vaxtlarda qaldırılacaqdır.

Son dərəcə təqdirəlayiq haldır ki, ən mürəkkəb müayinə

və müalicə üsullarının təkcə Bakıda deyil, bölgələrdəki xəstəxanalarda da həyata keçirilməsinə başlanıb. Ölkəmizin müasir özəl xəstəxanalarının da sığortaya cəlb edilməsi təqdirəlayiq hal kimi qiymətləndirilməlidir. Sığortaya cəlb edilmiş özəl xəstəxanaların sayı hesabat ilində təsirli dərəcədə artaraq 154-ə çatdırılmışdır. İnsanlarımızın özəl xəstəxanaların xidmətlərindən məmnunluğu da get-gedə artır.

Hesabat ilində stasionar şəraitdə icra olunan cərrahi əməliyyatların sayında 60 faiz artım müşahidə olunur. Səhiyyə üzrə dövlət proqramlarının böyük bir qisminin sığorta ilə əhatə olunması da müsbət bir hal kimi qiymətləndirilməlidir. Onu da qeyd etmək istərdim ki, əhalinin sığortadan məmnunluğunun artması ilə yanaşı, hesabat ilində sığortadan yararlanan insanların sayı artaraq 5 milyona yaxınlaşmışdır. 5 milyon insan tibb müəssisələrinə 22 milyondan çox müraciət etmişdir. Əminliklə demək olar ki, sığortadan yararlanan insanlarımızın sayı getdikcə artacaqdır.

Hesabat ilində ölkəmizdə əldə edilmiş epidemioloji stabilliyin qorunması məqsədi ilə yoluxucu xəstəliklərlə mübarizə və profilaktika sahəsində də çox ciddi tədbirlər həyata keçirilmişdir. Hörmətli Baş nazirimizin də qeyd etdiyi kimi, "Dərman vasitələri haqqında" Qanunda edilmiş əlavə və dəyişikliklər bu sahədə mövcud olan ciddi problemlərin aradan qaldırılmasına xidmət etməkdədir.

Milli Məclisin Səhiyyə komitəsinin təşəbbüsü və müvafiq qurumların nümayəndələrinin iştirakı ilə son dərəcə aktual olan "Tibbi tullantıların idarəedilməsi"nə həsr olunmuş dinləmə keçirilmişdir. Dinləmənin nəticəsi olaraq Səhiyyə Nazirliyi tibb müəssisələrində genişmiqyaslı monitorinqlər keçirməyə başlamışdır.

Hörmətli həmkarlar, ümumiyyətlə, çox az saylı tibbi xidmətlər istisna olmaqla bütün xəstəliklər sığorta ilə qarşılanmalıdır. İnsanlar arasında ən çox ölümə səbəb olan iki patologiyadan biri olan onkoloji xəstəliklərin sığorta ilə əhatə olunmaması anlaşılan deyil. Bu problem dəfələrcə müxtəlif səviyyələrdə müzakirə olunsa da, hələ ki, müsbət həllini tapmayıb. Səbəbi isə onkoloji xəstəliklərin müalicəsinin yüksək maliyyə tutumlu olması ilə izah olunur. İlk mərhələdə onkoloji xəstələrin bu gün ciddi ehtiyac duyduğu şiş əleyhinə dərman vasitələri, xüsusən hədəf və immunoloji müalicə üçün lazım olan dərman preparatları ilə təminatını icbari tibbi sığorta təxirə salınmadan qarşılamalıdır. Qeyd olunan preraratlarsız onkoloji xəstəliklərin adekvat müalicəsi mümkün deyil. Bütövlükdə...

**Sədrlik edən.** Sağ olun, Əhliman müəllim. Elnur Allahverdiyev. Buyurun.

**E.Allahverdiyev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli Baş nazir, hörmətli hökumət üzvləri, hörmətli həmkarlar, media nümayəndələri. Müasir Azərbaycan tarixinin ən böyük quruculuq dövrünü yaşayır. Ölkədə, əsasən də, işğaldan azad edilmiş bölgələrimizdə reallaşdırılan miqyaslı tikinti-bərpa işləri, həyata keçirilən layihələr cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin qazandığı hərbi və diplomatik qələbələr nəticəsində gerçəkliyə çevrilir.

Bu gün biz hökumətin 2023-cü ilin uğurlu fəaliyyətinin hesabatına yekun vururuq. Ona görə müzakirə etdiyimiz mövzularda artıq yaşadığımız ilin yanvar–fevral aylarının statistikası ötən ilin sonunda dövlət büdcəsinə dair fikir mübadiləsi çərçivəsində səslənən proqnozların doğrulduğunu göstərir. Məsələn, 2024-cü ilin ilk 2 ayı ərzində

ÜDM illik müqayisədə 5 faizlik qeyri neft-qaz artım göstərib və 18 milyard 577 milyon manata çatıb. İqtisadiyyatın neft-qaz sektorundan asılılığının azaldılması nöqteyi-nəzərdən qeyri-neft sektorunda 10 faizlik artım faktı xüsusi ilə sevindiricidir. Bu, real iqtisadiyyatın payının getdikcə böyüdüyünün göstəricisdir. Ticarətdən tutmuş kənd təsərrüfatınadək bütün sahələrdə ÜDM artımı müşahidə olunur. Ancaq sənayedəki 40 faizlik yüksəlişi xüsusi qeyd etmək lazımdır. Yanvar–fevral aylarında 10,2 milyard manatlıq sənaye məhsulu istehsal olunub. Müasir iqtisadiyyatların sənayesiz təsəvvür edilməsi qeyri-mümkündür.

İqtisadiyyata investisiya yatırımı ötən ilin müvafiq dövrü ilə müqayisədə 15,5 faiz artıb. Burada da qeyri-neft-qaz sektorundakı vəziyyət ürəkaçandır. Bu sferaya yatırılan investisiyanın həcmində 17 faizlik yüksəliş var. Biz müşahidə edirik ki, dövlət kapitalı ilə yanaşı, özəl investisiyanın da payının artımı baş verir. Bu, münbit işgüzarlıq mühitinin formalaşmasının və kapitalın dövlət təminatına etibarının əlamətidir. Xarici sərmayənin iqtisadiyyatımıza marağı artır. Bu maraq, təkcə neft-qaz sektorunun deyil, fərqli sahələri, məsələn, bərpa olunan enerji mənbələrinin istismarı, logistika, kənd təsərrüfatı sahələrini də əhatə edir. Hökumətin uğurlu fəaliyyəti nəticəsində, – yenə 2023-cü ili nəzərdə tuturam, – əlverişli investisiya ab-havasının yaradılması hələ ötən ildən davam edir və davam edəcəkdir. Bunun təsdiqi kimi tək bir faktı – Azərbaycanda bu il 205 xarici investisiyalı müəssisənin dövlət qeydiyyatından keçməsini qeyd etmək kifayətdir.

Orta aylıq əmək haqqı 10 faiz artıb. Sosial sferada ciddi nəticələr qeydə alınır. İlin ilk iki ayında pensiya

ödənişlərində 14 faiz, müavinət ödənişlərində 6 faiz, təqaüd ödənişlərində 2 faiz artım var.

Bu gün Azərbaycan işğaldan azad edilmiş Qarabağda və Şərqi Zəngəzurda misilsiz quruculuq işləri həyata keçirir. Bir sözlə, bütün bunları, sadə dillə desək, öz pulumuz və maliyyəmiz olmadan etmək mümkünsüz idi. Avropanın, Qərbin ikili standartlarından hamımız xəbərdarıq. Bu gün Azərbaycan dünyada bəlkə də yeganə dövlətdir ki, bunu edə bilir və bu fakt xarici maliyyə institutlarının və beynəlxalq iqtisadi ekspertlərin də diqqətindən yayınmır. Məsələn, Moody's Beynəlxalq Reytinq Agentliyinin dəyərləndirmələrində diqqətçəkən ən mühüm məqamlardan biri azad edilmiş ərazilərdə reinteqrasiyanın artıq öz iqtisadi faydalarını verməsi və ölkə iqtisadiyyatının yeni əlavə dəyər yaradan əsaslı bölməsinə çevrilməsi ilə bağlıdır. Təşkilatın analitiklərinin fikrincə, Qarabağda ərazilərin yenidən qurulması üçün yönələn sərmayələr 2024-cü ildə iqtisadi artımın dəstəklənməsində əsas alətlərdən biri olacaq. Bu reallıq bizim postmüharibə dövründə və suverenliyimizin bərpasından sonra əldə etdiyimiz ən böyük qələbəmizdir.

Hörmətli hökumət üzvləri və hörmətli həmkarlar, ötən ay keçirilmiş Prezident seçkilərində xalqımızın mütləq əksəriyyəti cənab Prezidentimiz İlham Əliyevə etimad göstərməklə ölkədə baş verən proseslərə, pozitiv dəyişikliklərə və nailiyyətlərə öz müsbət münasibətini bildirmiş oldu. Bu, hökumətin fəaliyyətinə həm də xalqın, əhalinin münasibəti və dəstəyi idi. Hökumətə bu etimadı doğrultmaq istiqamətində görəcəyi əməli fəaliyyətində yeni uğurlar arzulayıram. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Kamran Bayramov. Buyurun.

**K.Bayramov.** Hörmətli xanım sədr, hörmətli həmkar-

lar, hörmətli cənab Baş nazir, hökumət üzvləri, media nümayəndələri. İlk növbədə cənab Baş nazirə Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında geniş və ətraflı məlumat verdiyinə görə təşəkkür edirəm. Təqdim etdiyi hesabatı müsbət dəyərləndirirəm.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasət, apardığı köklü və ardıcıl islahatlar, uğurla realizə etdiyi iqtisadi strategiya ötən ildə də ölkəmizin inkişafının davamlığını təmin etdi, demək olar ki, bütün sahələrdə irəliləyişlərin və uğurların əldə edilməsinə şərait yaratdı. Sevindirici haldır ki, inkişaf Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarını da tam əhatə edir. Qeyd edilən bölgələrdə təhlükəsizliklə bağlı çətinliklərə baxmayaraq, işğaldan azad olunmuş ərazilərdə ötən ildə sənaye və infrastruktur, aqrar və ekologiya, tikinti, şəhərsalma və xidmət sahələrində xeyli işlər görülüb. Həmin ərazilərdə sosial-iqtisadi inkişafın və soydaşlarımızın doğma yerlərə qayıdışının təmin edilməsi üçün zəruri tədbirlər həyata keçirilib.

Bununla bərabər, hesabatın "Regionların sosial-iqtisadi inkişafı" bölməsində qeyd olunanlar da onu deməyə əsas verir ki, hökumət tərəfindən ölkəmizin digər bölgələrinin də inkişafının sürətləndirilməsi, yerlərdə əhalinin maddi rifahının yüksəldilməsi üzrə bir çox işlər görülüb. Cənab Prezidentin bölgələrə səfərləri, infrastruktur layihələrinin rellaşmasında şəxsi iştirakı isə ölkəmizdə regional siyasətin uğurla həyata keçirilməsinə öz töhfəsini verməkdədir.

Qeyd etmək istərdim ki, seçildiyim dairəyə daxil olan Daşkəsən və Şəmkir rayonlarının da sosial-iqtisadi inkişafının sürətləndirilməsi istiqamətində davamlı tədbirlər görülür. Amma fürsətdən istifadə edərək, seçicilərimi

narahat edən bəzi problemləri diqqətinizə çatdırmaq istərdim və onların həlli üçün köməklik göstərilməsini xahiş edərdim.

Daşkəsən rayonunun əsas problemlərindən biri məşğulluq məsələsidir və bu problem, əsasən, rayon ərazisində yerləşən və vaxtı ilə 2000-dən çox insanın işlədiyi Daşkəsən Filiz Saflaşdırma Kombinatının uzun müddət fəaliyyətsiz qalması ilə bağlıdır. 2020-ci ildə cənab Prezidentin imzaladığı müvafiq sərəncamlara əsasən Daşkəsən dəmir filizi yatağının öyrənilməsi tədqiqi, kəşfiyyatı, işlənilməsi və idarə olunması "AzərGold" Qapalı Səhmdar Cəmiyyətinə tapşırılıb, yatağın istismara verilməsi ilə əlaqədar qiymətləndirmə işlərinin aparılması üçün cəmiyyətə maliyyə vəsaiti ayrılıb, "Daşkəsən Dəmir Filiz" Məhdud Məsuliyyətli Cəmiyyət yaradılıb. Ötən dövr ərzində bu sahədə xeyli işlər görülüb, təqdim olunmuş hesabatda da həmin işlərin miqyası aydın şəkildə göstərilib. Bununla əlaqədar, "AzərGold" Qapalı Səhmdar Cəmiyyətinin qeyd edilən müəssisənin texniki istismara verilməsi üçün tədbirlərin görülməsini xahiş etmək istərdim. Bu müəssisənin işə salınması yeni iş yerlərinin açılmasına, Daşkəsənin və hətta ətraf rayonların sakinlərinin daimi işlə təmin olunmasına və sosial rifahının yüksəldilməsinə, bu regionda işsizlik səviyyəsinin əhəmiyyətli dərəcədə azalmasına və ümumilikdə, bölgənin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə xidmət edəcək.

Hökumət üzvlərinin iştirakından istifadə edərək, onların diqqətini Şəmkir rayonunda yaşayan əhalini narahat edən və görüşlərmizdə mütəmadi olaraq qaldırdıqları problemlərdən birinə də cəlb etmək istərdim. Bu da qaz təchizatı ilə bağlıdır. Əslində, həmin rayonlarda əksər

yaşayış məntəqələri qazla təmin olunub. Lakin həmin məntəqələrdə yeni yaşayış məhəllələri və massivləri salınıb. Amma dəfələrcə edilmiş müraciətlərə baxmayaraq, bu günə qədər hələ də qazla təmin edilməyib. Məsələn, Şəmkir rayonunun Kür qəsəbəsində, Abbaslı, Düzqışlaq, Xuluf, Keçili, Könüllü, Səməd Vurğun, Qapanlı, Mahmudlu, Təzəkənd, Yeni Yol və Yeniabad kəndlərində salınmış yeni yaşayış massivlərində 3000 nəfərin yaşadığı 650 ev təsərrüfatının, eyni zamanda, 394 nəfərin yaşadığı 113 ev təsərrüfatına malik olan Nərimanlı kəndinin tam qazlaşdırılmasına böyük ehtiyac vardır. Bununla əlaqədar, hökumətimizdən qeyd edilən ev təsərrüfatlarının və adı çəkilən kəndin qazla təmin edilməsi üçün zəruri tədbirlərin görülməsini xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Vüqar Bayramov. Buyurun.

**V.Bayramov**. Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli həmkarlar və hörmətli hökumət nümayəndələri! Mən də hesabatı dəstəkləyirəm və bir sıra məqamları sizinlə bölüşmək istərdim.

Təbii ki, 2023-cü il Azərbaycan üçün tarixi il oldu. Ulu Öndərimizin 100 illik yubileyini qeyd etdiyimiz "Heydər Əliyev İli"ndə Azərbaycan ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi. Bu, Azərbaycan üçün, xüsusən də Azərbaycan tarixi üçün vacib illərdən biri idi. Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə ərazi bütövlüyümüzün tam bərpa edilməsi, eyni zamanda, işğaldan azad olunmuş ərazilərimizdə məskunlaşma prosesinin sürətlənməsinə imkan verdi.

2023-cü ildə mənim təmsil etdiyim Füzuli şəhərində ilk məskunlaşma həyata keçirildi. Bu, Qarabağda məskun-

laşmaya startın verilməsi idi. Bu, təbii ki, 2023-cü ildə həyata keçirilən və bütövlükdə, işğaldan azad olunmuş ərazilərimizin bərpası, yenidən qurulması və məskunlaşması baxımından tarixi faktlardan biri idi. Eyni zamanda, bu, məhz 2023-cü il cənab Prezidentin Prezident seçilməsinin 20 illiyi ilə bağlı həyata keçirilən siyasətin nəticəsi olaraq da qiymətləndirilməlidir.

Təbii ki, son 3 ildə Qarabağ və Şərqi Zəngəzurun bərpa və yenidən qurulmasına 12,1 milyard manat vəsait ayrıldı. Ayrılan vəsaitlər birbaşa daxili maliyyə mənbələri hesabına reallaşdı.

2023-cü il, eyni zamanda, iqtisadi artım tempinin qorunub saxlanılması, eləcə də iqtisadi artımda qeyri-neft sektorunun drayver rolunu oynaması ilə yadda qaldı. Nəzərə alsaq, ümumi daxili məhsuldakı artım 1,1 faiz oldu. Qeyri-neft sektorunda 3,7 faiz artım qeydə alındı, bu isə ondan xəbər verir ki, qeyri-neft sektoru 2023-cü ildə də lokomotiv, drayver rolunu qoruyub saxladı. Eyni zamanda, valyuta ehtiyatlarımızdakı artım tempinin qorunub saxlanılması və 2023-cü ildə valyuta ehtiyatlarımızın 17,1 faiz artaraq 68,5 milyard dollara çatması bir daha təsdiq edir ki, Azərbaycan 2023-cü ildə həm də iqtisadiyyat üçün sığorta yastığının daha da gücləndirilməsinə imkan yarada bildi. Azərbaycan, bütövlükdə, dünyada azsaylı ölkələrdən biridir ki, onun valyuta ehtiyatları ümumi daxili məhsulun həcmi qədərdir. Bu isə ondan xəbər verir ki, kifayət qədər ciddi sığorta yastığı formalaşdırılıb.

Təbii ki, 2023-cü ilin vacib məqamlarından biri də büdcə xərcləmələri ilə bağlıdır. Qeyd olunduğu kimi, 2023-cü ildə dövlət büdcəsinə 36 milyard 458 milyon manat vəsait xərclənib. Büdcə xərclərinin strukturuna diqqət yetirsək, büdcə xərclərinin təxminən 10 milyard

manata yaxını, yəni 9 milyard 947 milyon manat iki istiqamətə – Azərbaycanın müdafiə qabiliyyətinin güclənməsinə və eləcə də işğaldan azad olunmuş ərazilərimizin bərpasına yönəldilib. Praktiki olaraq bu, büdcə xərclərinin 27 faizi deməkdir. Baxmayaraq ki, biz büdcə xərclərinin təxminən üçdə birini Qarabağın və Şərqi Zəngəzurun bərpasına, eləcə də müdafiə qabiliyyətimizin möhkəmlənməsinə yönəltmişik, amma bununla yanaşı, 2023-cü il həm də sosial paketin dərinləşməsi ilə yadda qaldı. Məhz cənab Prezidentin rəhbərliyi ilə 2023-cü ildə praktik olaraq bütün sosial göstəricilərdə artım qeydə alındı və sosial paket dərinləşdi. Bu isə ondan xəbər verir ki, Qarabağın bərpası və yenidən qurulması ilə yanaşı, vətəndaşlarımızın sosial müdafiəsinin gücləndirilməsi 2023-cü ildə prioritet olaraq qaldı və praktiki olaraq biz sosial paketin daha da dərinləşməsini müşahidə etdik.

Bununla yanaşı, təbii ki, biz həm də iqtisadi islahatların dərinləşməsi, gizli iqtisadiyyata qarşı mübarizənin gücləndirilməsi, şəffaflıq və hesabatlığın daha da artırılmasını müşahidə etdik. 2023-cü ildə Azərbaycanın qeyri-neft ixracatı təxminən 10 faizə yaxın artdı. Amma bütün bunlarla yanaşı, təbii ki, ixracatımızda artım kontekstində hələ də Azərbaycanın qeyri-neft ixracatının 56,7 faizi iki ölkənin payına düşür. Bu da, təbii ki, xüsusən də qeyri-neft ixracatının strukturunun şaxələndirilməsini, müəssisə və ixrac bazarları üzrə diversifikasiyanın aparılmasını daha da prioritetləşdirir. Eyni zamanda, neft-qaz sektoruna cəlb edilən birbaşa investisiya həcminin azalması da neftdən kənar sektora daha çox vəsaitlərin cəlb edilməsinin 2024-cü ildə daha da prioritet olacağından xəbər verir.

Bütövlükdə, təqdim olunan hesabatı dəstəkləyirəm və

hörmətli həmkarlarımızı həmin hesabata səs verməyə dəvət edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Müşfiq Məmmədli. Buyurun.

**M.Məmmədli**. Hörmətli sədr, hörmətli Baş nazir, hörmətli millət vəkilləri, hörmətli hökumət üzvləri! 2023-cü ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin fəaliyyəti haqqında hesabatdan göründüyü kimi, ölkəmizin inkişafı naminə kifayət qədər böyük həcmli işlər görülmüşdür. Bütün bunlar ölkə Prezidenti cənab İlham Əliyevin uzunmüddətli strategiyasına uyğun müəyyənləşdirilmiş proqramlar sahəsində mümkün olmuşdur. Xüsusən səhiyyə sektorunun inkişafı baxımından 2023-cü ildə hökumətin fəaliyyəti çox uğurlu olmuşdur. Səhiyyə sahəsində islahatların davam etdirilməsi, regionlarda səhiyyə müəssisələrinin optimallaşdırılması, yeni tibb müəssisələrinin istifadəyə verilməsi, təmir olunması və maddi-texniki bazasının gücləndirilməsi istiqamətində mühüm addımlar atılmışdır. İcbari tibbi sığorta çərçivəsində xidmətlər zərfinin genişləndirilməsini, xidmətlər zərfində qiymətlərə yenidən baxılmasını, – nəzərinizə çatdırıram ki, 1464 tibbi xidmətin tarifi bazar qiymətinə uyğunlaşdırılmışdır, – tibbi müəssisələrin iqtisadi idarəetməsinin modernləşdirilməsini xüsusi ilə qeyd etmək lazımdır. Burada, xüsusən İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və TƏBİB tərəfindən tibb müəssisələrinin özünü maliyyələşdirmək imkanlarının artması istiqamətində atılan addımları qeyd etmək yerinə düşər.

Bir neçə dəfə hökumət qarşısında qaldırılmış 40 min nəfərdən artıq əhalisi olan Hacı Zeynalabdin Tağıyev qəsəbəsində 3 saylı Şəhər Xəstəxanasının sökülərək müasir tipli yeni tibb müəssisəsinin tikintisi istiqamətində atılan addımlar sumqayıtlıları sevindirmişdir. Buradan çox

hörmətli Baş nazirə müraciət edərək prosesin sürətləndirilməsinə təkan verilməsini seçicilərimizin adından xahiş edirik. Hacı Zeynalabdin Tağıyev qəsəbəsində idman zalının inşasının 2024–2027-ci illər ərzində dövlət büdcəsində tikintisi nəzərdə tutulmuş layihələr siyahısına salınması çox mühüm bir addımdır. Bundan başqa, həmin qəsəbədə mədəniyyət sarayının fəaliyyətinin bərpa edilməsi istiqamətində Nazirlər Kabineti tərəfindən addımların atılması hökumətin və Azərbaycan dövlətinin öz vətəndaşlarına qayğısına bariz nümunəsidir.

Xüsusən qeyd etmək lazımdır ki, səhiyyə sistemində dövlət proqramlarının həyata keçirilməsində icra mexanizmlərinin tətbiqi barədə, qaldırdığımız məsələ ilə bağlı görülən işlər praktiki olaraq müsbət nəticələrin əldə olunması ilə müşahidə olunur. Belə ki, 2023-cü ildə "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı"nın həyata keçirilməsində müsbət tendensiyalar qeyd olunmaqdadır. Uşaqlarda anadangəlmə ürək qüsurlarının aradan qaldırılması tədbirləri ilə bağlı 2 milyon 264 min 200 manat vəsait ayrılmış, bu vəsait, demək olar ki, tamamilə kardiocərrahi əməliyyatların icrasına yönəlmişdir. Bu məbləğ də əvvəlki ildə xərclənmiş vəsaitdən iki dəfə çoxdur.

Sumqayıtda məişət tullantıları poliqonu ilə əlaqədar qaldırılmış məsələyə həm yerli icra hakimiyyəti, həm də mərkəzi icra hakimiyyəti orqanı tərəfindən ciddi reaksiya verilmiş, Sumqayıt şəhərində məişət tullantılarının emalı zavodunun açılmasına dair Sumqayıt şəhər İcra Hakimiyyəti və "Yaşıl innovasiya" MMC arasında 2024-cü il aprelin 14-də investisiya müqaviləsi imzalanmışdır.

Böyük potensiala malik və tədris müəssisəsi kimi çox mühüm baza rolunu oynayan Azərbaycan Dövlət Tibb

Universitetinin tədris-cərrahiyyə və tədris terapevtik klinikalarının İcbari tibbi sığorta fondunda olan vəsaitlərə çıxışı üçün yeni mexanizmlərin tətbiqi həm xəstə axının artmasına, həm də klinikaların maddi-texniki bazasının gücləndirilməsinə gətirib çıxarardı. Bu, elmi potensialın xaricə və özəl sektora axınının qarşısını alar və tibb mütəxəssislərinin hazırlanmasında strateji yanaşmanı daha da gücləndirərdi.

Digər mühüm məsələ Sumqayıtın Tağıyev qəsəbəsi Səməd Vurğun küçəsində yerləşən 1 nömrəli, İnşaatçılar qəsəbəsi Qara Qarayev küçəsində yerləşən 5 nömrəli, Pərviz Hüseynov küçəsində yerləşən 6 nömrəli yataqxanaların istismar müddəti keçdiyinə görə söküntüsünün həyata keçirilməsi istiqamətində addımların atılmasıdır.

Təmsil etdiyim Xızı rayonunda dahi və nakam şairimiz Mikayıl Müşfiq adına muzeyin ərazisinin sel daşqınlarından sonra tamamilə dağılması və bərbad vəziyyətə düşməsi də hamımızın ürəyini ağrıtmışdır. Ərazidə təcili olaraq abadlıq və quruculuq işlərinin aparılması, fikrimizcə, məqsədəmüvafiq olardı.

Şabran rayonu Taxtakörpü su anbarından Xızı rayonu ərazisində olan anbarlara su xəttinin çəkilməsi ilə rayonda olan içməli və suvarma suyu problemlərinin birdəfəlik həllinə nail olmaq olar. Bu, həm də Bakı və Sumqayıt şəhərlərinin kənd təsərrüfatı məhsulları ilə fasiləsiz təmin edilməsində mühüm addım olardı. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Elşad Mirbəşir oğlu. Buyurun.

**E.Mirbəşir oğlu**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli iclas iştirakçıları! Öncə cənab Baş nazirə ətraflı məlumata görə təşəkkürümü bildirmək istəyirəm. Biz gördük ki, Azərbaycan öz

inkişafı istiqamətində qarşısına qoyduğu bütün prioritetlərə uğurla nail olmaqdadır. Təbii, hər ilin nəticəsi bizim həm milli səviyyədə, həm də beynəlxalq səviyyədə uğurlarımız özü-özlüyündə bir hesabatdır. Bildiyiniz kimi, hər bir ölkənin mövcud dövrün reallıqlarına, onun inkişaf hədəflərinə uyğun bir strategiyası mövcud olur və hər bir tarixi mərhələ üçün də Azərbaycanın özünün inkişaf strategiyası mövcud olubdur. Dövlət rəhbərinin fəaliyyətinin, daha doğrusu, fəaliyyət tərzinin əsas göstəricilərindən biri də məhz ondan ibarətdir ki, qarşıdakı hədəflərə çatılması üçün müəyyənləşdirilmiş, həyata keçirilməsi nəzərdə tutulan fəaliyyətinin hər birinin əsasında çox ciddi konsepsiya dayanır. Ona görə də bütün istiqamətlərdə həyata keçirilən fəaliyyətlər hər zaman uğurla nəticələnir.

Artıq qeyd edildi, 2023-cü il Azərbaycan xalqının, dövlətinin tarixində çox əlamətdar bir il oldu və bu il bizə imkan verdi ki, özümüzün bütün istiqamətlərdə kifayət qədər ciddi resurs potensialımızı formalaşdıraraq tarixi inkişafımızın yeni mərhələsinə qədəm qoyaq. Hesab edirəm ki, 2023-cü ilin özü, bütövlükdə, bizim ölkədə bütün istiqamətlərdə həyata keçirilən fəaliyyətin uğuru ilə bağlı bir hesabat idi. Dünya səviyyəsinə diqqət yetirsək, görərik ki, heç də bütün xalqlar öz tarixi inkişaflarının yeni mərhələsinə keçmək imkanlarına malik olmurlar. Təbii, o xalq, o dövlət ki özünün hədəflərini düzgün, öz resurslarına uyğun müəyyənləşdirir və o hədəflərə çatmaq üçün düzgün strategiya təyin edə bilir, o zaman mütləq şəkildə uğurlar da əldə olunur. Biz hər il görürük ki, Azərbaycan dövləti qarşısına qoymuş olduğu inkişaf hədəflərinə çox böyük uğurlarla çatır. Bu mənada 2023-cü illə bağlı da bizim hökumətin fəaliyyəti kifayət qədər məqbuldur.

Nəzərə almaq lazımdır ki, Azərbaycanın qarşısında yeni inkişaf mərhələsinin reallıqlarına uyğun olaraq, çox iddialı hədəflər dayanmaqdadır. Müvafiq olaraq biz bu inkişaf hədəflərinə çatmaq üçün də yeni milli ideyalar formalaşdırmalıyıq. Ölkə Prezidenti də bununla bağlı çağırışlar etdi, bu istiqamətdə düşüncələrin ortaya qoyulmasının, müzakirələrin aparılmasının vacibliyini vurğuladı. Amma eyni zamanda, xatırlatdı ki, yeni milli ideyalarla bağlı onun özünün də baxışları var. Sözsüz ki, cənab Prezidentin baxışları bundan sonrakı mərhələdə də bizim yeni inkişaf hədəflərimizə uyğun, milli ideya əsaslı inkişafımızı təmin edəcəkdir.

Hesabatda, həmçinin müdafiə və təhlükəsizlik sahəsində görülən işlər, əldə olunan nəticələr haqqında da danışıldı. Nəzərə almaq lazımdır ki, müasir dövrdə dövlətin gücünün hüququ keçərlidir. Çox təəssüf ki, uzun illərin təcrübəsi bizə sübut etdi, beynəlxalq hüquq, dövlətlərarası münasibətlərin tənzimlənməsi istiqamətində keçərli deyil, dövlət güclüdürsə, onun diplomatiyası da keçərli olacaq. Azərbaycan öz müdafiə və təhlükəsizlik prioritetlərini həyata keçirən zaman məhz doğru olan bu prinsipə söykənməkdədir və haqlı olaraq biz davamlı olaraq müdafiə xərclərimizi, təhlükəsizliyin təmin olunması istiqamətində vəsaitlərimizi artırmaqdayıq. Bu da bizim həm müdafiə imkanlarımızı genişləndirir, həm də gələcəkdə diplomatiyamızı daha keçərli edir. Yeri gəlmişkən, məhz bu sahə ilə bağlı bir təklif də vermək istərdim. Bildiyimiz kimi, son dövrlərdə ölkəmizin informasiya təhlükəsizliyinin təmin olunması istiqamətində də çox ciddi addımlar atılmaqdadır. Ötən ilin avqust ayında ölkə Prezidenti tərəfindən informasiya təhlükəsizliyi və kibertəhlükəsizliklə bağlı strategiya təsdiq

edildi. Mən arzu edərdim ki, gələcəkdə dövlət təhlükəsizliyi bölməsində məhz informasiya təhlükəsizliyi məsələsi də yer alsın. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Musa Qasımlı. Buyurun.

**M.Qasımlı**. Hörmətli xanım sədr, dəyərli həmkarlar. İlk növbədə cənab Baş nazirimiz Əli müəllim Əsədova və hökumət üzvlərinə ehtiramımı bildirirəm. Möhtərəm cənab Prezidentimiz İlham Əliyevin müəyyənləşdirdiyi xətti uğurla yerinə yetirən hökumətin 2023-cü ildə keçdiyimiz yolu özündə əks etdirən hesabatı mükəmməl hazırlandığı üçün lehinə səs verəcəyəm.

2022-ci il hökumətin hesabatı müzakirə olunarkən söylədiyimiz təkliflərin nəzərə alınması və görüləcək işlər barədə indiki hesabat toplusunda məlumatın verilməsi qanunverici və icraedici orqanlar arasında səmərəli əməkdaşlığın olduğunu göstərir. Müstəqillik illərində hər il hökumətin hesabatı bu zalda dinlənilib və müzakirə edilib. 2023-cü ilin hesabatı əvvəlkilərdən fərqlidir, ona görə ki, ilk dəfə olaraq, dövlət suverenliyimiz bütün ölkə ərazisində tam bərqərar edildiyi bir şəraitdə hökumətin hesabatını müzakirə edirik. Bu hökumət müstəqilliyimiz tariximizin ən uğurlusudur. Ən başlıcası odur ki, iqtisadiyyatımız, milli müdafiəmiz, təhlükəsizliyimiz gücləndirilib, millətimiz üçün vacib olan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının heç bir xarici yardımlar olmadan dirçəldilməsi və vətəndaşlarımızın planlı şəkildə köçürülməsi davam etdirilib. İşğaldan azad edilmiş rayonlarla yanaşı, ölkənin digər ərazilərində də tikinti-quruculuq işləri aparılıb.

Millətimizin gələcəyi olan təhsil və elm sahəsində ciddi işlər görülüb. Yeni məktəb binaları tikilib, peşə təhsilinə xüsusi diqqət yetirilib. Təhsilin bütün vətəndaşlar üçün

əlçatan olmasından ötrü dövlət büdcəsi hesabına ali məktəblərə qəbul planı yerlərinin artırılması cənab Prezidentimizin strateji məqsədlərinin təzahürlərindən biridir. Əlbəttə, hökumətin fəaliyyəti haqqında çox müsbət fikirlər söyləmək olar. Ancaq, hörmətli Sahibə xanım, icazənizlə, bəzi təkliflərimizi hökumət üzvlərinin diqqətinə çatdırmağı vacib hesab edirəm.

Birincisi, elm və təhsilimizdə fundamental islahatlara getmək, tədqiqat universitetlərinin yaradılması zamanı gəlməyibmi? Cənab Prezidentimizin bir neçə il əvvəl bəzi tədqiqat institutlarının Təhsil Nazirliyinin tabeliyinə verilməsinə, Elm və Təhsil Nazirliyinin yaradılmasına dair sərəncamları aydın hədəflər güdsə də, bu işin yaxşı götürülməməsi müvafiq qurumların səriştəsi barədə bəzi suallar doğurmurmu?

İkincisi, bütün bu elmlərin gərəkli olduğu kimsədə şübhə də doğurmamalıdır, lakin hansı elm sahələrinin ölkəmizin ümumi inkişafına, dövlətimizin ehtiyaclarının ödənilməsinə daha çox lazım olduğunu, bundan ötrü hansı təşkilatı strukturun, nə qədər kadrın, tədqiqatçının və maliyyənin gərəkliyini planlaşdırmaq fayda verməzdimi? Özümüzə sual verməliyik, bizə qonşuları daha çox öyrənmək lazımdır, yoxsa uzaq ölkələri? Məsələn, uzaq Andorranı? Məncə, cavab aydındır.

Üçüncüsü, elm və təhsilimizi sağlamlaşdırmaqdan, ona sağlam rəqabəti gətirməkdən ötrü bəlli standartların tətbiq edilməsinə, alim əməyinin nəticəsinə görə qiymətləndirilməsinə keçmək ədalətli, xeyirli olmazdımı? Bununla söz-söhbətlərin kəsilməsinə gəlmək olardımı, yoxsa yox? Bunun da cavabı aydındır.

Dördüncüsü, ən yaxşı məktəb binaları tikilsə də, təhsilimizdə keyfiyyətin bir problem olaraq qalması sirr

deyildir. Alternativ təhsil şəbəkələrinin yaradılmasının və repetitorluğun səbəblərinin, təhsilimizə ziyanlı, yoxsa faydalı olmasının dərindən araşdırılması və addımların atılması zamanı gəlməyibmi?

Beşincisi, seçildiyim Yardımlı-Masallı rayonu seçki dairəsi seçicilərinin xahişlərini çatdırmağı özümə borc bilirəm. Vətəndaşlar qaz, su, yol problemlərinin həll edilməsini və kənd yerlərindən sakinlərin köçməsinin qarşısını almaq üçün iş yerlərinin açılmasını xahiş edirlər. Yardımlı şəhər idman meydançasının təmiri də əhalinin istəklərindən biridir. Nəhayət, dağ, xüsusən sərhəd rayonlarının sosial-iqtisadi inkişafına dair xüsusi proqramların qəbul edilməsi həm də strateji baxımdan faydalı olmazdımı? Burada mən xırdalıqlara getmək istəmirəm, məncə, hər şey aydındır. Buna dair hələ ötən əsrin 70-ci illərinin yaxşı təcrübəsi vardır.

Hökumətin hesabatının lehinə səs verəcəyəm. Qarşıdan gələn Novruz bayramı münasibəti ilə hamınızı təbrik edir və uğurlar arzulayıram. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Aydın Mirzəzadə. Buyurun.

**A.Mirzəzadə.** Təşəkkür edirəm, xanım sədr. Hörmətli Baş nazir, hökumət üzvləri, hörmətli deputat həmkarlarım. İlk növbədə sizləri qarşıdan gələn Novruz bayramı münasibəti ilə ürəkdən təbrik edirəm, ən xoş arzularımı bildirirəm.

2023-cü il Azərbaycan xalqı üçün tarixi bir il oldu. Axır ki, Azərbaycan xalqı bütün ərazisi üzrə dövlət suverenliyini bərpa edə bildi. Bu, ilk növbədə Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin çox uğurlu rəhbərliyi, Azərbaycan əsgərinin rəşadəti, Azərbaycan cəmiyyətinin, vətəndaşlarının öz dövlət rəhbərinin siyasətini dəstəkləməsi nəticəsində mümkün oldu.

Azərbaycan dövləti özünün gücünü, problemlərini özü həll etmək qüdrətini göstərə bildi.

Eyni zamanda, 2024-cü il də Azərbaycan üçün uğurlu bir il olacağını göstərir. Bu il nüfuzlu COP29 konfransının keçirilməsi Azərbaycan dövlətinin beynəlxalq aləmdə nüfuzunu göstərir. Bu günlərdə Bakı şəhərində 11-ci Qlobal Bakı Forumu fəaliyyət göstərir. 70 ölkədən 350-yə qədər qonaq gəlib. Forumda dünyada olan problemlərin həlli ciddi şəkildə müzakirə edilir. Cənab Prezident öz çıxışında çox düzgün olaraq Bakı Forumunu Davos İqtisadi Forumu və Münxen Təhlükəsizlik Konfransına bənzətdi və hesab edirəm ki, bu, həqiqətən də belədir.

Eyni zamanda, dünən fəxrimiz olan "Qarabağ" futbol klubunun Almaniyada faktiki olaraq mənəvi qələbəsi də onu göstərdi ki, Azərbaycan bütün sahələrdə olduğu kimi, idman sahəsində də uğurlar qazana bilir.

Ötən il üçün hökumətin fəaliyyətini müsbət hesab edirəm. Hesabatdan da göründüyü kimi, əsas istiqamətlərdə müsbət nəticələr əldə edilmişdir. İşğaldan azad olunan zonalarda çox çətin şəraitdə bərpa işləri gedir. Bir dəfə bir məlumat oxudum ki, 30 il ərzində Ermənistan işğal etdiyi ərazidə 400 milyon dollarlıq mina basdırıbdır. Bilmək lazımdır ki, minaların basdırılması bir xərcdirsə, onun zərərsizləşdirilməsi qat-qat ağır xərclərə başa gəlir. Eyni zamanda, Ermənistanın Azərbaycana verdiyi xəritələrin dürüst olmaması da müəyyən problemlər yaradır. Bununla belə, ərazilərin minalardan təmizlənməsi, məcburi köçkünlərin doğma torpaqlarına qayıtması və bu prosesin ildən-ilə sürətlənməsi bu problemin də uğurla həll ediləcəyini göstərir.

Məndən əvvəl çıxış edən həmkarlarım bir çox məsələlər qaldırdılar. Onların qaldırdıqları aktual məsələ-

lərə mən də dəstək verirəm. Bununla belə, seçildiyim Mingəçevir şəhəri ilə bağlı bir məsələni qaldırmaq istəyirəm. Bir dəfə parlamentdə bu məsələni qaldırmışam. Çox istərdim ki, hörmətli Baş nazir bu məsələni xüsusi nəzarətinə götürəydi.

Mingəçevir 4-cü sənaye şəhəridir. Şəhərdə sənayenin bərpa edilməsi, eyni zamanda, onun intellektual səviyyəsinin daim yüksəkdə qalması üçün dövlət tərəfindən çox böyük işlər görülüb. 2015-ci ildə Mingəçevirdə Dövlət Universitetinin yaradılması, Mingəçevirin turizm mərkəzinə çevrilməsi, Mingəçevirdə yeni sənaye müəssisələrinin tikilməsi üçün İqtisadiyyat Nazirliyi tərəfindən vaxtaşırı müəyyən layihələrin irəli sürülməsi də şəhərin inkişafını göstərir. Amma Mingəçevirin bir problemi var. Bu da ondan ibarətdir ki, vaxtı ilə fəaliyyət göstərmiş, amma indi fəaliyyəti dayanmış sənaye müəssisələrinin ailə yataqxanaları olub. Bunların sayı 12-dir. Həmin ailə yataqxanalarında minlərcə ailələr yaşayır. Həmin yataqxanaların bərpası qeyri-mümkündür. Hazırda yataqxanalar icra hakimiyyətinin balansındadır. Onların kommunal problemlərinin mümkün qədər həll edilməsinə başlanıb. Amma iş burasındadır ki, orada yaşayan minlərcə ailələrin əksəriyyətinin yeni mənzil almaq imkanları, demək olar ki, yoxdur. Hətta boşalan otaqlar belə qısa bir zamanda digər ailələr tərəfindən tutulur.

Mən təklif edirəm ki, hökumət həmin 12 yataqxananın sökülərək yerində sosial evlərin tikilməsi ilə bağlı xüsusi bir proqram qəbul edəydi. Birdən-birə bunların hamısını etmək mümkün deyil. Amma bununla belə, hər halda başlamaq lazımdır. Onların yerində gözəl binalar, boşalmış sahələrdə isə, əlbəttə ki, məktəblər, uşaq bağçaları və digər sosial obyektlər tikmək olar. Hesab edirəm ki, bu,

Mingəçevirin sənaye şəhəri, universitet şəhəri, turizm, mədəniyyət mərkəzlərindən biri kimi statusunun saxlanmasına çox böyük dəstək olardı.

Hökumətin ötən il üçün fəaliyyətinə müsbət qiymət verirəm. Qaldırdığım məsələnin hökumətin diqqətində olacağına ümid edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Bəhruz Məhərrəmov. Buyurun.

**B.Məhərrəmov.** Təşəkkür edirəm. Hörmətli sədr, cənab Baş nazir, hörmətli hökumət üzvləri, əziz həmkarlar və qonaqlar. 2023-cü ilin sentyabrında cənab İlham Əliyevin müzəffər Ali Baş Komandanlığı altında Azərbaycan separatizmə son qoyaraq bütün ərazisində suveren hüquqlarını bərpa edib. Möhtərəm Prezidentin Xankəndidə bayrağımızı ucaltmaqla yaratdığı bu reallığın nəticəsidir ki, ilk dəfə olaraq, Azərbaycanın Respublikasının Baş naziri Xankəndidə, Xocalıda, Xocavənddə və Ağdərədə hökumətin real fəaliyyəti barədə Milli Məclis qarşısında məlumat verə bilir. Bu mənada Prezidentin yuxarı icra orqanı kimi Nazirlər Kabinetinin 2023-cü il üzrə fəaliyyətini, bütövlükdə, hökumətlərimizin tarixində ən uğurlu dövrlərdən biri kimi xarakterizə edə bilərik.

Hörmətli iclas iştirakçıları, fevralın 14-də möhtərəm Prezident inaqurasiya mərasimindəki tarixi çıxışında bəyan etdi ki, Azərbaycan uğurla yeni dövrə başlayır. Əlbəttə, yeni dövrün uğuru hərbi-siyasi qələbələrimizlə yanaşı, həm də əvvəlki illərin nəticələrinə, xüsusən sosial-iqtisadi göstəricilərə əsaslanmalıdır.

Bilirsiniz ki, müasir tariximizin yeni mərhələsi olan 2003-cü ildən bəri nə vəd verilibsə, beynəlxalq müqavilələrlə nə öhdəlik götürülübsə, hamısı istər xalqın, istər milli mənafelərimiz rəhbər tutulmaqla beynəlxalq tərəfdaşlarımızın gözləntilərindən qat-qat artıqlaması ilə

yerinə yetirilib.

Ölkədə həyata keçirilən şaxələndirilmiş iqtisadi siyasət, sərvətin ədalətli paylanmasında ehtiva olunan sosial siyasət bizə uğurlu bir dövrə qədəm qoymağa imkan verir və heç şübhəsiz ki, cənab İlham Əliyevin andiçmə mərasimində dediyi kimi, "yeni dövr uğurla da davam edəcək".

Amma bilirsiniz ki, biz riyakar standartlarla üz-üzəyik. İki gün öncə şahidlik etdik, Azərbaycan ərazilərinin işğal və təcavüzə məruz qaldığı 30 il ərzində beynəlxalq hüququn aliliyinə hörmət etməyən Avroparlament qətnamə qəbul edib ki, biz Ermənistanın beynəlxalq səviyyədə tanınmış ərazisini işğal etmişik. Əgər Ermənistanın beynəlxalq səviyyədə tanınan ərazilərinin sərhədləri Avropa Parlamentinə bəlli idisə, o zaman erməni qoşunlarının 30 il Qarabağ və Şərqi Zəngəzurda mövculuğu niyə işğal adlandırılmırdı? Yaxud Azərbaycanı antiterror tədbirləri zamanı yaxalanmış terrorçuları azad etməyə çağırırlar. Bu fakt göstərir ki, Avroparlament ikili standartların hökm sürdüyü, korrupsiya yuvasına çevrilmiş bir təsisat olmaqla yanaşı, həm də terrorizmi himayə edən əsas mərkəzdir. Əgər Avroparlament çağırışını humanist niyyətlə əlaqələndirirsə, nəyə görə Fransanın Korsikada, Dənizaşırı ərazilərdə həbs etdiyi şəxslərin azadlığını tələb etmir?

Yəni biz belə riyakarların diskriminasiyası ilə üz-üzəyik və bu situasiyada yalnız Heydər Əliyev məfkurəsi və İlham Əliyev siyasəti sayəsində nəinki müdafiə oluna, hətta əks həmlə ilə bu riyakarları yerlərinə oturda bilirik. Ona görə də hökumət orqanlarından  xahişimiz odur ki, kadr seçimində, o cümlədən də "Yüksəliş" kimi müsabiqələrdə, savad, dünyagörüşü kimi amillərlə yanaşı,

Heydər Əliyev ideologiyasına bağlılıq mütləq mənada qiymətləndirilsin.

Bu dövləti Heydər Əliyev qurub, cənab İlham Əliyev bugünkü qüdrətə çatdırıb, Heydər Əliyevçi olmayan adam, nə qədər savadlı olur-olsun, bu dövləti sevə və xalq üçün faydalı ola bilməz. Bu bizim dövlətçiliyin təməl konsepsiyasıdır. Bilirsiniz, savad anlayışı nisbidir, hər kəs yetişdirilə bilər. Baxırıq da, o qədər savadlı insanlar var ki, amma beşinci kolon funksiyasını yerinə yetirir. Boğaza qədər xəyanətin, çirkabın içindədirlər. Xüsusən mediaya birə kimi darışıblar. İndi barələrində aidiyyəti hüquqi tədbirlər görülməsinə başlanıb, ortada konkret əməllər üzrə ittiham var, Amerikadan Avropaya qədər səs-səsə veriblər ki, bu, jurnalistdir, həbs etmək olmaz. Bəs harada qaldı sizin hər kəsin qanun qarşısında bərabərlik anlayışınız? Cənab Prezident andiçmə mərasimində yaxşı qeyd etdi ki, "gedin, öz işinizlə məşğul olun".

İkili standartlarla hərəkət edən, insan haqlarını siyasi alətə çevirən çürümüş strukturlar Azərbaycan hüquq mühafizə orqanlarına nəyisə öyrətməyə çalışmamalıdır, əksinə öyrənəcəkləri çox şey var.

Dövlət qanuni tədbirlərini görür və görəcək. Hökumətin hesabatı fonunda bu məsələlərdə, o cümlədən, bütövlükdə, cinayətkarlıqla mübarizə, ictimai qayda və ictimai təhlükəsizliyin qorunmasında prinsipial mövqeyinə görə mən Daxili İşlər Nazirliyinə təşəkkür edirəm. Əminliklə demək olar ki, polisin qətiyyətli mövqeyi hökumətin 2023-cü ildəki fəaliyyətində ən önəmli istiqamətlərdən biridir.

Həmçinin təxribatçı niyyətlər güdən xarici xüsusi xidmət orqanlarına qarşı uğurlu əks-kəşfiyyat tədbirləri, xüsusən ötən ilin sonunda Fransanın, bütövlükdə, regionu

ağuşuna almış casus şəbəkəsinin ifşa edilməsi fonunda DTX-nın cari dövr üzrə fəaliyyəti hökumətin 2023-cü ildəki böyük uğurlarından biridir.

Bir sözlə, ötən dövr üzrə keçilən inkişaf yolu, xüsusən yeni reallıqlar fonunda əminliklə deyə bilərik ki, Azərbaycan bütün təhdidləri, bütün təxribatçı niyyətləri susdurmağa qadir qüdrətli bir dövlətə çevrilib. Bu mənada 2023-cü il üzrə hökumətin fəaliyyətini uğurlu hesab edir, hesabatı dəstəkləyir və cari ildə hökumətə yeni uğurlar arzulayıram.

**Sədrlik edən.** Sağ olun. Sahib Alıyev. Buyurun.

**S.Alıyev.** Hörmətli xanım sədr, cənab Baş nazir, dəyərli hökumət üzvləri və həmkarlar. Hesab edirəm ki, Azərbaycanın 2023-cü ildəki zəfəri İkinci Qarabağ savaşındakından nəinki az əhəmiyyətlidir, bəlkə də əksinədir.

Düzdür, biz 2020-ci ildə torpaqlarımızı işğaldan qurtarmasaydıq, üzərində suverenliyimizi tam təmin etməmiz də mümkünsüz idi. Amma əgər İkinci Qarabağ savaşı zamanı 30 illik ədalətsizliyə son qoyuldusa, ötən ilin sentyabrında cəmisi bir sutkada neçə əsrdir ki, problem olaraq qalmaqda davam edən  geosiyasi reallıq aradan qaldırıldı. "Heydər Əliyev İli"ndə təkcə hay separatizmi deyil, torpaqlarımızı guya kimləsə razılaşdırıb  işğaldan qurtarmamız haqda Qərb dəstəkli hay uydurması da tabuta qoyuldu.

Xatırladım ki, cənab İlham Əliyev fevralın 14-dəki andiçmə törənində  ad çəkərək bildirdi, Minsk qrupu həmsədrlərinin üçü də torpaqlarımızın işğaldan azad edilməsini  istəməyiblər.

Xanımlar və cənablar,  hökumətin hesabatı dinlənilərkən  bunu ona görə deyirəm ki, İkinci Qarabağ savaşından sonra strateji hədəflər düzgün seçilməsəydi, müdafiə və

təhlükəsizliyə ayrılan xərclər daha da artırılmasaydı, inflyasiya zəminində qlobal xarakterli təhdidlər olsa da, makroiqtisadi sabitlik qorunub saxlanılmasaydı, biz bu gün ötən ilki zəfərdən danışa bilməzdik.

İndi burada xatırladım, Heydər Əliyev müstəqilliyi qoruyub saxlamağın onu əldə etməkdən daha çətin olduğunu bildirirdi ki, Ulu Öndərin bu sözləri bizim qazandığımız zəfər üçün də keçərlidir. Cənab Prezidentin bu zəfərlə qlobal layları tərpətdiymiz və bəlli güclərin bunun bizdən heyfini çıxmaq üçün fürsət gözlədikləri haqda dediklərini qətiyyən unutmamalıyıq. Onlara fürsət verməməyin yolu isə millət və dövlət olaraq bütün potensialımızı səfərbər edərək toparlanmaqdan, daha da güclü olmaqdan keçir.

Dövlət başçımız andiçmə törənində qarşıdakı ən böyük hədəf kimi texnoloji gəlişməni elə-belə göstərmirdi. İnnovasiyasız, qabaqcıl texnologiyasız bütün çağırışlara cavab verəcək səviyyədə güclənməmiz alınmayacaq. Fəqət, innovasiya sahəsində vəziyyət burada bir dəfə də qeyd etdiyim kimi, hələ elə də ürəkaçan deyil. Halbuki qabaqcıl ölkələrdə hətta xidmət sektorunda belə innovasiyaya üstünlük verənlər 50 faizin üzərindədir. İstehsalda isə 80 faizlik bir göstəricidən söhbət gedir.

Texnoloji gəlişmə təkcə savadlı, bacarıqlı kadr hazırlığı deyil, eyni zamanda, yüksək əmək mədəniyyəti tələb edir. Nəhayət, anlamalıyıq ki, vuruşaraq torpaqlarını azad etmək kimi, yüksək əmək mədəniyyəti də milli ləyaqət göstəricisidir. Biz bəzən sosial şəbəkədə, özəlliklə də haylara işləyən və işlədilən manqurtların işğaldan azad olunan torpaqlarımızdakı quruculuq prosesini gözdən salmaq üçün bəzi xırda nöqsanlardan necə faydalanmağa çalışdıqlarını görürük. Say-seçmə oğullarımızın canları,

qanları hesabına azad edilən torpaqlarda çalışan şirkət rəhbərindən tutmuş fəhləyədək heç kim işinə səhlənkar yanaşmamalıdır. Buna yol verənin adı yumşaq desək, ləyaqətsizlikdir.

Ümumiyyətlə, vətənpərvərlik kimi, bizdə yüksək əmək mədəniyyətinin təbliğinə də böyük ehtiyac var və əslində, öz işini ləyaqətlə yerinə yetirmək elə ən gözəl vətənpərvərlikdir ki, ilk növbədə dövlətdən maliyyələşən informasiya resursları, özəlliklə də televiziyalar bunu diqqətdə saxlamalıdırlar.

Ötən ilin uğurları sırasında Azərbaycanın Panavropa qaz təchizatçısına çevrilməsi və "yaşıl enerji" təchizatçısı olmaq yolunda da hazırlıqların görülməsi var ki, bu, oradakı bəzi ünsürlərin ölkəmizə qarşı sanksiya çağırışlarının puçluğu baxımından da önəmlidir.

Sonda, təmsil etdiyim rayonla da bağlı bir neçə kəlmə demək istərdim. 2019–2023-cü illərdə Tərtərin İsmayılbəyli və Soyulan kənd tam orta məktəblərinin tikintisi nəzərdə tutulsa da, hələ işlərə başlanmayıb.

Sözügedən dövrdə bəzi səhiyyə və mədəniyyət obyektlərinin də əsaslı təmiri və tikintisi planlaşdırılmışdı ki, burada da vəziyyət eynidir. Sel və daşqın sularından mühafizə tədbirlərinin həyata keçirilməsi sahəsində də görülən işlər yarımçıq qalıb. Aydındır ki, biz milyardlarca vəsaiti işğaldan azad olunmuş torpaqlarımızdakı quruculuq prosesinə yönəldirik və bu, belə də olmalıdır. Amma istərdim, o da nəzərə alınsın ki, uzun illər cəbhəyanı bölgə olması səbəbindən yüksək işsizlikdən də əziyyət çəkən Tərtərin indi ayrıca diqqətə ehtiyacı var.

Hökumətin hesabatını qənaətbəxş sayıram. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Eldar Quliyev. Eldar müəllim, buyurun.

**E.Quliyev.** Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hökumət üzvləri və hörmətli deputatlar. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü ildəki fəaliyyəti dövlətimiz və xalqımız üçün çox əlamətdar olan tarixi hadisələrlə zəngin bir dövrü əhatə edir. Belə ki, 2023-cü il müstəqil Azərbaycan Respublikasının suverenliyinin tam bərpa olunduğu il, həm də müstəqil və suveren Azərbaycan Respublikasının memarı Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə – "Heydər Əliyev İli"nə, Prezident və Ali Baş Komandan İlham Əliyevin ali dövlət fəaliyyətinin 20-ci ildönümünə təsadüf etmişdir. Hesabat ilində xalqımız "Heydər Əliyev İli"ni böyük hörmətlə qeyd etməklə yanaşı, həm də dövlətimizin başçısı cənab İlham Əliyevin müstəqil Azərbaycan Respublikasının ərazi bütövlüyünü tam təmin etməsi sevincini yaşamışdır.

Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında təqdim edilmiş hesabatın təhlili və hörmətli Baş nazirimiz cənab Əli Əsədovun ətraflı məlumatı onu deməyə əsas verir ki, keçən il respublikamızda tarixi hadisələrlə yanaşı, həm də sosial-iqtisadi inkişafın təmin edildiyi bir il kimi xarakterizə olunur. 2023-cü ildə strateji valyuta ehtiyatlarımız ən yüksək həddə, 68,5 milyard ABŞ dollarına çatdırılmışdır. Əsas kapitala yönələn investisiyamız 20,3 milyard manata çatdırılmışdır. Bu, əsasən, daxili mənbələr hesabına həyata keçirilmişdir. Bu artımların əldə olunmasında qeyri-neft sektorunun rolunun yüksəlməsi xüsusi diqqət çəkir. Bu da onu sübut edir ki, respublikamızda neft-qaz sektorundan əldə olunan gəlirlər keçən dövr ərzində düzgün istifadə olunmuşdur.

İqtisadiyyatın şaxələndirilməsi istiqamətində davamlı və məqsədyönlü tədbirlərin həyata keçirilməsi dövlət büdcəsinin ümumi vergi gəlirlərində qeyri-neft-qaz sektorunun payının 60 faizə yüksəlməsini təmin etmişdir. Onu da qeyd etmək lazımdır ki, Dövlət Vergi Xidməti və Gömrük Komitəsində aparılan islahatlar öz müsbət nəticəsini vermiş və əvvəlki illərə nisbətən çox vəsait əldə olunmuşdur.

Son üç ildə olduğu kimi, hazırda hökumətin qarşısında duran ən önəmli vəzifələrdən biri ölkəmizin müdafiə qüdrətinin daha da möhkəmləndirilməsi və işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın qısa müddətdə təmin edilməsidir. Bu istiqamətdə 2023-cü ildə ölkə Prezidentinin göstəriş və tapşırıqlarına, imzaladığı sənədlərə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti geniş və hərtərəfli tədbirlər həyata keçirmişdir. Cari ildə də bu məsələlərə xüsusi diqqət veriləcəyi şübhəsizdir.

Bununla yanaşı, hökumət üzvlərinin burada olmasından istifadə edərək, həlli vacib olan bir-iki məsələnin də deyilməsini zəruri hesab edirəm. İlk növbədə bildirmək istəyirəm ki, Bakı şəhərində, demək olar, əksər məktəblərdə şagird sıxlığı vardır. Hər bir sinifdə 35-40 şagird dərs alır ki, bu da təhsilin səviyyəsini bir qədər aşağı salır. Nazirlər Kabinetindən xahiş edərdik, Elm və Təhsil Nazirliyinə əlavə tikinti üçün vəsait ayrılsın ki, yeni məktəb binaları tikilsin.

İkinci məsələ. Deputatı olduğum seçki dairəsinin əhatə etdiyi Maştağa qəsəbəsində yerləşən, qəsəbənin və ətraf yaşayış məntəqələrinin 150 mindən çox əhalisinə xidmət edən təcili yardım stansiyasının cəmi 3 köhnə və nasaz maşını var. Bu da gündən-günə artan tələbatı ödəmir və

əhalinin haqlı narazılığına səbəb olur. Ona görə hökumətdən xahiş edirik ki, mümkün qaydada əlavə maşınların ayrılması və olan maşınların isə təmirinə müvafiq vəsaitlər ayrılsın.

Mən qərar layihəsini dəstəkləyirəm və onun qəbul olunmasına səs verəcəyəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Eldar müəllim.

Hörmətli həmkarlar, saat 3-ə qədər fasilə elan olunur. Sağ olun.

***(FASİLƏDƏN SONRA)***

**Sədrlik edən.** Hörmətli həmkarlar, iclasımıza davam edirik. Azər Badamov. Buyurun.

**A.Badamov.** Təşəkkür edirəm. Hörmətli Sahibə xanım, hörmətli cənab Baş nazir, hökumət üzvləri, həmkarlar! İlk növbədə növbədənkənar Prezident seçkisindən sonra yenidən formalaşmış Nazirlər Kabinetinin başda hörmətli Baş nazirimiz olmaqla bütün üzvlərini təbrik edir və fəaliyyətlərində uğurlar arzulayıram.

Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyətinə dair hesabatı çox əhatəlidir və həyata keçirilmiş uğurlu sosial-iqtisadi siyasətin güzgüsüdür. Sevindirici haldır ki, son 3 ilin hesabatlarında Azərbaycanın bütün ərazilərində, o cümlədən işğaldan azad edilmiş ərazilərdə görülmüş işlər haqqında da məlumatlar qeyd olunur. Ali Baş Komandanın rəhbərliyi altında qəhrəman əsgərlərimizin azad etdiyi ərazilərdə şəhər və kəndlər yenidən qurularaq keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışını görəndə vətəni sevən hər bir şəxs sevinir və xoşbəxt olur.

Təbii ki, ölkənin bütün regionlarını əhatə edən kompleks inkişaf proqramlarının həyata keçirilməsi üçün güclü

iqtisadiyyatımızın olması əsas şərtdir. Təqdim olunmuş hesabatda qeyd olunmuş makroiqtisadi göstəricilər və iqtisadiyyatın ayrı-ayrı sektorları üzrə təhlilli məlumatlar nəinki yola saldığımız ildə, həm də gələcək illərdə də uğurlu bir inkişaf yolunun bizi gözlədiyini deyə bilərik.

Hörmətli həmkarlar, hökumətin keçən il keçirilmiş hesabatı iclasında qaldırdığımız məsələlərə operativ yanaşdığına, məsələlərin həlli istiqamətində müəyyən addımların atıldığına və təqdim olunmuş hesabatda müvafiq istiqamətlər üzrə ayrı-ayrılıqda şərh verildiyinə görə təşəkkürümü bildirirəm. Bu, deputatın qaldırdığı məsələlərə hökumət üzvləri tərəfindən həssas yanaşmanın göstəricisidir. Hesabatı məqbul hesab edirəm və seçicilərimi narahat edən bir neçə vacib məsələni də diqqətinizə çatdırmaq istəyirəm.

Bu gün Azərbaycanın bütün regionları özünün inkişaf dövrünü yaşayır. İlk növbədə dövlət başçımıza Qusara göstərdiyi yüksək qayğı və diqqətə görə seçicilərimin adından təşəkkürümü və minnətdarlığımı bildirirəm. Qusar rayonu bu gün xarici və daxili turistlərin istirahət etməyə ən çox səfər etdiyi rayonlardandır. Təbii ki, bu, həm təbiətin verdiyi imkanlarla, həm də dövlətimizin yaratdığı müasir şəraitlə bağlıdır. Rayonun yolları, əsasən, yenidən qurulmuşdur. Amma bununla yanaşı, yenidən qurulması vacib bir neçə yol da qalmaqdadır. Yenidən qurulmasına ehtiyacı olan yollardan biri də Şahdağ Turizm Mərkəzinə gedən yola bitişik, turizm baxımından əhəmiyyətli və uzunluğu 5 kilometr olan Çiləgir-Urva yoludur. Bu yolun yenidən qurulması həm turistlərin, həm də yerli sakinlərin hərəkəti baxımından vacibdir. Seçicilərimlə hər dəfə görüşlərimiz zamanı bu məsələni hökumət üzvlərinin diqqətinə çatdırmağımı xahiş edirlər.

İkinci məsələ Qusar rayonunun qazlaşdırılması ilə bağlıdır. Bu məsələnin nə qədər vacib olduğunu təkrarən təhlil etməyəcəyəm. Amma müvafiq quruma təyin olunmuş yeni rəhbərin Qusar rayonunun qazlaşdırılması məsələsinə diqqətini artıracağına ümid edirəm. Hörmətli cənab Baş nazir, bu məsələni nəzarətə götürməyinizi bir daha Sizdən xahiş edirəm.

Digər bir məsələ ödənişli yolla bağlıdır. Əvvəlcə qeyd etmək istəyirəm ki, çox yüksək standartlara uyğun ödənişli yol tikilib istifadəyə verilmişdir. Ödəniş haqqı ilə bağlı müxtəlif fikirlər olsa da, yolun rahatlığından hamı razıdır. Lakin yolun kənarında yol boyu dayanıb istirahət etməyə və ya yaranmış bir nasazlığın aradan qaldırılması üçün dayanacaq yerləri tikilməmişdir. Yol sürətli olduğundan kənarında avtomobil saxlayıb gözləmək çox təhlükəlidir. Ona görə də ödənişli yolun hər iki tərəfində dayanacaq yerlərinin tikilməsini təklif edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Razi Nurullayev. Buyurun.

**R.Nurullayev**. Hörmətli xanım sədr, hörmətli Baş nazir, hökumət nümayəndələri və deputatlar. Mən də, cənab Baş nazir Sizi və Kabinet üzvlərini yeni təyinatla və yeni vəzifənizlə bağlı ürəkdən təbrik edirəm.

Nazirlər Kabinetinin 37 nömrəli qərarı ilə təsdiq edilmiş ünvanlı dövlət sosial yardımının verilməsi qaydalarının təsdiq edilməsi haqqında qaydalar birmənalı olaraq ehtiyacı olan ailələrin yardım almasını əngəlləyir. Qərarın 3.7.2-ci, 3.7.2.4-cü və 5-ci bəndləri acınacaqlı və bəzən daha ağır vəziyyətdə olan insanların ünvanlı sosial yardım almasını əngəlləyir. Belə ki, ailənin bu ünvanlı yardımı alması üçün müxtəlif kriteriyalar var, iş yerindən arayış, nəqliyyat vasitəsi, Dövlət Məşğulluq Agentliyi tərəfindən təqdim olunan işləri qəbul etməsi və sair. Bütün bunların

da həll edilməsi Azərbaycanın reallığı ilə bir balaca tərs mütənasibdir. Agentlik iş təklif edir, amma işəgötürəni məcbur edə bilməz ki, sadəcə, o, işə götürsün. Sadəcə, bu, bir az ötür-ötür oyununa çevrilir.

Cənab Baş nazir, inanın ki, mən bunu havadan demirəm. Yüzlərcə ailələrlə görüşmüşəm və Sizə reallığı deyirəm. Cənab Baş nazir, bu qərarı dəyişdirməyinizi xahiş edirəm. Bu məsələdə real vəziyyəti bilmək istəyirsinizsə, Sizinlə görüşüb əsaslandıra bilərəm. Siz özünüz də görəcəksiniz ki, dediklərimizdə zərrə qədər də olsun şirşirtmə yoxdur. O çarəsizlərin, sadəcə, səsini sizə çatdırıram və sizdən bu sahədə kömək istəyirəm.

İkinci məsələ, cənab Baş nazir, çörək pulu ilə bağlıdır. Məcburi köçkünlərə verilən, xalq arasında "çörək pulu" deyilən aylıq müavinət ərindən boşanmış məcburi köçkün qadınlara şamil edilmir. Məcburi köçkün qadının ərindən boşanandan sonra köçkün statusunun bərpası və çörək pulunun verilməsinin bərpasını vacib hesab edirəm. Müavinət Nazirlər Kabinetinin 11 nömrəli Qərarı ilə təsdiq edilmiş qayda əsasında verilir. Bu qaydalara yeni bir bənd əlavə edilməsini və məcburi köçkün qadın məcburi köçkün olmayan ərindən boşanandan sonra onun köçkün statusunun bərpa edilməsini təklif edirəm. Bununla bağlı mənə xeyli insanlar müraciət edib. Həm burada qəbul etmişəm, həm evlərində olmuşam, həm də digər yerlərdə, partiyanın qərargahında qəbul etmişəm. Görürəm ki, doğrudan da, bu, ağrılı bir məsələyə çevrilib. Ümid edirəm ki, Nazirlər Kabineti bu təklifimi dəyərləndirib müvafiq düzəliş edəcək.

Cənab Baş nazir, deputatı olduğum İmişli rayonu ilə bağlı digər bir məsələni də nəzərinizə çatdırıb kömək istəyirəm. İmişlinin kanalizasiya sistemi çəkilib və yarımçıq

qalıb. Hazırda İmişli rayon İcra Hakimiyyəti tərəfindən 48 küçəyə asfalt vurulub. İndi nə zamansa kanalizasiya çəkəndə o yollar dağılacaq.

İmişlidə yeni tikililər olur, şəhər inkişaf edir, amma əhali ciddi şəkildə narahatlıqla üzləşir. Kanalizasiya sistemi olmadan, şəhərin səmərəli və planlı inkişafı mümkün deyil. Cənab Baş nazir, xahiş edirəm, İmişlinin yarımçıq qalmış kanalizasiya sisteminin tamamlanması üçün vəsait ayrılsın.

Digər bir məsələ. Cənab Baş nazir, təkliflər veririk, qanun və tələb çərçivəsində xahiş edirik. Onlara şablon cavablar olur. Qanunlar, görülən işlər sadalanır və sonra da vurğulanır ki, bu sahədə işlər davam etdiriləcək. Bu isə, əslində, cavab deyil.

Hörmətli Baş nazir, Sizdən xahişim budur, Nazirlər Kabinetinin üzvlərinə tövsiyə edin ki, həm özləri, həm də işçiləri konkret olsunlar, vətəndaşlara verdikləri şablon və hazır mətnləri deputatlara göndərməsinlər. Edilən müraciətlərə, məktublara, zənglərə hörmətlə yanaşsınlar. Məqsədəuyğun cavab versinlər və daha çox həlli variantına köklənsinlər.

Əziz və hörmətli Baş nazir Əli müəllim, Sizdən çox razıyam və Sizə dərin hörmətlə yanaşıram. Sizdən digər xahişim budur, Nazirlər Kabineti və Kabinetə daxil olan yeni işçilərə, xüsusən cavan kadrlara, Kabinetinizin üzvlərinə tövsiyə edin ki, işə götürdükləri, təyin etdikləri, yaxud təyin olunan yeni kadrlara desinlər, onlar birinci növbədə ölkəni tanısınlar, siyasi cəhətdən savadlarını artırsınlar və ən azından ən yeni tariximizi və onun simalarını tanıyıb hörmətlə yanaşsınlar. Böyüklərin təcrübəsini öyrənsinlər, problemləri həll etmək, idarə etmək təcrübəsinə yiyələnsinlər. Onlar özlərini təvazökar,

qayğıkeş və rəhbərlik tərəfindən qoyulan şərtlərə uyğun aparmalıdır. Vəzifə üstünlük yaratmaqla bərabər, həm də ciddi məsuliyyət və öhdəliklər yaradır. İnanıram ki, indiki dövrdə vəzifə siyasi və digər xidmətlərə görə verilmir. Vəzifə vətəndaşlara və dövlətə xidmət üçün təyin edilir və verilir.

Mən bu dediklərimizin, təbii, məsuliyyətini də anlayıram və cənab Baş nazir, istərdim ki, bu məsələlərə ciddi yanaşılsın və burada qaldırılan bu məsələlərlə bağlı da həlli yönündə müəyyən addımlar atılsın.

**Sədrlik edən.** Sağ olun. Hörmətli Razi müəllim, bizim qanunvericilikdə "çörək pulu" termini yoxdur. Bəxtiyar Əliyev. Buyurun.

**B.Əliyev**. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli deputatlar və hökumət üzvləri! Nazirlər Kabinetinin hesabatı 2023-cü ildə qarşıya qoyulmuş vəzifələri, onların uğurlu həlli istiqamətində görülmüş işləri tam dolğun şəkildə əks etdirir. Nazirlər Kabineti hesabat dövründə qarşısına qoyulmuş bütün hədəflərə çatmış, hesabat yüksək peşəkarlıqla hazırlanmış, konkret dövlət proqramının icrası ilə bağı statistik məlumatlar, həyata keçirilmiş tədbirlər haqqında aydın təsəvvür yaradır.

Hesab edirəm ki, böyük əlamətdar hadisələrlə zəngin olan 2023-cü ildə cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasi, iqtisadi və rasional islahatlar, uğurlu xarici siyasət nəticəsində dövlətin müstəqilliyi daha da möhkəmləndirilmiş, əhalinin sosial rifahı yaxşılaşdırılmış, Ermənistanın 30 illik işğalından azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda böyük quruculuq işləri həyata keçirilmişdir. Keçmiş məcburi köçkünlərin yenidən doğma yurda qayıdışı ən böyük

uğurlarımızdan biridir. Hesabatda Böyük Qayıdışa dair I Dövlət Proqramının və regionların inkişafı dövlət proqramlarının icrası ilə bağlı həyata keçirilmiş tədbirlər yüksək qiymətləndirilməlidir. Qısa müddətdə işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi, bərpası, yeni şəhər və kəndlərin tikintisi və keçmiş məcburi köçkünlərin öz doğma yerlərində məskunlaşdırılması sevindiricidir.

Regionların inkişafı dövlət proqramlarının icrası ilə bağlı əldə edilmiş təkcə bir faktı qeyd etmək kifayətdir ki, 2004-cü ildə başlayan bu proqramın cənab Prezident İlham Əliyevin uzun illər əvvəl müəyyən etdiyi inkişaf strategiyasının nə qədər uğurlu və uzaqgörən siyasət olduğunu diqqətə çatdıraq. Bu proqramların icrası nəticəsində artıq heç bir rayon mərkəzi büdcədən maliyyələşmir, əksinə mərkəzi büdcəyə vəsait ödəyir. Müvəqqəti olaraq bir neçə məcburi köçkün rayonu çıxmaq şərti ilə. Ümidvarıq ki, tezliklə məskunlaşmadan sonra həmin keçmiş məcburi köçkün rayonlar da artıq büdcəyə vəsait ödəyəcəklər.

Bu, Azərbaycanın uğurlarını, artan siyasi, iqtisadi və hərbi güc və nüfuzunu, müstəqil siyasətini həzm edə bilməyən bəzi xarici ölkələrə, həmin ölkələrdə şər-böhtan yuvaları salmış qüvvələrə verilən ən yaxşı cavab və onları sarsıdan xalq–iqtidar birliyinin sonsuz gücüdür. Azərbaycan xalqı 2024-cü ildə növbədənkənar Prezident seçkilərində cənab İlham Əliyevə özünün sonsuz məhəbbətini, inam və etimadını bir daha bütün dünyaya nümayiş etdirməklə yeni dövrün yeni vəzifələrinin həllində israrlı olduğunu göstərdi. Azərbaycan özünün intibah dövrünə qədəm qoymuşdur.

Hesabatdan göründüyü kimi, Azərbaycanda təhsil

dövlətin prioritet sahələrindən biridir. Azərbaycan təhsili dinamik inkişafdadır. Hesabatın 7-ci, "İnsan kapitalının inkişafı" bölməsində təhsil, elm və texnika sahələrinə dair müfəssəl məlumat verilmişdir. Bu məlumatlar həmin sahələrdə xeyli iş görüldüyünü və əhəmiyyətli nəticələr əldə edildiyini göstərir. Bu sahədə Nazirlər Kabinetinin fəaliyyəti də yüksək qiymətləndirilməlidir. Bununla yanaşı, təhsil sahəsində narahatlıq doğuran bəzi məsələləri qeyd etmək istərdim.

Hesabatda qeyd edilir ki, 2023–2024-cü il tədris ili üçün portal.edu.az platforması üzərindən peşə təhsili müəssisələrinə qəbul keçirilmiş və 113 min 900 müraciət edəndən yalnız 20 min 500 nəfər tələbə adını qazanmışdır. Amma 2023–2024-cü tədris ilində ali məktəblərə 66 min 700 nəfər qəbul olmuşdur. Bu, yaxşı göstəricidir və ölkə iqtisadiyyatının sürətli inkişafı baxımından ali təhsil müəssisələrində qəbul yerlərinin artırılması vacibdir. Amma təəssüf hissi ilə qeyd etməliyik ki, peşə təhsilinə qəbul ali təhsilə qəbuldan 3 dəfə azdır. Bu, 20,5 nəfərin 66,7 min nəfərə nisbətidir. Axı, ölkəyə iqtisadi inkişaf istiqamətlərinə uyğun, zəruri peşələrə malik ixtisaslı işçilər tələb edilir. 10 minlərcə gənc peşə təhsilindən kənarda qalmaqla yanaşı, həm də iqtisadiyyatımız işçi qüvvəsi potensialını itirir. Bu vəziyyət köklü surətdə dəyişdirilməlidir. Hesab edirəm ki, bu məsələyə yenidən baxılacaq və müvafiq qərarlar qəbul ediləcəkdir.

Sonda, cənab Baş nazir və hökumət üzvləri, sizi qarşıdan gələn Novruz bayramı münasibəti ilə təbrik edir, sizə möhkəm can sağlığı və fəaliyyətinizdə yeni uğurlar arzu edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Kamilə Əliyeva. Buyurun.

**K.Əliyeva**. Hörmətli xanım sədr, hörmətli Baş nazir,

hörmətli hökumət üzvləri, dəyərli həmkarlar! Bu gün Azərbaycanın dünyada artan nüfuzunun arxasında onun iqtisadi gücü dayanır. Prezident cənab İlham Əliyevin "əsl müstəqilliyə nail olmaq üçün güclü iqtisadiyyatın, güclü ordun olmalıdır" kəlamı öz təsdiqini tapmışdır. Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatla tanış olduqda 2023-cü ilin iqtisadi cəhətdən ölkəmiz üçün uğurlu olduğunu deyə bilərik. Ümumiyyətlə, pandemiya ili olan 2020-ci ildən sonra hər il ölkəmiz üçün daha uğurlu olub, iqtisadiyyatımızın bütün sahələri sürətlə inkişaf etmişdir.

2023-cü ildə iqtisadi göstəricilərimiz artıb, əhalimizin gəlirləri yüksəlib, iqtisadi dayanıqlılıq möhkəmlənib. Dünyada baş verən geosiyasi və geoiqtisadi vəziyyətin mürəkkəb olmasına baxmayaraq, Azərbaycan iqtisadiyyatında artımın olması Prezident cənab İlham Əliyevin hökumətin qarşısında qoyduğu vəzifə və tapşırıqların Nazirlər Kabineti tərəfindən yüksək səviyyədə icrasından xəbər verir.

Son 5 ildə dördüncü sosial paketin icrası, ölkə iqtisadiyyatında artımın nəticəsi tək neft və qazdan deyil, dövlət büdcəsinə qeyri-neft-qaz sahələri üzrə gələn vəsait daxilolmaları hesabına başa gəlmişdir. Prezident cənab İlham Əliyev çıxışlarında dəfələrcə qeyd etmişdir ki, büdcəyə nəzərdə tutulduğundan nə qədər çox vəsait daxil olarsa, əhalinin sosial ehtiyatları üçün xərclənəcək. Dövlət başçımız hər zaman Azərbaycan vətəndaşlarının sosial vəziyyətinin yüksək olmasının dövlətin əsas prioriteti olduğunu vurğulamışdır.

2023-cü ilin iqtisadi göstəriciləri ilə tanış olduqda iqtisadiyyatın ümumi daxili məhsulu istehsalında, 2023-cü ildə 2022-ci illə müqayisədə 3,7 faiz, eləcə də sənayenin

qeyri-neft sektorunda 8 faiz artımın olduğunu görürük. Qeyri-neft sektorundakı artımın neft sektorunu bir neçə dəfə üstələməsi hədəflərə uyğun olaraq, Azərbaycan iqtisadiyyatının artım tempinin göstəricisidir. Prezident cənab İlham Əliyevin neftdən gələn gəlirlərin insan kapitalına və iqtisadiyyatın digər sahələrinin inkişafına yönəldilməsinə dair iqtisadi strategiyası Azərbaycan dövlətinin dayanıqlı inkişafına yönəlmiş bir addımdır. 2023-cü ildə işğaldan azad edilmiş ərazilərimizlə yanaşı, digər bölgələrimizdə yeni istehsal müəssisələri yaradılmışdır ki, nəticədə bu, vətəndaşlarımızın işlə təmin olunmasına gətirib çıxarmışdı.

Bütün bunlarla yanaşı, təmsil etdiyim Zaqatala və Balakən rayonları seçicilərinin dəfələrcə mənə ünvanladıqları bir məsələni hökumət üzvlərinin nəzərinə çatdırmaq istəyirəm. Sevindirici haldır ki, Balakən rayonu 100 faiz, Zaqatala rayonunda isə mənim təmsil etdiyim 111 saylı dairəyə aid kəndlərin, demək olar ki, 95 faizi qazla təmin edilmişdir. Lakin buna baxmayaraq, hələ də yeni tikilmiş və istifadəyə verilmiş məktəblər qaz xəttinin məktəb ərazisinin yaxın məsafəsindən keçməsinə baxmayaraq, istiliklə təmin olunmayb. Bu da soyuq aylarda şagirdlərin və kollektiv üzvlərinin səhhətində problemlər yaradır, şagirdlərin dərsə davamiyyətini aşağı salır və valideynlərin narazılığına səbəb olur. Gələcəyimiz olan balalarımızın və onları gələcəyə hazırlayan müəllimlərimizin bu probleminin həll olunmasını müvafiq qurumlardan xahiş edərdim.

Sonda, keçən il qaldırdığım problemlər həll olunduğu üçün, xüsusi ilə Baş nazirimiz cənab Əli Əsədova öz adımdan və seçicilərim adından təşəkkürümü bildirirəm. Hökumətin hesabatını qənaətbəxş hesab edir və buna

müsbət səs verəcəyimi bildirirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Qüdrət Həsənquliyev. Buyurun, Qüdrət müəllim.

**Q.Həsənquliyev.** Çox sağ olun. Hörmətli sədr, cənab Baş nazir, qonaqlar, həmkarlar, media nümayəndələri! Hamınızı qarşıdan gələn Novruz bayramı münasibəti ilə, hökumət üzvlərini həmçinin yeni təyinat münasibəti ilə təbrik edirəm.

Tənqid ümumi işin xeyrinə olsa da, onu heç kim, nə tənqid edən, nə də tənqid olunan xoşlamır. Çünki hamıda mənfi emosiyalar yaradır, xüsusi ilə də bayram ərəfəsində. Amma problemlərdən, çatışmazlıqlardan danışılmalı, nöqsanların aradan qaldırılması üçün təkliflər verilməlidir. Həm də tənqid olmasa, müzakirələrin gedişi parlamentin hökumətə hesabatı təəssüratı yarada bilər.

2023-cü ildə heç bir ciddi hüquqi əsası olmadan ölkə sərhədləri bağlı saxlanılmış, ümumi daxili məhsulun həcmində 1,1 faiz artım olmuşdur. Beynəlxalq Valyuta Fondunun qiymətləndirmələrinə görə dünya üzrə bu, 3,1 faiz olub. Adambaşına düşən ümumi daxili məhsulun həcmi 0,5 faiz artaraq 12 min 100 manat olmuşdur ki, bu göstərici Qərbi Avropa ölkələrindən 8-10 dəfə azdır. Bu artım tempi ilə əgər ciddi islahatlara getməsək, imtiyazlardan imtina olunmasa, iqtisadiyyata hökumətin nəzarətinə son qoyulmasa, Avropa yaşayış standartları xalqımız üçün əbədi olaraq xəyal kimi qalacaq.

Qeyd etdiyim bu rəqəmlərə əsasən 2023-cü ildə iqtisadiyyatımızın durğunluq dövrünə qədəm qoyduğunu deyə bilərik. Hesabat ilində sahibkarların incidilməsi davam etmiş, mülkiyyətin qorunması, qanunçuluğun gücləndirilməsi istiqamətində ciddi uğurlar əldə edə bilməmişik.

Bütün bunlara baxmayaraq, 2 hadisəyə görə 2023-cü il

xalqımızın tarixində əlamətdar il kimi qalacaq. 23 apreldə dövlət sərhədlərini, 20 sentyabrda isə Qarabağ üzərində dövlət suverenliyini bərpa etdik. 20 sentyabr həm də bu günə qədər uğurlarımızın əsasını yaratmış "Əsrin müqaviləsi"nin imzalandığı gündür. Allah Heydər Əliyevin ruhunu şad etsin. Ona görə təklif edirəm, 20 sentyabr uğur, yaxud da qələbə günü kimi bayram günlərinə daxil edilsin, ya da Zəfər Günü tam və qəti qələbə gününə, 20 sentyabra dəyişdirilsin.

İkinci təklifim ondan ibarətdir ki, noyabrda Bakıda COP29 keçiriləcək. Bu tədbir həyatın xilası üçün keçirilir. İstərdim bilək, hökumət nə qədər pul xərcləyəcək. İndi velosiped yolları çəkilir, avtomobildən ayrı istifadə olunsun ki, tüstü insanların ciyərlərini məhv edib onları xərçəngə və digər ağır xəstəliklərə düçar etməsin. Özümüzü müasir ölkə kimi göstərmək istəyirik. Amma turistlər nə görəcək? Şəhərin mərkəzi küçələri, məktəblərin ətrafı siqaret reklamları və satışı ilə məşğul olan köşklərlə doludur. Bu, qoyulan pulu, çəkilən xərci, əziyyəti batıracaq, haqqımızda təsəvvürlər də yaxşı olmayacaq.

"Reklam haqqında" Qanunun 26-cı maddəsi "Açıq məkanda reklam" adlanır və 1-ci bəndində deyilir: "Reklam birbaşa və ya reklam daşıyıcısı vasitəsi ilə torpaq sahələrində, bina, qurğu və digər tikililərin fəsadlarında (divarlarında, hasarlarında) dam örtüklərində, bayıra ünvanlanmaqla qapıların, pəncərələrin (pəncərə altlıqlarının), vitrinlərin çöl və içəri tərəflərində, habelə açıq məkanda olan avadanlıqlarda, avtomobil yollarının dayanacaqlarında və yeraltı keçidlərində, hava şarlarının, aerostat və dirijablların üzərində yerləşdirildiyi halda açıq məkanda reklam hesab olunur".

Həmin qanunun "Tütün, tütün məmulatları və onlara

aid ləvazimatların reklamı" adlanan 28-ci maddəsində isə deyilir ki, "tütün, tütün məmulatlarının və onların ləvazimatlarının, o cümlədən tənbəki çubuqlarının, qəlyanların, elektron siqaretlərin, siqaret kağızlarının, alışqanlarının reklamı qadağandır". Amma qanuna əhəmiyyət verən yoxdur. Mən və digər deputat həmkarlarım, xüsusi ilə rəhmətlik həmkarımız Qənirə xanım parlamentdə bu barədə çox danışıb. Mən deputat sorğuları vermişəm ki, niyə qanun tətbiq olunmur. Xeyri olmadı.

Ona görə təklif edirəm ki, Milli Məclis və hökumət adından, bilmirəm, necə adlandırım, tütün kartelinə, sindikatına, yaxud trestinə xahişlə müraciət edək. Amma xahişlə də düzəlməyəcək. Həm də büdcədən onlara pul ödəyək ki, COP29 ərəfəsi bir aylıq siqaretin reklamını və gənclərimizin gələcəyini də nəzərə alaraq, məktəblərin yanındakı köşklərdə satışını ölkəmizin imici naminə dayandırsın. Axı, onlar da azərbaycanlılardır və bəlkə nəzərə alarlar.

Sonra, onu da söyləmək istəyirəm, ölkədə bu günlərdə eşitdik ki, 40 minə qədər taksinin ləğv olunması istənilir. Hesab edirəm ki, Bakı şəhərində ən azı ictimai nəqliyyatı yaxşılaşdırmaq lazımdır və bizim şəhərdə Avropa göstəricilərinə görə minimum 3 min avtobus olmalıdır. Amma biz hər gün görürük ki, bu avtobusların sayı kifayət qədər azdır və belə bir qərarın qəbul edilməsinə yol vermək...

**Sədrlik edən.** Sağ olun. Azay Quliyev.

**A.Quliyev.** Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli millət vəkilləri və hökumət üzvləri. Hər şeydən öncə mən də istərdim, cənab Baş nazir, Sizi və Nazirlər Kabinetinin bütün üzvlərini hörmətli Prezidentimiz tərəfindən sizə göstərilən yüksək etimad münasibəti

ilə ürəkdən təbrik edim, hər birinizə məsuliyyətli və şərəfli dövləti işinizdə uğurlar arzulayım.

Əlbəttə, 2023-cü il Azərbaycan xalqı və dövləti üçün çox uğurlu bir il olmuşdur. Bu ilin ən böyük uğurlu və tarixi hadisəsi, heç şübhəsiz ki, Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin siyasi iradəsi, qətiyyəti və rəhbərliyi ilə qəhrəman ordumuz tərəfindən Qarabağda 100 ildən çox yuva salmış aqressiv separatizmə və "miatsum" xəstəliyinə birdəfəlik son qoyulması ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam olaraq bərpa edilməsidir.

Dəyərli həmkarlar, hamımız hökumətin keçənilki fəaliyyəti haqqında hərtərəfli və peşəkar formada hazırlanan hesabatla tanışıq və bu gün hörmətli cənab Baş nazirin hesabat dövründə Nazirlər Kabinetinin gördüyü işlər haqqında çıxışını da diqqətlə dinlədik. Hesabatın analizi onu deməyə əsas verir ki, hökumətin 2023-cü ildə fəaliyyəti uğurlu olmuş və dövlət başçısı tərəfindən qarşıya qoyulmuş strateji vəzifələr müvəffəqiyyətlə icra edilmişdir. Bunların bəzilərini ayrıca olaraq qeyd etmək istərdim.

Birinci, təqdirəlayiq haldır ki, təbii səbəblərə görə neft-qaz sektorunda istehsalın azalmasına baxmayaraq, hesabat ilində ümumi daxili məhsulun həcmində artım dinamikası qorunub saxlanılmışdır. Xüsusi ilə iqtisadiyyatın qeyri-neft sektorunda artımının 3,7 faiz, sənayedə isə 8 faiz olması ölkəmizin gələcək inkişafının təminatı baxımından vacib göstəricidir.

İkinci, bütün təzyiqlərə rəğmən, manatın məzənnəsinin sabit saxlanılması və dünyanın ən çox əziyyət çəkdiyi inflyasiyanın müəyyən edilmiş illik hədəfdən kənara çıxmasına imkan verilməməsi hökumətin aktivinə yazılmalıdır.

Üçüncü, xalqımız və dövlətimiz üçün strateji vəzifələrdən biri olan Böyük Qayıdış və işğaldan azad edilmiş ərazilərimizin bərpası proqramının icrasının uğurla davam etməsini qeyd etməliyik. Belə ki, keçən il Qarabağ və Şərqi Zəngəzurda onlarca infrastruktur layihənin tamamlanması, yeni tikilən evlərə 4365 nəfər keçmiş məcburi köçkünün qaytarılması və onların 30 illik vətən həsrətinə son qoyulması hökumətin gərgin əməyi nəticəsində mümkün olmuşdur.

Dördüncü, hökumətin uğurları sırasında ölkəmizin müdafiə sənayesinin inkişafı və ordu quruculuğu istiqamətində aparılan islahatları da qeyd etməliyik. Fransa və Hindistan kimi ölkələr tərəfindən Ermənistanın sürətlə silahlandırılması və revanşist qüvvələrin şirnikləşdirilməsi fonunda Azərbaycanın Silahlı Qüvvələrinin daha da güclənməsi milli təhlükəsizliyimizin təminatı üçün vacib şərtdir. Məhz görülən işlərin nəticəsidir ki, silahlı qüvvələrimiz ölkəmizə qarşı baş verə biləcək istənilən hərbi təxribatların qarşısını qətiyyətlə almağa qadirdir və regionda tətiklənəcək istənilən qarşıdurmaya və ssenariyə hazırdır.

Beşinci, hesabat ilində dövlət təhlükəsizliyimizin yüksək səviyyədə təmin olunmasını, ictimai asayişin qorunmasını və cinayətkarlığa qarşı effektiv mübarizənin aparılmasını, eləcə də maaş, pensiya, müavinət və təqaüdlərin artırılmasını hökumətin məhsuldar fəaliyyətinin tərkib hissəsi kimi ayrıca vurğulamaq istərdim.

Düşünürəm ki, təkcə qeyd etdiyim bu nəticələrə görə Nazirlər Kabinetinin 2023-cü ildəki fəaliyyəti tam qənaətbəxş hesab edilməlidir və hesabat nəzərə alınmalıdır.

Hörmətli hökumət üzvləri, sonda isə deputat seçildiyim Binəqədi rayonundakı 27 saylı şəhər poliklinikasının 7

ildir istismara yararsız olan binasının yenidən tikilməsi ilə bağlı olan problemi bir daha diqqətinizə çatdırmaq istərdim. Səhiyyə Nazirliyinin və digər aidiyyəti orqanların məsələyə dair müsbət rəyinə, bəzi sənədləşmə işlərinin başlanmasına baxmayaraq, problem hələ də həll olunmayıb. Ona görə də, hörmətli cənab Baş nazir, seçicilərim adından Sizə müraciət edərək 30 mindən çox əhaliyə xidmət etməli olan 27 saylı şəhər poliklinikası binasının tikintisinə köməklik gösdərməyinizi Sizdən xahiş edirəm.

Digər bir məsələ. Binəqədi rayonu Mir Cəlal küçəsində yerləşən 157 saylı tam orta məktəbin idman və futbol meydançalarının təmir edilərək məktəbin istifadəsinə qaytarılması ilə bağlıdır. Belə ki, qeyd olunan idman və futbol meydançaları 2007-ci ildə Təhsil Respublika İdman Mərkəzinin balansına veriləndən sonra hasara alınmış və 1500-dən çox şagirdi olan məktəbin bu infrastrukturdan istifadəsi məhdudlaşdırılmışdır. Ona görə hörmətli təhsil nazirindən bu məsələni şəxsi nəzarətə götürməsini və həlli üçün müvafiq addımların atılmasını xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Emin Hacıyev. Buyurun.

**E.Hacıyev.** Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli hökumət üzvləri və həmkarlar. Hökumətin 2023-cü ildəki fəaliyyəti haqqında hesabat yüksək səviyyədə hazırlanıb. Həm hesabatın özü, həm icmal hesabat, həm də hörmətli Baş nazirimizin bugünkü təqdimatı çox əhatəli və dolğundur. Təbii ki, sənədin bu cür zəngin olmasının arxasında gərgin, yorulmaz fəaliyyət dayanıb.

Mən, eyni zamanda, parlamentin plenar və komitə iclaslarında, gündəmlərdəki çıxışlarımızda biz deputatların qaldırdığı məsələlərə hökumətin çevik reaksiyasına görə

minnətdarlığımı bildirirəm.

2023-cü il mühüm tarixi hadisələrlə – Ulu Öndərin 100 illiyi, cənab Prezidentin hakimiyyətdə olmasının 20 illiyi, ölkəmizin suveren ərazisində hakimiyyətinin tam şəkildə bərpası, işğaldan azad olunan ərazilərdə sürətli yenidənqurma, Böyük Qayıdışın növbəti mərhələsi, nəhayət, onun yekunu olaraq zəfər seçkisinin keçirilməsi ilə yadda qalıb.

Eyni zamanda, böyük iqtisadi, sosial uğurlara imza atılıb. Bu müddət ərzində Azərbaycanın beynəlxalq enerji təhlükəsizliyinin təminində rolu daha da yüksəldi. Bərpa olunan enerji potensialından səmərəli istifadə edilməsi istiqamətində mühüm işlər görüldü. Dünyada və regionda baş verən geosiyasi hadisələr fonunda Azərbaycanın nəqliyyat-tranzit infrastrukturuna tələbat artdı. Bu gün Orta Dəhliz xüsusi önəm daşıyır. Çindən Avropaya daşınan yüklər bu marşrutla daha qısa vaxtda mənzil başına çatır. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycana səfəri zamanı Qazaxıstandan keçərək Çindən Azərbaycana gələn konteyner qatarının rəmzi qarşılanması mühüm iqtisadi hadisə idi.

Bütün bunlar, təbii ki, ölkəmizə böyük iqtisadi dividentlər gətirməklə əhalinin sosial rifahının daha da yaxşılaşmasına, infrastruktur layihələrinin genişlənməsinə xidmət edir.

Ötən il ölkədə yol infrastrukturunun tikintisi, yenidən qurulması və bərpası davam etdirilib. Təkcə 2023-cü ildə 882 kilometr avtomobil yolları salınıb, son 20 ildə isə Azərbaycanda 21 min kilometr uzunluğunda yeni yol tikilib və təmir edilib.

Mən görülən işləri təqdir etməklə yanaşı, bəzi təkliflərimi də qeyd etmək istəyirəm. Diqqətinizə çatdırmaq istəyirəm ki, deputat seçildiyim Sumqayıt şəhərinə ikinci

əsas giriş, Saray qəsəbəsi tərəfdən olan körpü qəza vəziyyətindədir. Məsələ dəfələrcə mətbuatda işıqlandırıldıqdan sonra da çökmələr olduğundan, körpünün üzərində olan işıqforun fəaliyyəti dayandırılıb. Nəzərə alsaq ki, körpünün altından dəmir yol qatarı keçir. Körpü çökərsə, texnogen fəlakəti ilə yanaşı, insan təlafatı da baş verə bilər. Bu səbəbdən, məsələyə həssas yanaşaraq təcili tədbir görülməsini xahiş edirəm.

Bununla yanaşı, dəfələrcə Sumqayıt şəhərinin istilik təchizat sisteminin qurulması ilə bağlı məsələ qaldırmağımıza baxmayaraq, hələ də bu müraciətimiz öz həllini tapmayıb. Bu məsələnin də həlli üçün müvafiq addımlar atılmasını xahiş edirəm.

Həmçinin uzun illər diaspor sahəsində fəaliyyət göstərdiyim üçün diqqətinizi daha bir məsələyə yönəltmək istəyirəm. Xarici ölkələrdəki diasporlarımız günü-gündən güclənir. Bu gün dünyanın 51 ölkəsində 561 diaspor təşkilatı, 15 koordinasiya şurası fəaliyyət göstərir, 21 Azərbaycan evi açılıb. Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevanın dəstəyi ilə "Qarabağ" adlı yüzdən çox həftəsonu Azərbaycan məktəbləri yaradılıb.

Bununla yanaşı, xaricdə yaşayan gənclərimiz üçün vətənimizdə keçirilən yay-qış düşərgələrinin sayının artırılmasını təklif edərdim. Bu düşərgələrdə iştirak etmək istəyən gənclər, uşaq və yeniyetmələrin sayı çoxdur. Bizə də çoxsaylı müraciətlər olunur. Başa düşüləndir ki, nəzərdə tutulan yerlərin sayı məhduddur. Amma düşərgələrin, həmçinin bazar günü məktəblərinin sayının artırılması, diaspor təşkilatlarının bu istiqamətdə fəaliyyətinin daha da gücləndirilməsi məqsədəuyğun olardı.

Eyni zamanda, hazırda dünyada müharibələrlə müşahidə olunan geosiyasi gərginliklər xaricdə yaşayan

soydaşlarımıza hüquqi yardım və dəstəyin daha da gücləndirilməsini gərəkdirir. Biz münaqişə baş verən ölkələrdə yaşayan azərbaycanlıların müharibələrdə həlak olunmasını müşahidə edirik. Belə bir şəraitdə həmin ölkələrin vətəndaşı olan soydaşlarımızın Azərbaycan vətəndaşlığına qəbul olunması üçün müəyyən güzəştlərin tətbiqi və prosedurların asanlaşdırılması məqsədəuyğun olardı. Vətənə qayıdıb burada yaşayıb Azərbaycan vətəndaşlığını qəbul etmək istəyən soydaşlarımıza dövlətimiz tərəfindən belə bir imkan yaradılmasını nəzərdən keçirə bilərik. Azərbaycan dünyanın hər bir yerində yaşayan azərbaycanlıların vətənidir. Hər zaman hər bir soydaşımızın yanında olan, ona dayaq duran Azərbaycan dövlətinin bu addımı xaricdə yaşayan azərbaycanlılar, diaspor təşkilatlarımız üçün növbəti humanist addım və önəmli dəstək tədbiri olardı.

**Sədrlik edən.** Sağ olun. Ceyhun Məmmədov. Buyurun.

**C.Məmmədov.** Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli hökumət üzvləri, hörmətli deputatlar. Öncə əhatəli və dərin məzmunlu hesabata görə hörmətli Baş nazir Əli müəllimə təşəkkürümü bildirir, hökumət üzvlərini yeni Kabinetin fəaliyyətə başlaması və Novruz bayramı münasibəti ilə təbrik edirəm.

Hesabatdan da göründüyü kimi, son illər Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində ölkəmiz bütün sahələrdə, o cümlədən təhsil, mədəniyyət, iqtisadiyyat, sənaye və təhlükəsizlik istiqamətində böyük uğurlara imza atıb.

Ötən ilin ən mühüm hadisələrindən biri də Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini təmin etməsidir. Ölkəmiz çoxsaylı təxribatlara baxmayaraq, bütün ərazilərini azad etdi. Bu gün biz tarixdə heç zaman olmadığı

qədər güclü və müstəqilik. Azərbaycan dünyada təhlükəsizlik adasına, bir çox mötəbər tədbirlərin keçirildiyi məkana çevrilib.

Onu da qeyd etmək lazımdır ki, son illər ölkəmizdə təhsil sahəsinə diqqət daha da artırılıb. Bu sahəyə ayrılan büdcə vəsaitinin bir neçə dəfə artırılması bu fikri bir daha təsdiq edir. Ötən dövrün təhsil sahəsində ən mühüm hadisələrindən biri Qarabağ və Azərbaycan–Türkiyə birgə universitetinin yaradılmasıdır. İnanırıq ki, hər iki universitet ən qısa vaxtda təhsilimizin inkişafına mühüm töhfələr verəcək.

Bu gün ölkəmizdə Böyük Qayıdış prosesi uğurla davam etdirilir. Artıq bir çox rayonlarımızda insanlarımız bayramları öz isti ocaqlarında qeyd edirlər. Bu gün hər bir məcburi köçkün Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın qayğı və diqqətini üzərində hiss edir.

Bütün bunlarla yanaşı, çıxışımın sonunda bir neçə təklifi irəli sürmək istəyirəm.

1. Ali məktəb müəllimlərinin, elm sahəsində çalışan insanların maddi təminatının, həyat şəraitinin yaxşılaşdırılması istiqamətində tədbirlərin davam etdirilməsi. Son illər cənab Prezidentin diqqət və qayğısı ilə bu istiqamətdə mühüm addımlar atılsa da, bu məsələyə yenidən baxılmasına ehtiyac var. Bu gün bu məsələ gənc nəslin elmə marağına çox ciddi təsir göstərir.

2. Çoxsaylı vətəndaş müraciətləri nəzərə alınaraq, əmək pensiyasının minimum məbləğinin artırılması məsələsinə baxılması. Son illər bu sahədə dövlətimiz çox mühüm tədbirlər həyata keçirib. Ancaq imkan daxilində bu məsələnin diqqətdə saxlanılmasına ehtiyac var.

3. Son illər ölkəmizdə maliyyə və bankçılıq sahəsində

dövlətimiz tərəfindən bir çox mühüm tədbirlər həyata keçirilib, qanunvericilik bazası daha da təkmilləşdirilib. Əvvəlki illərlə müqayisədə kredit faizlərində azalma olsa da, xüsusi ilə istehlak və biznes kreditlərinin faizlərinə yenidən baxılmasına ehtiyac var.

4. Məcburi köçkün şəhərciklərinin bir qismində müvafiq binaların olmasına baxmayaraq, hələ də bağça və tibb məntəqələri fəaliyyət göstərmir. Bəli, biz Böyük Qayıdış prosesini uğurla icra edirik. Ancaq bu da reallıqdır ki, insanlar bir müddət hələ orada yaşayacaqlar. Onların fəaliyyətinin təmin olunması üçün müvafiq addımların atılmasına ehtiyac var. Məsələn, bir neçə ildir, istifadəyə verilməsinə baxmayaraq, Kürdəmirdə məcburi köçkünlər üçün salınan qəsəbədə hələ də tibb məntəqəsi fəaliyyət göstərmir.

5. İşğaldan azad olunmuş ərazilərdə qəbiristanlıqların bərpası prosesinə başlanılması. Bəzi qəbiristanlıqlarda sümüklər açıq-aydın ortada qalıb. Bu prosesin mümkün qədər sürətləndirilməsini xahiş edirəm.

6. Çoxsaylı müraciətlər nəzərə alınaraq, dünyasını dəyişmiş məcburi köçkünlərin mərhələli şəkildə öz doğma yurdlarında minalardan təmizlənmiş ərazilərdə dəfninə şərait yaradılması.

7. Cocuq-Mərcanlıda Lələtəpə yüksəkliyində muzeyin yaradılması işinə başlanılması. Bu məkanın Azərbaycan tarixində özünəməxsus yeri var. Bu tarixin əbədiləşdirilməsi baxımından bu məsələ çox önəmlidir.

8. Respublikanın ayrı-ayrı bölgələrində müxtəlif səbəblərdən bağlı olan məscidlərin fəaliyyətinin mərhələli şəkildə bərpası. Ölkəmizdə milli-mənəvi dəyərlərimizin təbliği baxımından bu məscidlərin fəaliyyəti xüsusi önəm daşıyır. Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Müşfiq Cəfərov.

**M.Cəfərov.** Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli hökumət üzvləri, dəyərli həmkarlar və media mənsubları. Mən də sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Novruz bayramı münasibəti ilə təbrik edirəm, xoş arzularımı çatdırıram.

Hökumətin hesabatını yüksək qiymətləndirirəm və lehinə səs verəcəyəm. Hesabat müxtəlif sahələri əhatə edərək əhalinin rifahının yaxşılaşması məqsədi ilə həyata keçirdiyi fəaliyyətləri və bu fəaliyyətlərə xərclənən vəsaitləri özündə əks etdirir. Mərkəzi və yerli icra hakimiyyətlərinin fəaliyyətini daha da genişləndirmək və hesabatlılıq baxımından faydalı olmasını təmin etmək məqsədi ilə bir neçə təkliflə çıxış etmək istərdim.

Dövlət büdcəsindən maliyyələşən proqram və ya xidmətlərin keyfiyyətini artırmaq məqsədi ilə hesab edirəm ki, büdcə xərclərinin aidiyyəti üzrə xərclənməsinə nəzarət edən dövlət qurumları ilə bərabər, keyfiyyətə nəzarət, qiymətləndirmə və monitorinq işlərini həyata keçirən bir qurumun da yaradılmasına ehtiyac var. Belə ki, aidiyyəti dövlət qurumları öz işlərinin büdcə maliyyə nəzarəti orqanları olaraq layiqincə həyata keçirir. Qeyd etdiyim qurumun yaranması isə dövlət tərəfindən maliyyələşən layihə və proqramların və ya xidmətlərin keyfiyyətinin ölçülməsinə, davam etdirilməsinə və ya dayandırılmasına xidmət edəcək. Yəni xərclənən hər bir manatın dövlət və əhali üçün nə dərəcədə faydalı olub-olmadığı müəyyənləşəcək. Hesab edirəm ki, bu cür yanaşma büdcə maliyyə nəzarəti orqanlarının da işinə fayda vermiş olacaq. Onu da qeyd etmək istərdim ki, belə bir təcrübə inkişafda olan və inkişaf etmiş ölkələrdə mövcuddur.

Digər bir məsələ. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 719 nömrəli Fərmanı ilə təsdiq edilmiş şəhər və rayonlar üzrə vergi orqanlarının xətti ilə dövlət büdcəsində nəzərdə tutulan daxilolmalardan büdcə ilinin sonuna artıq daxil olan vəsaitin müəyyən hissəsinin həmin şəhər və rayonların sərəncamında saxlanması və istifadəsi qaydasına uyğun olaraq, yerli gəlirlərin proqnozlaşdırılandan artıq hissəsinin 50 faizi yerli icra hakimiyyətlərinə qaytarılır və onların büdcədənkənar fondu hesab olunur. Prezidentin təsdiqlədiyi qaydaya əsasən bu fondun vəsaitinin 25 faizi yerli icra hakimiyyəti orqanlarının işçilərinin sosial müdafiəsinə, 25 faizi şəhid ailələrinin və aztəminatlı ailələrin sosial müdafiəsinə, 50 faizi isə təhsilin, mədəniyyətin, incəsənətin, turizmin və idmanın inkişafı sahəsində tədbirlərin təşkilinə, həmçinin şəhər, rayon və yaşayış məntəqələri ərazilərinin abadlaşdırılmasına, yaşıllıqların mühafizəsinə və yolların çəkilməsinə sərf olunmalıdır.

Nəzərə alsaq ki, 2024-cü ildə 59 şəhər və rayon büdcədən asılı olmayacaq, xərclərini gəlirləri hesabına maliyyələşdirə biləcək, elə olan halda təklif edirəm, yerli gəlirlərin proqnozlaşdırılandan artıq hissəsinin 50 faizi əhali sayına görə müəyyənləşsin. Yəni 100 min əhalisi olan rayonlar üçün 15 faizədək, 100 mindən 250 minədək olan rayonlarda 15-30 faiz arasında, 250 mindən yuxarı olan rayon və şəhərlərimizdə isə 30 faizdən yuxarı. Belə olan halda büdcədənkənar vəsait hesabına hər bir rayon və şəhər özünəməxsus problemlərin həllinə, o cümlədən yerli əhalinin sosial rifahının yaxşılaşmasına yatırım etmiş olar.

Mən, həmçinin möhtərəm cənab Prezidentə gəncəlilər və futbolsevərlər adından öz təşəkkürümü bildirmək istərdim. Gəncə şəhər idman meydançasında arenanın

yenidən qurulması məqsədi ilə sərəncam imzalanmışdır və artıq tikinti işlərinə başlanmışdır. Bununla bərabər, idman meydançası ərazisində AFFA tərəfindən müasir Futbol Akademiyası binasının tikintisi başa çatdırılmışdır. Təlim və məşq toplantıları keçirmək üçün süni və təbii standart ölçüdə 3 ədəd idman meydançası "Kəpəz" peşəkar futbol klubunun əsas heyətinə və digər yaş qruplarının istifadəsinə verilmişdir.

İdmandan danışmışkən, istərdim idmanda dayanıqlı maliyyəni təmin edə biləcək potensial sponsorlardan danışım. Peşəkar idmanı sponsorsuz təsəvvür etmək belə mümkün deyil. Mən "Kəpəz" peşəkar futbol klubu idarə heyətinin üzvü olaraq deyə bilərəm ki, bu gün "Kəpəz" yeganə komandadır ki, peşəkar futbol liqasında öz fəaliyyətini sponsorsuz davam etdirir. Dövlət dəstəyi, təbii ki, var. Hər bir komanda bunu hiss edir. Ancaq hesab edirəm ki, sahibkarlar da bu işdə bizim yanımızda olmalıdırlar. Bunun üçün isə, təbii, ilk növbədə, biz Vergi Məcəlləsində idmana dəstək olmaq istəyən sahibkarlar üçün vergi güzəştləri paketi hazırlamalıyıq ki, sahibkarlar idmanın inkişafında davamlı olaraq maraqlı olsunlar. Hazırda onların iştirakını biz əksər futbol klublarında və digər idman növlərində görürük. Onların dəstəyi, təbii ki, daha çox münasibətlər və ya xahiş üzərində qurulub. Bu da, təbii ki, davamlı olaraq daim idmanın yanında olmaq imkanı yaratmır. Xanım sədr, təklif edirəm ki, bunun üçün Gənclər və idman komitəsi, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi, Gənclər və İdman Nazirliyi, İqtisadiyyat Nazirliyi, o cümlədən idman federasiyalarının iştirakı ilə bir dinləmə keçirək və bununla bağlı konkret təkliflər alaq. Hesab edirəm ki, belə bir addımın atılması idmanın inkişafına böyük təkan vermiş olacaq. Diqqə-

tinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Xahiş edirəm, təkliflərinizi komitələrə verin. Sevil Mikayılova. Buyurun.

**S.Mikayılova.** Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli millət vəkilləri, hökumət nümayəndələri. Bu gün müzakirə etdiyimiz Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatı ölkəmizin sosial-iqtisadi, siyasi, mədəni həyatının bütün sahələrində görülmüş işləri əhatəli əks etdirir. İşğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərinin yüksək sürətlə aparılması və 2030-cu ilə qədər ölkəmizin 5 prioritetindən biri olan Böyük Qayıdışın uğurla icra olunması xüsusi diqqətəlayiqdir.

Hesabat Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyən etdiyi sosial-iqtisadi inkişaf strategiyasının ötən il ərzində də uğurla icra edildiyini göstərir və ölkəmizin bundan sonra da qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gələcəyinə, inkişaf strategiyasının uğurla davam edəcəyinə əminlik yaradır.

Qeyri-neft sektorunda iqtisadi fəallığın təmin edilməsi, ixrac imkanlarının genişləndirilməsi, yerli istehsalın stimullaşdırılması və investisiyaların təşviqi üçün mühüm tədbirlər görülüb. Bunun nəticəsidir ki, ÜDM-in istehsalı 2023-cü ildə əvvəlki illə müqayisədə artmışdır.

Təqdirəlayiqdir ki, 2023-cü ildə sosial yönümlü tədbirlər davam etdirilmişdir. Ünvanlı dövlət sosial yardım, pensiyalar, müavinətlər, sosial sığorta ayrımları ötən illə müqayisədə orta hesabla 20 faizdən çox artıb.

Ölkəmizin iqlim dəyişikliklərinin yaratdığı qlobal çağırışlara cavab olaraq BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin İqlim dəyişikliyinə qarşı mübarizə, 13-cü müddəası çərçivəsində həyata keçirdiyi irimiqyaslı

layihələr xüsusi əhəmiyyət daşıyır. Bütün ölkə ərazisində, işğaldan azad olunmuş ərazilər də daxil olmaqla alternativ enerji mənbələrindən istifadə geniş hədəflənir və "yaşıl iqtisadiyyat"ın inkişaf etdirilməsi qarşıya qoyulan mühüm tapşırıqlardan biridir.

İcazənizlə, hökumət nümayəndələrinin iclasda iştirak etdiyini nəzərə alaraq, deputat seçildiyim Xaçmaz rayonunda hələ də həllini gözləyən bəzi məsələləri diqqətinizə çatdırmaq istərdim.

Seçiciləri ciddi narahat edən problemlərdən biri yol infrastrukturu, xüsusən kəndlərarası yollar, eləcə də körpülərlə bağlıdır. Belə ki, rayonun Bostançı, Maqsudkənd, Qıraqlı, Qımılqışlaq, Əhmədoba və Şimal qəsəbəsinə gedən yollarda asfalt örtüyü yararsız vəziyyətdədir və vətəndaşlar üçün ciddi problemlər yaradır.

Diqqətinizə çatdırmaq istədiyim digər bir məsələ isə rayonda bir sıra orta məktəblərin təmirə ehtiyacının olması ilə bağlıdır. Son illərdə Xaçmaz rayonunda yeni məktəblər tikilib və əsaslı təmir olunub. Bu, sakinlərdə məmnuniyyət yaradır və buna görə təşəkkür edirik. Lakin Ləcət, Maqsudkənd, Qarabağlı, Qarağalıq, Axtala, Dağoba kənd məktəblərinin təmirə ciddi ehtiyacı var.

Bundan əlavə, rayonda mədəniyyət müəssisələrinin, o cümlədən mədəniyyət klubları, kitabxanalar, diyarşünaslıq muzeylərinin də vəziyyəti qeyri-qənaətbəxşdir. Sakinlərin istirahəti, asudə vaxtının təşkili üçün bu müəssisələrin qeydiyyata alınaraq bərpasına və yenidən qurulmasına hökumətin xüsusi diqqət ayırmasına ehtiyac var.

Sonda bildirmək istəyirəm ki, 2023-cü ilin uğurlu iqtisadi nəticələri 2024-cü il üçün də pozitiv baza formalaşdırır və hökumətə gələcək fəaliyyətində uğurlar arzulayırıq. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Səbinə Xasayeva. Səbinə xanım, buyurun.

**S.Xasayeva.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, dəyərli hökumət üzvləri, dəyərli həmkarlarım. Böyük qürur hissi ilə deyə bilərik ki, 2023-cü il də Azərbaycan tarixinə şanlı səhifələrdən biri kimi daxil oldu. 2023-cü ilin sentyabr ayında müzəffər Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən birgünlük lokal antiterror əməliyyatı nəticəsində ərazi bütövlüyümüz və suverenliyimiz tam təmin edildi, Azərbaycan xalqı qalib xalq kimi tarixinin yeni mərhələsinə qədəm qoydu.

Hesabat ilində Azərbaycanın 2030-cüilədək 5 milli prioritetindən biri kimi müəyyən olunmuş işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışın təmin edilməsi istiqamətində atılan addımları xüsusi ilə təqdirəlayiqdir.

İşğaldan azad edilən ərazilərin yenidən qurulması, bərpası, həmin ərazilərdə əhalinin dayanıqlı məskunlaşması və ərazilərin iqtisadi fəaliyyətə reinteqrasiya istiqamətində həyata keçirilən işlərin sürətlə davam etdirilməsi qarşıya qoyulan hədəfə ən qısa zamanda nail olunacağını deməyə əsas verir.

2023-cü ildə Azərbaycan Ordusunun döyüş qabiliyyətinin və hazırlığının yüksəldilməsi, hərbi quruculuq işlərində dünya təcrübələrinin öyrənilməsi, regional və beynəlxalq təhlükəsizlik üzrə öhdəliklərin yerinə yetirilməsi və bu kimi digər tədbirlərin həyata keçirilməsi milli müdafiə və təhlükəsizlik tədbirlərinə daimi olaraq artan diqqətin təzahürüdür.

Hesabat ilində məktəbəqədər təhsil müəssisələrinə diqqətin artırılması, bu müəssisələrə uşaqların elektron sistem vasitəsi ilə qəbulu və pedaqoji heyətin mərkəzləşdirilmiş

müsabiqə əsasında işə qəbulu, sözsüz ki, şəffaflığın təmin edilməsi istiqamətində təqdirəlayiq haldır. Lakin bununla yanaşı, etiraf etmək lazımdır ki, xüsusi ilə Bakı şəhərində və ətraf qəsəbələrdə mövcud olan məktəbəqədər təhsil müəssisələrinin sayı mövcud əhalinin ehtiyacını tam ödəmir, sakinlər övladlarının məktəbəqədər təhsil müəssisələrinə qəbulunu uzun müddət gözləmək məcburiyyətində qalırlar. Hesab edirəm ki, bu problemin həllinə xüsusi diqqət yetirilməsi, qısa bir zamanda yeni məktəbəqədər təhsil müəssisələrinin inşa edilməsi məqsədəmüvafiq olardı.

Bu gün Bakı ətrafı qəsəbələri, şəhər mərkəzi və digər əraziləri birləşdirən müxtəlif istiqamətli marşrut xətləri olsa da, bu istiqamətlərdə fəaliyyət göstərən marşrut xətlərində istifadə edilən avtobusların sayının azlığı, vaxt intervalının çox olması, eyni zamanda, bir sıra hallarda avtobusların müasir standartlara cavab verməməsi ciddi problemdir.

Belə problemlərdən biri də Qaradağ rayonu Lökbatan, Buta, Korgöz, Qızıldaş və digər qəsəbələrin sakinlərinə xidmət göstərən 126 nömrəli marşrut xəttidir ki, mütəmadi olaraq sakinlər bu məsələ ilə bağlı narazılıqlarını ifadə edirlər. Bir neçə qəsəbənin sakinlərinin istifadə etdiyi bu marşrut xəttində kiçik tutumlu avtobuslar istifadə edilir və avtobuslararası interval çox olduğundan, xüsusi ilə günün pik saatlarında sakinlərin avtobusların xidmətindən istifadə edə bilməsi bir sıra hallarda mümkünsüz hala çevrilir. Bütün bunları və sakinlərin haqlı narazılığını nəzərə alaraq, qısa zamanda bu marşrut xəttində istifadə edilən avtobusların müasir standartlara cavab verən irititumlu avtobuslarla əvəz edilməsi bir neçə qəsəbənin nəqliyyat probleminin həll edilməsinə ciddi töhfə olardı.

Aidiyyəti qurumlardan bu məsələnin həllinə həssaslıqla yanaşılmasını və tez bir zamanda öz həllini tapmasında müvafiq addımların atılmasını sakinlər adından xahiş edirəm.

Daha bir həlli vacib məsələ isə Binəqədi rayonu Xocasən, Sulutəpə və 28 may qəsəbələrində, eyni zamanda, Qaradağ rayonunun Lökbatan, Buta və Korgöz qəsəbələrində, xüsusi ilə yeni yaşayış massivlərində mərkəzləşdirilmiş kanalizasiya sisteminin olmamasıdır. Bu isə sakinlər üçün ciddi problemlər yaradır. Bu vacib məsələnin qısa zamanda həll olunması sakinlərin rifah səviyyəsinin yüksəldilməsinə xidmət edəcəkdir. Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Sadiq Qurbanov.

**S.Qurbanov.** Çox sağ olun, dəyərli Sahibə xanım. Çox dəyərli Baş nazir Əli müəllim və hökumət üzvləri, deputat həmkarlarım. Sizin hər birinizi qarşıdan gələn Novruz bayramı münasibəti ilə səmimi qəlbdən təbrik edirəm, hər kəsə can sağlığı və uğurlar arzulayıram.

2023-cü ildə hökumətin fəaliyyəti haqqında geniş, hərtərəfli və kompleks şəkildə çıxışına görə hörmətli Əli müəllimə dərin təşəkkürümü bildirirəm.

Həqiqətən də, 2023-cü il bir çox əlamətdar və tarixi hadisələrlə yadda qaldı. Cənab Prezidentin dövlətçilik fəaliyyətinin 20-ci ildönümünün Ümummilli Liderimizin anadan olmasının 100 illik yubileyinə – “Heydər Əliyev İli”nə təsadüf etməsi olduqca əlamətdardır. Çünki Ümummilli Lider Heydər Əliyev müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusudur. Dahi rəhbərin əsasını qoyduğu uğurlu siyasəti möhtərəm Prezident cənab İlham Əliyev nəinki davam etdirir, eyni zamanda, bu işləri müasir dövrün tələblərinə, xalqın maraqlarına uyğun yeni

formada təkmilləşdirir və daha da inkişaf etdirir.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsindəki Zəfərdən sonra ötən ilin sentyabrın 19-da şanlı ordumuz tərəfindən keçirilən birgünlük antiterror əməliyyatları nəticəsində Qarabağda suverenliyimiz tam təmin edildi.

Cənab Prezidentin apardığı uğurlu müdrik siyasətin nəticəsidir ki, COP29 kimi beynəlxalq konfrans Bakıda keçiriləcəkdir. Bunu beynəlxalq ictimaiyyətin Azərbaycana olan hörmət və etimadının ən bariz nümunəsi kimi də qeyd etməliyik. Bunu həm də ötən il hökumət tərəfindən görülən müsbət işlərin nəticəsi kimi də dəyərləndirməliyik.

Cənab Prezidentin uzaqgörən siyasətinin nəticəsidir ki, Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım"dır.

2023-cü ildə ölkənin enerji sisteminə yeni generasiya gücləri daxil edilmiş, enerji istehsalının həcmi enerji istehlakının həcmindən 26 faiz çox olmuşdur. İstehsal olunmuş elektrik enerjisinin 92,8 faizi istilik elektrik stansiyalarının, 6 faizi su elektrik stansiyalarının, 1,2 faizi isə bərpa olunan enerji mənbələrinin payına düşmüşdür.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən işğaldan azad edilmiş ərazilərin "yaşıl enerji" zonası elan edilməsi çox mütərəqqi bir addımdır. Burada 7200 meqavat külək, 2000 meqavat günəş, 500 meqavat hidro enerji olmaqla, 10 min meqavata yaxın gücdə "yaşıl enerji" potensialı hesablanmışdır.

Cənab Prezidentin söylədiyi kimi, Azərbaycan Avropa İttifaqının etibarlı enerji tərəfdaşıdır. Cənub Qaz Dəhlizi vasitəsi ilə Avropa, Türkiyə və Gürcüstana, ümumilikdə,

22,7 milyard kubmetr qaz ixrac edilmişdir.

Cənab Prezident İlham Əliyevin uğurlu enerji siyasətinin nəticəsidir ki, ötən il Energetika Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti və Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti arasında günəş və külək elektrik stansiyalarının tikintisi ilə bağlı imzalanmış müqavilələrdən irəli gələn işlər görülmüşdür. Hətta 230 meqavat gücündə "Qaradağ" Günəş Elektrik Stansiyası istismara verilmişdir. Stansiyada hər il 500 milyon kilovat-saat elektrik enerjisi istehsal edilməklə 110 milyon kubmetr həcmində təbii qaza qənaət ediləcəkdir ki, bu da atmosferə atılan karbon emissiyasının 200 min ton azaldılması ilə müşayiət olunacaqdır. Bu da ekoloji təhlükəsizliyin təmin olunması üçün çox faydalı və vacibdir. Eyni zamanda, Azərbaycan dövlətinin atmosfer havasının yaxşılaşdırılması sahəsindəki hədəflərinə xidmət edir.

Enerji sektorunda normativ hüquqi bazanın və institusional sistemin təkmilləşdirilməsi də mühüm hadisələrdən biridir. Biz "Elektroenergetika haqqında" və "Energetika haqqında" qanunlar qəbul etdik.

Hesabat ilində ekoloji təhlükəsizliyin təmin olunması, ekoloji tarazlığın qorunması, ətraf mühitin mühafizəsi istiqamətində də məqsədyönlü tədbirlər davam etdirildi. Bir faktı da xüsusi qeyd etməliyəm ki, hökumət tərəfindən görülən mühüm işlərdən biri də Ermənistanın Naxçıvan Muxtar Respublikası ilə həmsərhəd ərazisində – Arazdəyən iri metallurgiya zavodunun inşasının qarşısının alınması, başqa əraziyə köçürülməsi oldu.

Yekunda, bir daha bildirmək istəyirəm ki, 2023-cü ildə Nazirlər Kabinetinin fəaliyyəti müsbət qiymətləndirilir və hökumətə, hökumət üzvlərinə qarşıdakı illərdə də belə uğurlu nəticələrə nail olmağı arzulayırıq.

**Sədrlik edən.** Çox sağ olun, Sadiq müəllim. Naqif Həmzəyev. Buyurun.

**N.Həmzəyev.** Təşəkkür edirəm, xanım sədr. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli hökumət üzvləri, millət vəkilləri və media mənsubları. Mən də Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatı müsbət dəyərləndirirəm. Təkrarçılığa yol verməmək və vaxta qənaət etmək üçün çıxışımın giriş hissəsini yazılı şəkildə təqdim edəcəyəm.

Fürsətdən istifadə edərək, cənab Prezidentə, Əli müəllim, şəxsən Sizə, hökumət üzvlərinə dərin təşəkkürümü bildirirəm ki, bundan öncəki çıxışlarımızda və müraciətlərimizdə qaldırdığımız problemlərin həllinə dair mərhələli şəkildə işlər görülür. Xüsusi ilə də Gəncə şəhərinin daxili yollarının yenidən qurulması və asfaltlanması işləri uğurla həyata keçirilir. Sizdən xahişimiz ondan ibarətdir ki, bu yeni çəkilmiş yolların mühafizəsinə diqqət artırılsın. Mən çox çılpaqlığına gedib problemi qabartmaq istəmirəm. Ancaq, həqiqətən də, bu yolların mühafizəsinə çox böyük ehtiyac var.

Bununla yanaşı, nəzərinizə çatdırım ki, Gəncə şəhərində yerləşən Heydər Əliyev Park-Kompleksinin yaxınlığındakı kurqan ərazilərində, çox təəssüflər olsun ki, tikinti işləri həyata keçirilir. Bugünkü günə qədər keçirilmiş tikintilər bir tərəfə qalsın, ən azından bundan sonrakı tikintilərə imkan vermək olmaz. Xahiş edirəm, mümkünsə, həmin əraziləri ya qoruq ərazisi elan edək, ya da Heydər Əliyev Park-Kompleksinin ərazisinə birləşdirə bilək. Xüsusi ilə də Gəncə şəhərində Elmlər Akademiyasının Gəncə bölməsinin olması, düşünürəm ki, buradakı növbəti tədqiqat işlərinin və arxeoloji qazıntıların aparılmasını həyata keçirə bilər.

Eyni zamanda, bilirsiniz ki, Azərbaycana elektrik avtomobillərinin gətirilməsi zamanı müxtəlif güzəştlər tətbiq olunur. Xahiş edirəm, əgər mümkündürsə, hibrid avtomobillərin də gətirilməsi zamanı buna bənzər güzəştlər tətbiq edilsin. Düşünürəm ki, bu, 2024-cü ildə ekologiyamız üçün çox əla bir töhfə olar.

Mən bir daha Nazirlər Kabinetinin hesabatını müsbət dəyərləndirirəm, hökumət üzvlərinə növbəti fəaliyyətlərində uğurlar arzulayıram. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Naqif müəllim. Əli Məsimli. Əli müəllim, buyurun.

**Ə.Məsimli.** Çox sağ olun, hörməti sədr. Hörmətli sədr, hörmətli cənab Baş nazir, hökumət üzvləri, deputat həmkarlarım və media mənsubları. Əvvəlcə yeni Kabinetin formalaşması münasibəti ilə Kabinet üzvlərini təbrik edirəm və qarşıdan gələn Novruz bayramı münasibəti ilə hamını təbrik edir, ən xoş arzularımı bildirirəm.

2023-cü il Azərbaycan üçün suverenliyimizin tam bərpa edildiyi şərəfli tarixin yazıldığı bir ildir. Suverenliyimizin bərpası və regionumuzda yeni situasiyanın yaradılması Azərbaycanın bundan sonra da daha perspektivli tarix yazmaq şanslarını xeyli dərəcədə artırır. Bu, müharibədən sonrakı cəmi 3 il ərzində, o cümlədən bu gün müzakirə etdiyimiz hesabatda, 2023-cü ilin göstəricilərində əyani şəkildə öz əksini tapıb.

2023-cü ilin əsas iqtisadi nəticəsi ondan ibarətdir ki, belə bir mürəkkəb vəziyyətdə ötən il Azərbaycan iqtisadiyyatında makro səviyyədə sabitlik, xüsusən də maliyyə sabitliyi qorunub saxlanılıb. Bununla belə, bəzi məqamlar var ki, onlara xüsusi diqqət yetirmək lazımdır. Əhalisi artmayan, azalan ölkələrdə 1 faizlik artım inkişafdır. Amma hesab edirik ki, Azərbaycan kimi əhalisi

artan ölkələrdə bu problemdir. Azərbaycanda əhalinin artım tempi son illərdə bir qədər aşağı düşsə də, amma hardasa 0,5-0,6 faiz artım var ki, bu da əhalinin 50-60 min nəfər artması deməkdir. 50-60 min isə Zaqatala, Qax və Balakən kimi 3 şəhərin toplam əhalisi qədərdir. Belə bir şəraitdə 20 milyard manat investisiya, 24 milyard manat kredit qoyuluşu şəraitində cəmi 1,2 milyard manat yeni dəyərin yaradılması qarşıda duran problemlərin həlli üçün kifayət deyil, həm də əhalinin güzəranının yaxşılaşdırılmasının iqtisadi bazasını xeyli dərəcədə məhdudlaşdırır.

Ona görə də bu ilin 2 ayı ərzində əldə olunan 5 faizlik artımı saxlamaq və daha da inkişaf etdirmək üçün, hesab edirik ki, islahatlar paketi hazırlanıb həyata keçirilməlidir. Həmin paketdə xeyli məsələlər öz əksini tapmalıdır. Onların arasında idarəetmə sisteminin, məhkəmə sisteminin islahatları, vətəndaşların qanunla qadağan olunmayan bütün sahələrdə maneəsiz iqtisadi fəaliyyətinin təmin edilməsinə yönəlmiş ciddi tədbirlərin görülməsi, rəqabət mühitinin, eyni zamanda, bayaq dediyim mühitin yaradılması üçün hökumət tərəfindən bir sıra açılımlara gedilməsini vacib hesab edirik.

İkinci mühüm hesab etdiyim məsələ regionlarda iqtisadi fəaliyyətin gücləndirilməsidir. Burada da xeyli iş görmək olar. Necə ola bilir ki, 3-cü dünya ölkələrinin çoxunda, kəndlərdə, kiçik şəhərlərdə kompüterlər, çiplər istehsal edirlər. Amma bizim kəndlərdə, kiçik şəhərlərdə kənd təsərrüfatı məhsulunun emalını geniş planda həyata keçirə bilmirik. Ötən əsrin 80-ci illərinin təcrübəsi göstərdi ki, yeyinti sənayesi, yüngül sənaye bizim sənayenin haradasa 40 faizindən çoxunu təşkil edib. İndi biz əgər bu işi yaxşı təşkil edə bilsək, indiki 7-8 faizdən ən azı 25-30 faizə gətirib çıxara bilərik ki, bu da çox ciddi 2 problemi

həll edəcək – yerli istehsalın artırılması, bir də bizim idxaldan asılılığımızın minimuma endirilməsi istiqamətində çox ciddi işlər görüləcək.

İnsanlar yerlərdəki işsizlikdən çox əziyyət çəkirlər. Hesab edirik ki, bu istiqamətdə işlər görülməlidir. Amma eyni zamanda, hesab edirik ki, yerlərdə iş yerləri açılanda sosial iş yerlərinin dairəsinin genişləndirilməsi əvəzinə, insan kapitalının inkişafına xidmət edən, qabaqcıl texnika və texnologiyaya əsaslanan yüksək maaşlı iş yerlərinin açılması istiqamətində addımların atılması çox vacibdir.

Sonda isə Şəki kəndlərinin qazlaşdırılması ilə bağlı işlərin sürətləndirilməsini, kənd yollarının qəzalı vəziyyətdə olan hissələrinin, eyni zamanda, kəndlərdə qəzalı məktəb binalarının bərpası istiqamətində addımların atılmasını vacib hesab edirəm.

Ümumiyyətlə götürəndə, bu hesabatı yüksək qiymətləndiririk və səs verəcəyik. Diqqətinizə görə təşəkkür edirik.

**Sədrlik edən.** Sağ olun. Sabir Rüstəmxanlı. Buyurun.

**S.Rüstəmxanlı.** Təşəkkür edirəm, hörmətli sədr. Mən də bugünkü hesabata yeni tərkibdə gəlmiş Nazirlər Kabinetini başda Baş nazir Əli Əsədov olmaqla ürəkdən təbrik edirəm, onlara ölkəmizin iqtisadi, mədəni inkişafı yolundakı işlərində uğurlar arzulayıram. Eyni zamanda, hamını üzümüzə gələn Novruz bayramı münasibəti ilə təbrik edirəm.

Bir sıra ölkələrdən fərqli olaraq, Azərbaycan Respublikasında nazirlər millət vəkilləri arasından seçilmir. Buna görə də Milli Məclis və Nazirlər Kabineti arasında əlaqə zəifdir. Bəzi ölkələrdə, bilirsiniz, nazirlər Məclisin üzvüdür. Milli Məclisin deputatları seçildikləri bölgələrə bağlıdırlar. Əhalinin vəziyyətini, ölkə həyatını daha yaxşı

bilirlər və Məclisin hər yığıncağında ənənəvi olaraq cari məsələlərə ayrılan yarım saatda dünyada gedən proseslərdən başlamış ölkə gündəliyində duran problemlərə, seçicilərin şikayətlərinə qədər çox şeydən danışılır. Əslində, həmin problemlərin hamısı bu və ya digər şəkildə hökumətə aid olsa da, təəssüf ki, hökumət üzvlərinə çatmır və ya təhrif olunmuş şəkildə çatır. Nazirlər, komitə sədrləri də səsləndirilən fikirləri çox vaxt ümumi işimiz kimi deyil, subyektiv və onlara yönəlmiş qərəzli yanaşma kimi qəbul edirlər. Halbuki belə deyil. Ayrı-ayrı strukturlarda, qurumlarda olsa da, biz eyni işi görürük, eyni qayğı ilə yaşayırıq.

Cənab Prezidentin elan etdiyi kimi, Azərbaycan artıq yeni dövrə qədəm basır. Yeni dövr deyiləndə, yəni bu dövr sözdə deyil, işdə özünü göstərməlidir. Məncə, əgər yeni dövrə başlamaq istəyiriksə, bunun aydın konsepsiyası olmasıdır. Bu konsepsiya ölkənin iqtisadiyyatından başlamış müdafiə qabiliyyətini, ideologiyasını və təbii ki, təhsil və mədəniyyət də daxil olmaqla bütün sahələri, o cümlədən beynəlxalq əlaqələri də əhatə etməlidir.

Dövlətə, ümumiyyətlə, milli ideologiya lazımdırmı? Buna müxtəlif cavablar ola bilər. Məncə, yalnız azərbaycançılıq demək bu sualın cavabı deyil. Bu böyük sözün real ideoloji sistemə, uzunömürlü vətəndaş həmrəylik xəttinə, milli siyasətə çevrilməsi üçün ölkədə bütün sahələrdə, xüsusi ilə mədəniyyət sahəsində çox iş görülməlidir. Ölkədə bu işlərlə hansı qurum məşğuldur? Biz indi bu sualın cavabını tapa bilmirik. Vaxtı ilə sovet dövründə ideoloji katiblər, filanlar var idi. Azərbaycanda indiki sistemdə bu sahə ilə kimlər məşğuldur, bunu aydınlaşdırmaq lazımdır.

Qardaş ölkələrin birində orta məktəblərdə 1-ci sinifdən

başlayaraq 11-ci sinfə qədər mənəviyyat dərsi keçirilir. Bu mənəviyyat dərsində ölkənin cəmiyyət və şəxsiyyət məsələlərindən başlamış adət-ənənə və bir sıra, insanı şəxsiyyət kimi formalaşdıran məsələlər öyrədilir. Bizdə təhsil sistemində belə bir şey varmı? Biz gələcəyi düşünəndə, əslində, bu, yaxşı təcrübədir. Bizim təhsil sistemdə ciddi parçalanmalar var. Rus dilli, ingilis dilli məktəblər və sair. Gələcəkdə kökündən xəbərsiz, rəngarəng, biri-birinə yad nəsillər yetişə bilər. Bunun nəticəsini hesablamaq çox çətindir. İndidən bunu düşünmək lazımdır. Yeni dövrdə birlik istəyiriksə, yeni dövrə elə buradan başlamaq lazımdır.

Yeni dövr yeni islahatlar deməkdir. Bəzən islahat adına aparılan işlər xeyirdən çox ziyan gətirir. Dəfələrcə demişik, bizim hökumət Azərbaycan kəndlərindən nə istəyir? Bu regional nədir? Regional elə rayon deməkdir. Bu regional idarələr nə deməkdir? Balaca rayonlar boşaldı, içi boşaldı. Bir arayış üçün o rayona, bir arayış üçün bu rayona. Düzdür, bu hesabatda onun cavabları vardır. Amma hər halda yenə də məsələ həll olunmayıb. Mənə elə gəlir ki, bunu düşünmək lazımdır.

Dövlət insan haqqında düşünməlidir. Ən ciddi məsələlərdən biri insana münasibətdir, sərvətimiz insandır. Bu insanların qayğıları həll olunmursa, xırda bir məsələ, neçə müddət Rusiya sosial mediasında yayılır. Bir adamın döşündə 3 dənə medal var, amma veteranlığı ala bilmir. Bu məsələlər həll olunmalıdır.

Buna görə də biz ölkədə həm normal təhsil üçün, həm də vətən sevgisinin yüksəldilməsi üçün lazım olan şəraiti yaratmalıyıq. Bu işlər...

**Sədrlik edən.** Sağ olun. Əziz Ələkbərov. Əziz müəllim, buyurun.

**Ə.Ələkbərov.** Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, millət vəkilləri, hökumət üzvləri, hörmətli deputatlar. media nümayəndələri. Mən də hər kəsi qarşıdan gələn ilaxır çərşənbə və Novruz bayramı münasibəti ilə təbrik edirəm.

Hörmətli Məclis iştirakçıları, Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabat hər cəhətdən qürurvericidir. Təkcə ona görə yox ki, bu hesabat Azərbaycanın bütün sahələr üzrə inkişafının güzgüsüdür, həm də ona görə ki, 2023-cü il Ümummilli Liderimiz "Heydər Əliyev İli" idi və biz Ulu Öndərin bugünkü uğurlarımızın təməlində dayanan fəaliyyət və ideyalarını il boyu bir daha nəzərdən keçirdik. Həm də ona görə qürurvericidir ki, həmin ilin sentyabr ayındakı antiterror tədbirləri nəticəsində Azərbaycan torpaqları separatçılardan tam təmizləndi və bütün ölkə ərazisində dövlət suverenliyimiz həmişəlik bərpa olundu.

2023-cü il bizim üçün bir də ona görə əlamətdardır ki, biz həmin il cənab Prezidentin Qarabağ müharibəsindən sonrakı dövr üçün Azərbaycan xalqının əsas hədəfi, xarici siyasətimizin prioritet olaraq irəli sürdüyü tarixi torpaqlarımıza qayıdış konsepsiyasının həyata keçirilməsi istiqamətində bir sıra uğurlu addımlar atdıq.

Birincisi, Qərbi Azərbaycana qayıdış ideyasını gündəmə gətirərək ümummilli ideyaya çevirə bildik.

İkincisi, Qərbi Azərbaycan həqiqətlərini beynəlxalq müstəviyə çıxararaq BMT-nin, YUNESKO-nun və digər beynəlxalq təşkilatların tribunasından dünyaya elan etdik.

2022-ci il dekabrın 24-də Prezident İlham Əliyev Qərbi Azərbaycan icmasının binasındakı tarixi çıxışında məhz bu vəzifələri qarşımızda qoyaraq bildirmişdi ki, Qarabağ münaqişəsi həll olunandan sonra indi bizim gündəlikdə

duran məsələ budur – Qərbi Azərbaycana qayıdış məsələsidir.

Təqdirəlayiqdir ki, 2023-cü ildə bir sıra qeyri-hökumət təşkilatları ilə yanaşı, bir çox hökumət qurumları da Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının icrası ilə bağlı öz töhfələrini verdilər. Cənab Prezidentin tövsiyələrinə uyğun olaraq, Bakıda Qərbi Azərbaycanla bağlı böyük bir beynəlxalq konfrans, Naxçıvanda möhtəşəm festival konqresi keçirildi.

Ümumiyyətlə, 2023-cü ildə ölkədə və xaricdə Qərbi Azərbaycanla bağlı keçirilən tədbirlərin sayı yüzlərcə oldu. Mən fürsətdən istifadə edib, Xarici İşlər Nazirliyinin, Elm və Təhsil Nazirliyinin, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin rəhbərliyinə, Heydər Əliyev Fonduna və Ombudsman aparatına bu işdə bizə göstərdikləri ardıcıl dəstəyə görə icmamız adından xüsusi ilə təşəkkür edirəm.

Bütün bunları nəzərə alaraq, istərdim ki, hökumətin gələcək hesabatlarında bu məsələyə xüsusi diqqət yetirilsin. Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının icrası istiqamətində görülən işlərə ayrıca bölmədə xüsusi yer verilsin. Hökumət rəsmilərinin burada olmasından istifadə edərək, onların hamısından xahiş edirəm, Qərbi Azərbaycana qayıdış strategiyasının əhəmiyyətini nəzərə alaraq, Qərbi Azərbaycan qaçqınlarının hüquqlarının keçmiş məcburi köçkünlərin hüquqlarına bərabər tutulması istiqamətində konkret əməli addımlar atsınlar.

Təbii ki, mən də hesabatı dəstəkləyirəm və lehinə səs verəcəyəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Musa Quliyev. Buyurun, Musa müəllim.

**M.Quliyev.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli hökumət üzvləri, hörmətli həmkarlar. Mən də ilk öncə hər birinizi qarşıdan gələn Novruz bayramı münasibəti ilə ürəkdən təbrik edirəm, xalqımıza xoş günlər, dövlətimizə uğurlar arzu edirəm.

2023-cü il ölkəmizin və xalqımızın tarixində əlamətdar il kimi qalacaqdır. Ötən il xalqımız böyük qürur və sevgi hissi ilə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyini qeyd etmiş, ərazi bütövlüyümüzün tam təmin olunmasının və suverenliyimizin bərpa edilməsinin sevincini yaşamışdır.

Dünyada hərbi-siyasi, maliyyə-iqtisadi böhranın davam etməsinə baxmayaraq, cənab Prezident İlham Əliyevin rəhbərliyi altında hökumətimiz 2023-cü ildə qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirə bilmişdir.

Hesabat ilində ölkəmizdə makroiqtisadi sabitliyə nail olunmuş, inflyasiyanın mənfi təsirlərinin aradan qaldırılması və əhalinin sosial rifah halının qorunması üçün təsirli tədbirlər görülmüş və müsbət nəticələr əldə edilmişdir.

Ötən il pensiya, müavinət və digər sosial ödənişlərin məbləği artırılmış, əhalinin sosial rifahının qorunması və sosial müdafiəsini təmin etmək üçün müvafiq qərarlar qəbul edilmiş və icra olunmuşdur. Şəhid ailələrinə, qazilərə və müharibə veteranlarına göstərilən sosial dəstək proqramları ötən il də uğurla davam etmişdir. Bütövlükdə, postmüharibə dövründə bu qəbildən olan 126 min şəxsə 336 min sosial dəstək göstərilmişdir.

Hesabat dövründə 118 min nəfər müvafiq işlə təmin edilmiş, büdcədən maliyyələşən təşkilatlarda çalışan 700 min işçinin əmək haqqı 15 faiz artırılmışdır.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti

hörmətli Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılan DOST konsepsiyası uğurla fəaliyyət göstərməkdə və genişlənməkdə davam edir. Ötən il Qarabağ Regional DOST Mərkəzi yaradılmış və ölkə üzrə fəaliyyət göstərən 7 DOST Mərkəzi 3 milyona yaxın vətəndaşa sosial xidmət göstərmişdir. Məmnunluq göstəricisi 98 faiz olmuşdur. İnnovativ bir Azərbaycan layihəsi olan DOST konsepsiyası dünyanın 20-dən çox ölkəsi tərəfindən öyrənilməkdə və tətbiq edilməkdədir.

Sosial xidmətlərin elektronlaşdırılması sahəsində 2023-cü ildəki uğurlu fəaliyyəti qeyd edərək bildirmək istəyirəm ki, hesabat dövründə vətəndaşlara 159 istiqamətdə göstərilən sosial xidmətlərin 141-i artıq elektronlaşmış, 52 xidmət isə proaktiv qaydada həyata keçirilir.

Ötən il sosial sahədə görülən müsbət işləri və əldə edilən uğurları qeyd etməklə yanaşı, seçicilərimizin bizim qarşımızda qaldırdığı bəzi təklifləri hökumətimizin diqqətinə çatdırmaq istəyirəm. Görülən məqsədyönlü tədbirlərə baxmayaraq, ölkədə qeyri-formal məşğulluq bir sosial problem olaraq qalmaqdadır. Həm bu, həm də dünyada işsizlik probleminin getdikcə dərinləşməsi məşğulluğun güclənməsi sahəsində daha ciddi addımlar atılmasını, xüsusi ilə özəl sektorun böyük potensialından səmərəli istifadə imkanlarının genişləndirilməsini, kiçik və orta sahibkarlara əməli dəstəyin artırılmasını zəruri edir.

Şəhid övladlarının təhsil güzəştinə tətbiq edilən yaş məhdudiyyətinin götürülməsini təklif edirik. Minimum həddə əmək pensiyası alan pensiyaçıların sosial müdafiəsinin daha da gücləndirilməsi üçün onlara ildə iki dəfə bayramlar münasibəti ilə əlavə müavinət verilməsi imkanına baxılmasını da faydalı hesab edirik.

Bakı–Gəncə–Ağstafa sürət qatarından qərb bölgəsinin

əhalisinin daha səmərəli istifadəsini təmin etmək üçün biri Bakıdan və digəri Ağstafadan hərəkət etmək şərti ilə səhər bu xəttə hər gün 2 qatar buraxılması da yaxşı olardı.

Mən hökumətimizin 2023-cü ildəki fəaliyyətini qənaətbəxş hesab edir, hökumətimizə uğurlar arzulayır, inanıram ki, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə biz qısa müddət ərzində qarşıya qoyulan bütün məsələlərin həllinə nail olacağıq.

Hesabatın lehinə səs verəcəyəm və hörmətli deputat həmkarlarımı da hesabatın qəbul olunmasına səs verməyə dəvət edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim. Buyurun, Əli müəllim. Əli Hüseynli.

**Ə.Hüseynli.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli deputatlar və hökumət nümayəndələri. 2023-cü ildə geosiyasi münaqişələrin qlobal iqtisadi artıma mənfi təsir etməsinə baxmayaraq, Azərbaycanda burada qeyd olunduğu kimi, durğunluq deyil, əksinə iqtisadi artım meyilləri davam etmişdir.

Vergi və gömrük inzibatçılığı sahəsində əsaslı islahatlar, eləcə də, bütövlükdə, maliyyə sistemimizin şəffaflığının təmin edilməsi istiqamətində görülən işlər mövcud potensialımızdan istifadə üçün ciddi zəmin yaratmışdır.

2023-cü ildə, bütövlükdə, iqtisadiyyatımızın, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılmasından ötrü ciddi qanunvericilik tədbirləri də həyata keçirilmişdir. Qəbul edilmiş Rəqabət Məcəlləsi, "Qiymətləndirmə fəaliyyəti haqqında", "Aviasiya haqqında" və digər qanunlar həm də geniş ictimai müzakirələr keçirilərək qəbul edilmişdir. Əslində, bu bir növ hökumətin təkcə hesabat ilində hesabatı deyil, ardıcıl olaraq hesabatlığının ciddi bir nümunəsidir.

Şübhəsiz ki, iqtisadi islahatların uğurunu səciyyələndirən vacib amillərdən biri də paralel olaraq hüquq islahatlarının aparılması olmuşdur. Son qanunvericilik dəyişiklikləri nəticəsində məhkəmə hakimiyyəti ilə icra hakimiyyəti qoluna aid olan ədliyyə sistemi arasında müasir beynəlxalq standartlara uyğun olaraq, səlahiyyətlər dəqiqləşdirilmişdir. Əlbəttə ki, iqtisadi mübahisələrin ədalətli, surətli və müstəqil həlli milli və xarici investorlar üçün mühüm şərtlərdən biridir. Keçən il qəbul etdiyimiz "Arbitraj haqqında" Qanun da gələcəkdə bu mübahisələrin sürətli baxılmasını təmin edəcəkdir. Hesabat ilində məhkəmə qərarlarının icrası üzrə görülmüş tədbirlər də təqdirəlayiqdir və hesabatda qeyd olunmuşdur ki, 565 mindən çox sənədin icrası təmin olmuşdur. Əgər nəzərə alsaq ki, icraatda 1 milyon 120 minə qədər iş olmuşdur, bu, çox mütərəqqi haldır. Eyni zamanda, qeyd etmək istəyirəm ki, gələcəkdə islahatlar çərçivəsində icraatın özəl qurumlara həvalə edilməsi də artıq günün zərurətinə çevrilmişdir. Qonşu Qazaxıstan Respublikasında olduğu kimi, belə bir qarışıq sistem vətəndaş–məmur münasibətlərini minimuma endirər, eyni zamanda, yeni iş yerlərinin açılmasına da gətirib çıxara bilər. Əminəm ki, ədliyyə orqanlarında sürətlənən islahatlar çərçivəsində cənab Prezidentin 2019-cu il fərmanında öz əksini tapmış bu ideya da həlini tapacaqdır.

Sosial-iqtisadi islahatların uğurunun vacib təməllərindən biri də ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində ardıcıl həyata keçirilən tədbirlərdir. Cinayət işləri üzrə vurulmuş zərərin hələ ibtidai istintaq dövründə ödənilməsinə nail olunması müsbət haldır. Hesabatda bu rəqəmlər əksini tapmışdır. Vurulmuş zərərin təxminən dörddə biri artıq ibtidai istintaq dövründə icra olunmuşdur.

Hörmətli həmkarlar, hazırda ölkəmizdə COP29-la bağlı həyata keçirilən hazırlıq işləri bir çox sahələrin həm də pozetiv mənada ekspertizasıdır. Dünyanın 1 nömrəli beynəlxalq tədbiri ölkəmizin bütün strukturlarının ən müasir beynəlxalq standartlara uyğunlaşdırılmasına gətirib çıxarır. Bir çox sahələr – nəqliyyat, logistika, qida təhlükəsizliyi, ekoloji məsələlər, turizm infrastrukturu, bütün bu sahələr sürətli şəkildə dəyişikliyə məruz qalır. Əlbəttə, bütün bu işlərin məqsədi təkcə tədbirin yüksək səviyyədə keçirilməsindən ibarət deyil, bu yeniliklər ilk növbədə əhalinin maraqlarına xidmət edəcəkdir.

Bütün bu işlər Azərbaycanın bir sıra parametrlər üzrə inkişaf etməkdə olan ölkələr sırasından gələcəkdə inkişaf etmiş ölkələr sırasına qatılması üçün ciddi təməl yaradır. Cənab Prezidentin də öz müsahibəsində söylədiyi kimi, yeni konseptual inkişaf strategiyamızın ambisioz hədəflərindən biri də məhz bu ola bilər.

2023-cü il, bu gün də çıxışlarda qeyd olunduğu kimi, Ulu Öndərlə bağlı yubiley tədbirləri ilə yadda qaldı. Bu baxımdan hesabat ili müəyyən mənada 1993-cü ildən fəaliyyət göstərən hökumətin də uğurlu işinin yubiley hesabatıdır. Əminliklə demək olar ki, hökumətimiz bu illər ərzində qarşıya qoyulmuş əsas məqsədlərə nail olmuşdur. Qarşıdakı yeni mühüm dövrdə hökumətin fəaliyyətinə uğurlar arzulayır, hesabatı məqsədəmüvafiq hesab edir və hesabatın səsə qoyulmasını xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Əli müəllim, çox sağ olun. Təklif var, hesabatı səsə qoyaq.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Ancaq mən görürəm... Mən çox üzr istəyirəm, suala yazılan var. Fəzail Ağamalı. Fəzail müəl-

lim, bir dəqiqəniz var, buyurun. Ya sual, ya da təklifdir. Buyurun.

**F.Ağamalı.** Hörmətli xanım sədr, Hörmətli Baş nazir, hökumət üzvləri! Qalib ölkənin, qalib xalqın qalib hökuməti son illərdə olduğu kimi, 2023-cü ildə də möhtərəm cənab Prezidentin ətrafında sıx birləşərək, qarşıya qoyulan vəzifələri uğurla həyat keçirərək, çağdaş tariximizin ən çətin sınaqlarından çıxmağı bacardı və yeni çağırışların yeni dövrünə etimad qazandı. Bu etimadı qazananlardan biri də gənc nazirimiz Fərid Əhmədov oldu. Mən onu təbrik edirəm.

Hökumətin 2023-cü il fəaliyyətini yüksək qiymətləndirir, növbəti illərdə onlara uğurlar arzulayıram. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, səsə qoymazdan əvvəl mən çox hörmətli cənab Baş nazirə söz vermək istəyirəm. Əli müəllim, suallar, təkliflər var idi. Nə isə demək istəyirsinizsə, buyurun.

**Ə.Əsədov**. Çox hörmətli xanım sədr, hörmətli millət vəkilləri! İlk növbədə yeni seçilmiş hökuməti təbriklərə, o cümlədən millət vəkillərinin çoxunun qarşıdan gələn Novruz bayramı ilə əlaqədar hökumət üzvlərinə xoş sözlərinə görə hamınıza təşəkkür edirəm.

Hörmətli Milli Məclis üzvləri, suallara cavab verməyə keçməzdən qabaq onu bildirmək istərdim, – çıxışımda da demişəm, – bizim əsas məqsədimiz qanunvericiliyə, Konstitusiyaya uyğun olaraq, Milli Məclis qarşısında hesabat verməkdən ibarətdir. Onunla bərabər biz, – mən bunu son illərdə çıxışlarımda hər dəfə deyirəm, – Milli Məclis qarşısında çıxış edərək həm gördüyümüz, həm də görə bilmədiyimiz işlərlə bağlı, xalqın istəyini, seçicilərin sözünü millət vəkillərinin çıxışlarında bizlərə çatdır-

malarını yüksək qiymətləndiririk. Yəqin ki, istər hökumət üzvlərinin, istərsə də dövlət qulluğunda olan şəxslərin, o cümlədən millət vəkillərinin amalı bir şeydir. Xalqa, vətənə, insanlarımıza, vətəndaşlarımıza qulluq etmək və onların sosial vəziyyətini, ümumiyyətlə, yaşayış səviyyəsini yüksəltmək. Bundan yüksək də amal yoxdur.

Bununla əlaqədar mən və hökumət üzvləri qaldırılan məsələlərin hamısını səmimi şəkildə qəbul edirik. Sadəcə olaraq, onu da bildirmək istəyirəm ki, hər il noyabr–dekabr aylarında hökumət büdcənin təsdiq edilməsi üçün Milli Məclisə müzakirələrə dəvət olunur. Gəlirik və sizlərlə bərabər il çərçivəsində fəaliyyətimizi, imkanları, büdcənin mədaxil və məxaric, gəlirlər və xərclər hissəsini müzakirə edirik. Milli Məclisdə qəbul olunandan, möhtərəm Prezidentin fərmanı ilə təsdiq olunandan sonra, bu büdcə bizim əsas sənədimizdir və biz o sənəd çərçivəsində fəaliyyət göstəririk. Bu, belədir və belə də olacaq. Bu, tək bizdə deyil, ümumiyyətlə, əksər ölkələrdə belədir.

Bununla əlaqədar bir neçə məsələni də deməyi özümə borc bilirəm. Sualların əksəriyyəti mənim tərəfimdən, müvafiq nazirlik və qurum rəhbərləri, Nazirlər Kabinetinin məsul işçiləri tərəfindən qeydə alınıb. Burada çıxışlarda da səsləndirildiyi kimi, çalışacağıq, qaldırılan bütün məsələlərə maksimal dərəcədə cavab verək. Ancaq onu da səmimi demək istərdim, mən burada söz vermək istəmirəm ki, qaldırılan məsələlərin hamısını yüzdə yüz həll edəcəyəm. Ona görə ki, bu, imkanlardan asılıdır və yəqin, bilirsiniz, onu demişik, yenə demək istəyirik, istəklər, xahişlər və müraciətlər həmişə imkanlardan qat-qat çoxdur. Bu, keçən dövrdə də belə olub, bu gün də, bizdən sonra da belə olacaq. Maksimal dərəcədə, bütün problemlərin həll olunması mümkün deyil. İnsan,

bəşəriyyət inkişaf etdikcə insanların tələbatı artır və bunu qarşılamaq hökumətlərin əsas vəzifəsidir.

Ümumiləşdirilmiş xarakter daşıyan bir neçə məsələni demək istəyirəm. Seçicilərin sizlərin vasitəsi ilə çatdırdığı, belə deyək, infrastrukturla bağlı olan məsələlər – təhsil, qəzalı məktəblər, müavinətlər, pensiyalar, qəzalı binalar, yeni tikintilər, o cümlədən də infrastruktur, qaz, su, yol, körpülərlə əlaqədar və digər məsələlər. Bu məsələlərə investisiya proqramı və digər çərçivədə baxılır.

Bir neçə məsələ var ki, mən istərdim, Məclislə bölüşüm. Əsas məsələlərdən biri bizim iqtisadi artım templərimiz, 2023-cü ildə ümumi daxili məhsulun 1,1 faizlik artımı ilə bağlı idi. Burada deputatlar çıxışlarında dedilər, mən tarixi yada salmaq istərdim. Hörmətli millət vəkilləri, hamımıza yaxşı bəllidir ki, düz 30 il bundan qabaq, 1994-cü ildə Ulu Öndər Heydər Əliyevin “Əsrin müqaviləsi” ilə neft strategiyasının həyata keçirilməsinə start verildi. Təbii olaraq, Azəri–Çıraq–Günəşli layihəsi 30 ilə hesablanmışdı. Bu gün 2024-cü il, o dövrdür ki, 30 il başa çatır. Əslində bundan sonra o müqavilə fəaliyyətini dayandırmalı idi. Onu da yada salmaq istəyirəm ki, Ulu Öndərin əsasını qoyduğu və Prezident İlham Əliyevin uğurla apardığı siyasət nəticəsində Azərbaycanın bu dövr ərzindəki nailiyyətlərinin çoxu, elə neft strategiyasına, oradan gələn mənfəətdən və vəsaitdən gəlirlərə əsaslanıb. İstər ordu quruculuğumuz, istərsə də şəhərlərimizin simasının dəyişməsi və digər sosial yönümlü işlər.

Neft sənayesinin xüsusiyyətləri, yəqin ki, hörmətli millət vəkillərinə bəllidir. Neft hasilatının başlanğıc, pik və aşağı enmə dövrü var. Bu, hər yerdə, insan həyatında da, idmanda da belədir. Gənc idmançı yaşlandıqca eyni nəticələri göstərə bilmir. Gənc insan orta yaşa çatır, sonra

yaşlandıqca enerjisi azalır. Neft yataqlarının da neft potensialı azalmaqdadır. Onları nəzərə alaraq, mən bu gün, 2024-cü ildə müqavilənin müddətinin bitdiyini qeyd etdim. 2017-ci ildə möhtərəm cənab Prezident tərəfindən, – həmişə olduğu kimi, qabaqcadan görərək, – hələ neft hasilatı yüksək səviyyədə olan dövrdə neft hasilatının enməsinin qarşısını almaq məqsədi ilə operator olan BP şirkəti ilə və konsorsiumla bu barədə danışıqlar aparılmışdır. Bu danışıqların əsas mahiyyəti enməni azaltmaq və neft hasilatını stabilləşdirməkdən ibarət idi. Bu gün mən çıxışımda dedim.

Onu da deyim ki, möhtərəm Prezidentin elə dünən BP şirkətinin yeni rəhbərliyi ilə də görüşü olub və istər Londonda, istərsə də Bakıda belə görüşlər mütəmadi olaraq aparılır. Sadəcə, neft hasilatı düşür, 2022-ci illə müqayisədə 2023-cü ildə biz 2,4 milyon ton az neft almışıq. Qiymətlərin yüksək olmasına baxmayaraq və sair son illər hasilatın düşməsi prosesi gedir. Təbii olaraq, bu, neft-qaz iqtisadiyyatında əsas rollardan birini oynayan çox önəmli faktordur. Bəli, bunun kompensasiya edilməsi üçün Azərbaycan Hökuməti Prezidentin tapşırığı ilə tədbirlər görür və görməkdədir.

Mən dedim, konsorsiumla, partnyorlarla danışıqlar aparılır və bu istiqamətdə işlər görüləcəkdir. BP şirkəti, – mən indi tənqid üçün demirəm, olanı demək istəyirəm, – bizim neft sənayemizdə çalışan şəxslərə verilən məlumatlara əsasən bildirirəm ki, SOCAR-ın son dövrlərdə hasilatı azalmayıb, sabit olaraq qalıb. Bu gün sabitdir. Burada bizim dünya şöhrətli neftçimiz rəhmətlik Xoşbəxt müəllim Yusifzadəni yada salmaq istərdim. Onun bir kəlamı var idi: “Hasilat baltanın ucundadır”. Yəni nə qədər qazma gedəcək, nə qədər vəsaitlər qoyulacaq, o qədər

də neft çoxalacaq. BP şirkəti və SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarovun da mənə verdikləri məlumata və SOCAR-dan gələn məlumatlara görə, konsorsiumda olan partnyorlarımız da bunu qəbul edirlər. Yaxın dövrdə bu istiqamətdə sabitləşmə olacaq.

Qaz sahəsi. Qaz sahəsində Azərbaycan qaz hasilatında böyük nailiyyətlər əldə edib. Mən dedim, Azərbaycanın qazı 8 ölkəyə çatdırılır, bundan sonra da çatdırılacaq. Hasilat payımız da artıb. Abşeron yatağı, Ümid–Babək yatağı və Azəri–Çıraq–Günəşli yatağının aşağı laylarında olan qazın hasilatı başlayacaq. Qaz hasilatının da artırılması yəqin ki, bu məsələlərə təsir edəcək.

Deputatlar sual verdilər, biz iqtisadiyyatın əsas drayverini, əsas lokomotivini, əsas istiqamətini necə görürük? Qeyri-neft sahəsinin inkişafında təbii olaraq, bunu həm biz, həm deputatlar dedilər, bəli, baxmayaraq ki, 2023-cü ildə qeyri-neft sektoru 3,7 faiz artmışdı, o, neft sahəsində azalmanı kompensasiya etməmişdir. Təbii olaraq, biz özümüz üçün planlaşdırırıq və görürük ki, qeyri-neft sahəsində artım 5 faizin üstündə olmalıdır. Bu istiqamətdə də elə etməliyik ki, sabitləşmə olsun. Bu proqnozlar var və yəqin ki, biz bu istiqamətdə fəaliyyətimizi atıracağıq.

Kimsə dedi, mən bir də demək istəyirəm, bunu biruzə vermək üçün deyil, 1,1-1 faizin altında inkişaf. 1,1 elə 1,1-dir, 1-in aşağısı deyil, elə belədir. Bu da deyildi. Ancaq onu da demək istəyirəm ki, 2024-cü il üçün proqnozumuz 2,6 faiz artım tempidir. Hörmətli deputatların çıxışlarında da qeyd olundu, bu, beynəlxalq təşkilatların proqnozudur. Dünya Bankı 2025-ci il üçün 1,2 faiz inkişaf proqnozu verir. Avrozona üçün 0,7 və 1,6 faiz. Azərbaycan üçün mən dedim, 2,4-2,6 faiz göstərilir. Yəni biz Avropadan belə geri qalmırıq. Ancaq demirəm ki, bu bizim üçün

idealdır və sair. Necə var, olanı deyirəm, bizim inkişafımız da belədir.

Hörmətli deputatlardan bir neçəsi quru sərhədlərinin bağlanması ilə əlaqədar fikir bildirdi. Cavab belədir. Birinci, bunun birbaşa ümumi daxili məhsulun azalmasına təsir göstərdiyini demək düzgün deyil. Məlumat üçün deputatlara bildirim ki, 2021-ci ildə də, ümumiyyətlə, 2020-ci il martın 31-dən başlayaraq Azərbaycanın quru sərhədləri bağlanıb. Mən həmin qərara imza atmışam və bu, Baş nazir kimi mənim qanuna uyğun səlahiyyətimdir. Bu ayın 11-də də quru sərhədlərini 3 aylıq bağlamışıq. Quru sərhədləri 3 ay bağlı olacaq. Bununla əlaqədar digər bir şeyi də bildirmək istəyirəm. 2021-ci ildə baxmayaraq ki, sərhədlər bağlı olub, ümumi daxili məhsulun artımı 5,6 faiz, 2022-ci ildə 4,7 faiz olub, yəni bunları birbaşa əlaqələndirməyə ehtiyac yoxdur.

Hörmətli millət vəkilləri səsləndirdilər ki, Qarabağımızın inkişafı ilə əlaqədar donor təşkilatlara müraciətlər etmək lazımdır. Möhtərəm cənab Prezidentin çıxışlarını hamımız dinləyirik və hökumət o istiqamətdə hərəkət edir, işini qurur. Prezident deyib ki, heç kimdən biz heç bir qayğı, kömək, yardım görmədən işğaldan azad olunmuş ərazilərimizi inkişaf etdiririk və bunu kifayət qədər sürətlə edirik. Onu da deyim ki, – çıxışımda da dedim, – indiyə qədər, bu ili, 2024-cü ilin büdcəsini də nəzərə alsaq, bu işlərə 16 milyarda qədər vəsait ayrılıb. Sizin nəzərinizə onu da çatdırım ki, ki, 2025–2026-cı illərdə, 2 ilə 16 milyard manat vəsaitə ehtiyac var. Hər şeydən kənar. Hər il üçün 8 milyard manat, bu, Azərbaycan iqtisadiyyatı üçün çox böyük rəqəmdir.

O ki qaldı 2 gün öncə möhtərəm Prezident Qazaxıstanın Prezidenti ilə bərabər Qarabağda, Füzuli şəhərində

mədəniyyət mərkəzinin, ondan qabaq Özbəkistanın Prezidenti ilə bərabər məktəbin təməlini qoymuşdur, bunları çıxmaq şərti ilə digər məsələləri, orada aparılan quruculuq işlərini Azərbaycan Prezidenti Azərbaycanın öz vəsaiti hesabına aparır. Qaldı ki xarici dövlətlərlə bizim əməkdaşlığımız və sair məsələlər, bizim kreditləşməyə getməməyimizin səbəblərindən biri ondan ibarət idi ki, birinci, valyuta ehtiyatlarımız kifayət qədər çoxdur. Demişəm, yenə demək istərdim ki, xarici borcumuzu 10 dəfədən çox üstələyir. İkinci, xarici borcun minimuma salınması, birrəqəmli olması üçün biz ilk növbədə əlavə borc almaları dayandırmışdıq. Ancaq ona baxmayaraq, ehtiyac duyulanda xarici kreditlərlə əlaqədar Prezidentin tapşırığı ilə ən prioritet layihələr üçün, – Prezidentimiz 14 layihəni prioritet sayır, – əsasən, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya Bankı və digər beynəlxalq bank və kredit təşkilatları ilə bu istiqamətdə fəaliyyət göstəririk.

Deputatların çıxışlarına şərh vermədən onu da deyə bilərəm ki, davranış qaydalarından söhbət düşdü və burada deputatımız çıxışında dedi, vətəndaşlarımızla səmimi olmaq, onların qayğılarına qalmaq, insani münasibətləri düzgün qurmaq dövlət qulluğunda olanların, hökumətin, Milli Məclisin üzvlərinin, ümumiyyətlə, hamımızın borcudur. Ancaq onu da deyim, hər şeydən əvvəl bizim "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Qanunumuz var, 2007-ci ildə qəbul olunub. Bu məsələlər həmin qanunla tənzimlənilir. Əgər hansı isə məmur, hökumət üzvü olub-olmasından asılı olmayaraq, dövlət qulluğunda işləyən-işləməyən, etik normaları pozursa, bu, ünvanlı və konkret olmalıdır. Əgər hökumət üzvüdürsə, onun tədbiri görüləcək.

Məktəblərlə əlaqədar məsələlər qaldırıldı. Hörmətli millət vəkilləri, bilirəm ki, siz regionlarda, şəhər və kəndlərdə seçicilərlə görüşlərdə olursunuz və bu həssas məsələ ilə bağlı sizə müraciət edirlər. Özünüz görürsünüz, uşaqlarınız, yaxınlarınız məktəblərdə oxuyurlar. Onu bildirim ki, bu məsələ ilə əlaqədar rəqəm belədir. Bu gün 660-a qədər qəzalı məktəb var. Bunu biz görürük, gündəlik hiss edirik. Gələn il bu Məclisdə, qismət olsa, çıxış edəndə mən deyim ki, 660 məktəbin hamısını təmir etmişik, bunu edə bilməyəcəyəm. Biz Elm və Təhsil Nazirliyi ilə birlikdə bunlara baxırıq, investisiyalara, imkanlara və ardıcıllığa uyğun olaraq, qəzalı məktəblərin məsələsinə baxılacaq. Qəzalı binalar, evlər barədə də demək istəyirəm. Qəzalı, dözülməz və yararsız vəziyyətdə olan evlər var. 3 kateqoriya var. O kateqoriyalara uyğun olaraq, Fövqəladə Hallar Nazirliyinə və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə biz bunları göndəririk, onların ekspert rəyinə uyğun konkret olaraq mənim masama sənəd gəlir ki, bax, bu bina qurulur, bu yataqxana dərhal köçürülməlidir, sökülməlidir. Hansı isə dözə bilər, hansınınsa məsələsi gələn və gələcək illərdə həll oluna bilər.

Burada Sumqayıt şəhəri ilə bağlı məsələ qaldırıldı. Sumqayıtda, Gəncədə, Bakıda yataqxanaların köçürülməsi ilə bağlı işlər gedir. Məndə keçən ildən rəqəmlər var, nə qədər binadır. Bir qismi Sumqayıtla əlaqədardır, şəhərin icra başçısı Zakir Fərəcov tərəfindən verilən məlumatlara görə, 12 yataqxananın vəziyyəti qeyri-qənaətbəxşdir. Onun 6-sı ilə biz məşğul olmuşuq, 3-ü köçürülüb. Bir qisminə, vaxtında məcburi köçkünlər üçün tikilmiş, sonra sosial evlər kimi verilən evlər verilib. Bir qisminə yardımlar olunub və razılaşmayan şəxslər olub. Gəncədə və

Mingəçevirdə də bu işlər aparılıb.

Aydın müəllim burada məsələ qaldırdı. 2 yataqxana köçürülüb, orada 6 yataqxana nəzərdə tutulub. Ola bilər, yataqxanaların və evlərin sayı daha çoxdur. Ancaq mən yenə deyirəm, mənim üçün Fövqəladə Hallar Nazirliyinin rəsmi sənədi əsasdır. Qəzalı binalarla əlaqədar mən çıxışımda dedim, bir daha onu qeyd etmək istəyirəm ki, nəinki Bakıda, Sumqayıtda, Gəncədə, Mingəçevirdə, böyük şəhərlərdə, respublikanın bütün şəhərlərində və qəsəbələrində qəzalı binalar var. Ancaq o qəzalı binaların hamısını bizim dərhal təmir edib köçürməyimiz mümkün olmayan məsələdir. Onların dözülməz vəziyyətdə olanları var.

Onu da deyim, hər dəfə dövlət-özəl tərəfdaşlığı haqqında tezisləri vurğulayırlar. Hökumət öz tərəfindən özəl sektora müraciət edib. Birbaşa mənim tapşırığımla, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi bununla məşğuldur. Hökumət öz tərəfindən bu prosesə təkan verməkdən ötrü torpaq ayırması, kommunal xidmətləri – suyu, qazı, işığı, yolu çəkməyə və bəzi güzəştlərə getməyə hazırdır. Onun üçün ki, özəl sektor da bu məsələyə cəlb olunsun. Bu tribunadan istifadə edərək, özəl sektoru bir daha istər Bakıda, istərsə də digər regionlarda bu təşəbbüsə qoşulmağa dəvət edirik və öz tərəfimizdən verilən öhdəlikləri yerinə yetirəcəyik. O halda ki, özəl sektor da o şərtləri qəbul etməlidir və bizimlə bərabər işləməlidir.

Mədəniyyət ocaqları, mədəniyyət klubları ilə əlaqədar, kitabxanalar deyilmədi, kitabxanalarla bağlı dövran dəyişib. Məndə statistika var, nə qədər kitabxanalar lazımsız oldu. Mən kitaba və kitabxanaya qarşı deyiləm. Hamımızın, sizlərin də, bizlərin də evlərimizdə böyük kitabxanalar var və sair. Ancaq dövran dəyişib. Əksəriyyətimiz bu gün internetdən və digər şəbəkələrdən istifadə

edirik. Ona görə də bu proseslərdə bəzi yeni yanaşmalar da var. Mən yenə deyirəm, kitabxanaya və kitaba qarşı deyiləm. Ancaq onunla bərabər, burada reallıqları da nəzərə almaq lazımdır. O cümlədən mədəniyyət evləri ilə əlaqədar suallar qaldırıldı. Mədəniyyət Nazirliyindən verilən məlumatlar var. Təbii, bəzi yerlərdə bəlkə də biz bu məsələni ikinci, üçüncü plana qoymuşuq, biz bunlara baxmalıyıq. Bunlar daha da canlandırılmalıdır.

Hörmətli millət vəkilləri, mən burada bir dəfə sizlərin qarşısında demişəm, bir də demək istərdim. Bu deyilən problemlərin heç biri yeni deyil. Yeni odur ki, torpaqlar azad olunub və Qarabağı azad edəndən sonra Azərbaycanın ərazisi tam bərpa edilib və tam suverendir. Prezidentin tapşırığı, birbaşa iştirakı ilə fantastik işlər görülür. Vəsaitlərin əksəriyyəti iki istiqamətdə gedir. Müdafiə, milli təhlükəsizlik, bir də Qarabağ. Əsas qüvvəmizi oraya da yönəldəcəyik. Nəyə görə? Yəqin bu mötəbər Məclisdə bunu xırdalatmağa ehtiyac yoxdur. Qarabağla əlaqədar, yenə deyirəm, onu söyləyirəm ki, tələbat böyükdür. Hələ ki, 32 milyardın üstündə durmuşuq, yəni bu rəqəmi görürük. Bu, kifayət qədər böyük rəqəmdir. Qarabağda tikilən obyektlər, yaşayış evləri, infrastruktur obyektləri və sair, bəli, bəzi hallarda Avropa standartını da keçir.

Kənd təsərrüfatının inkişafı ilə əlaqədar mən dedim, problemlərimiz və sair. Bir məqamı da, bir rəqəmi də demək istəyirəm. Hörmətli həmkarım Əli müəllim Məsimli işsizliklə əlaqədar dedi. Onunla Akademiyada bərabər işləmişik, iqtisadçıdır. Ona görə bir daha demək istəyirəm, işsizliklə əlaqədar 2024-cü ilin iki ayı ərzində özəl sektorda 23 min iş yeri açılıb. 2023-cü ildə ancaq özəl sektorda 66 min iş yeri açılıb. Son dövrlərdə 350 min yeni iş yeri açılıb.

Çox hörmətli Sahibə xanım, hörmətli sədarət, hörmətli millət vəkilləri. Bizi dəstəklədiyinizə, 2023-cü ilin hesabatını qəbul etdiyinizə görə bir daha hamınıza təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, hörmətli Əli müəllim. Hörmətli həmkarlar, hesabatla bağlı 35 deputat çıxış etdi və çıxış edənlərin mütləq əksəriyyəti hökumətin hesabatı haqqında müsbət rəylər söylədilər. Mən indi hesabatın nəzərə alınması barədə qərar layihəsini səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 16.52 dəq.) |
|---|---:|
| Lehinə | 90 |
| Əleyhinə | 2 |
| Bitərəf | 2 |
| Səs verMədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi.

Hörmətli cənab Baş nazir və hökumət üzvləri, hörmətli deputatlar və media nümayəndələri. Bir neçə gündən sonra xalqımız ən əziz bayramlarından biri olan Novruzu qeyd edəcəkdir. Bildiyiniz kimi, Novruz  dostluq, ünsiyyət, paklıq və yenilik bayramıdır. Bizim əsrlərin sınağından çıxmış milli-mənəvi dəyərlərimizi təcəssüm etdirir. Təklif edirəm, bu gözəl bayram münasibəti ilə möhtərəm cənab Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlayaq, xalqımızın və dövlətimizin bu günü və sabahı naminə dəyərli fəaliyyətlərində onlara yeni böyük uğurlar arzulayaq! (*Alqışlar.)*

Çox sağ olun. Mən bayram münasibəti ilə sizin hər birinizi, həm Nazirlər Kabinetini, həm də deputat korpusunu ürəkdən təbrik edirəm və sizə möhkəm can sağlığı arzulayıram!

Bununla da bizim iclasımız başa çatdı. Növbəti iclasımız ayın 29-da olacaq. Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

**Adil Əliyev.** Gündəliyimizə daxil olan Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2023-cü ilə aid hesabatını yüksək qiymətləndirirəm. Hesabat təkmildir və 2023-cü il ərzində hökumətin gördüyü işləri tam əhatə edir. Hesabatdan da görünür ki, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, hökumət 2023-cü ildə də cənab Baş nazirin rəhbərliyi altında bir çox sahələrdə üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlib.

Xüsusi ilə qeyd etməliyəm ki, tariximizə qızıl hərflərlə düşən və müzəffər Ali Baş Komandanın rəhbərliyində 44 gün davam etmiş Zəfər yürüşümüz ölkəmizin qüdrətini bir daha bütün dünyaya nümayiş etdirdi. 2020-ci il torpaqlarımızın işğaldan azad olunması, 2023-cü il isə suverenliyimizin bərqərar edilməsi kimi tarixi hadisələrlə yaddaşlara yazıldı.

İlk dəfə şəhid ailələrinin və qazilərin iştirakı
kəndi şəhərində futbol yarışının keçirilməsi dövlət başçısının qəhrəmanlarımıza, onların ailəsinə verdiyi dəyərin, eləcə də idman və gənclər siyasətinə verdiyi önəmin nümayişi idi.

Dövlət başçısının tapşırıq və tövsiyələrinə uyğun olaraq, şəhid ailələri ilə, qazilərlə mütəmadi görüşlər keçirir, onları maraqlandıran müxtəlif məsələlər haqqında müzakirələr aparırıq. Şəhid ailələri və qazilər Prezidentin, birinci xanımın onlara göstərdikləri yüksək diqqət və qayğıdan tam razılıqlarını ifadə edirlər. Mənzillə, avtomobillə təmin olunmalarla yanaşı, eləcə də sosial vəziyyətlərinin yaxşılaşdırılması istiqamətində atılan bütün addımlara görə minnətdarlıqlarını bildirirlər.

Təqdim olunmuş hesabatdan da görünür ki, məhz

dövlət başçısının müvafiq tapşırıqlarına uyğun olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu sahədə çoxsaylı addımlar atır, həssas təbəqədən olan vətəndaşlarla bağlı məsələləri hər zaman ön planda saxlayır. Bu sahədə görülən işlərin içərisində rayon qeydiyyatında olan, fərdi mənzil ehtiyacı olan şəxs qismində uçota alınmış şəhid ailələri və qazilərin mənzil təminatı vacib bir nüansdır.

Cənab Baş nazir və hökumət üzvləri, təklif edirəm ki, regionlarda qeydiyyata alınmış imtiyazlı şəxslərin fərdi mənzillərinin inşası prosesi cari il ərzində sürətlənsə və bu sahə diqqətdə saxlansa, daha yaxşı olar.

**Aqil Məmmədov.** 2023-cü ildə ərazi bütövlüyümüz və suverenliyimizin tam təmin edilməsi, işğalçı qüvvələrdən tamamilə təmizlənməsi, milli iqtisadiyyatımızın inkişafı, bütövlükdə, bütün sahələrdə əldə olunan uğurları nəzərə alıb, 2023-cü ildə Nazirlər Kabinetinin fəaliyyətinə dair Milli Məclisə təqdim olunan hesabatı məqbul hesab edirəm və lehinə səs verəcəm. İnanıram ki, deputat həmkarlarım da, geniş şəkildə hazırlanmış bu hesabatla bağlı müsbət fikirlər söyləyəcəklər.

Eyni zamanda, qeyd etmək istəyirəm ki, işğaldan azad olunmuş bölgələrə Böyük Qayıdışa dair qəbul olunmuş birinci dövlət proqramı yüksək səviyyədə və nəzərdə tutulmuş plan üzrə uğurla həyata keçirilir. Cənab İlham Əliyevin birbaşa rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərimizdə hazırda sürətli bərpa, yenidənqurma işləri aparılır, böyük infrastruktur layihələləri icra edilir. 30 il müddətində erməni vandalizminə məruz qalmış şəhərlərimiz, kəndlərimiz daha abad və müasir formada yenidən qurulur.

Eyni zamanda, artıq Böyük Qayıdışa start verilib, mər-

hələli formada əhali qruplarının azad olunmuş bölgələrə qayıdaraq məskunlaşması prosesi uğurla davam edir. Görülən işlərə görə keçmiş məcburi köçkünlər ölkə rəhbərliyinə daim öz minnətdarlıqlarını bildirirlər. Bu proses zamanı qarşıya çıxan bir sıra məsələlərə diqqətinizi yönəltmək istəyirəm.

Təmsil etdiyim Kəlbəcər rayonunun 2 min kvadrat kilometrdən çox ərazisi var ki, bunun da çox hissəsi, meşəlik, dağlıq ərazilərdir. Kəlbəcər ərazisi öz zəngin təbiəti, flora və faunası İlə məşhurdur. Azad olunandan sonra bölgədən çəkilən video və fotolarda nadir heyvan növlərinə, çoxlu sayda çöl heyvanlarına rast gəlinir. Həmçinin, Kəlbəcərin əsas çayı – Tərtər çayı və Tərtərə tökülən dağ çaylarında çay balıqları, yerli qızılbalıq mövcuddur ki, bütün bunlar Kəlbəcərin canlı təbiətinin sərvəti və zənginliyidir. Lakin, təəssüflər olsun ki, bəzi hallarda ərazidə çay balıqlarının müxtəlif texniki vasitələrlə kütləvi ovlanması, çöl heyvanlarının qanunsuz ovu kimi xoşagəlməz halların həyata keçirilməsi müşahidə olunmaqdadır.

Bundan başqa, bəllidir ki, ərazidə bir sıra yerli və xarici şirkətlər fəaliyyət göstərir. Bu şirkətlər bəzən bilmədən, bəzən də etinasız yanaşaraq öz işlərini asanlaşdırmaq üçün, yəni yerli tikinti materiallarından istifadə zamanı təbiətə ciddi ziyan vururlar. Xüsusi ilə, yol çəkilişi zamanı kəndlərin əlamətlərini bildirən, təbiətin nadir inciləri olan qayalar, nişangahlar, meşələr, bulaqlar məhv edilir, çayların məcrası, təbii görünüşü dəyişdirilir. Təbiətə bu cür yanaşmaların qarşısı vaxtında alınmalıdır.

Bu gün cənab Baş nazirin, müvafiq qurumların rəhbər şəxslərinin iştirakını nəzərə alıb, vətəndaşları narahat edən bu cür məsələləri diqqətinizə çatdırmağı özümə borc bil-

dim.

Aidiyyəti qurumlar, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi bu məsələləri ciddi şəkildə diqqətdə saxlamalı, lazımı tədbirlər həyata keçirməlidirlər. Onsuz da işğal dövründən böyük yaralar almış təbiətimiz bir daha bu çətinliklə üzləşməsin.

Digər bir məsələ işğaldan azad edilən ərazilərdə yerli sakinlərin öz vəsaitləri hesabına evlərinin yenidən tikilməsi və bərpa olunması ilə əlaqədar müraciətlərdir. Düşünürəm ki, bu qəbildən olan vətəndaşlarımızın müraciətləri nəzərə alınmalı, şəhər və kəndlərin baş planına uyğun şəkildə onların təşəbbüsləri dəstəklənməlidir. Bu, həm də qayıdış prosesində dövlətin yükünü də müəyyən ölçüdə azaltmış olar.

**Arzu Nağıyev.** Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 yanvar tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq, Tovuz və Gədəbəy rayonlarında qaz təchizatının, əhalinin elektrik enerjisi ilə təminatının yaxşılaşdırılması sahəsində davamlı olaraq tədbirlər həyata keçirilir.

Təmsil etdiyim 104 saylı Gədəbəy-Tovuz dairəsindən olan seçicilərimin də fikrini nəzərinizə çatdırmaq istərdim. Qeyd etmək istərdim ki, verdiyimiz təkliflər nəticəsində bu il Gədəbəyin Şınıx zonasında yol çəkilişi həyata keçirilir və yekunlaşması nəzərdə tutulub. Bununla əlaqədar hökumətə və yol çəkilişini həyata keçirən qurumlara təşəkkürümü bildirirəm.

Tovuz rayonunun Çatax bələdiyyəsinə daxil olan Hacılar, Kazımlı və Qandalar kəndlərinə qaz xəttinin çəkilməsi ilə bağlı müraciətimizə əsasən 2023-cü ildə

Tovuz rayonu Əyyublu kəndinin genişlənən hissəsinin, Kazımlı və Hacılar kəndlərinin qazlaşdırılması tamamlanmış, Vahidli kəndində yerləşən yeni yaşayış massivində paylayıcı qaz xətlərinin quraşdırılması işləri aparılır. Aşağı Quşçu, Aşağı Mülkülü, Aşağı Öysüzlü, Dondar Quşçu kəndlərində yerləşən yeni yaşayış massivlərində və Şamlıq kəndində daşıyıcı və paylayıcı qaz xətlərinin quraşdırılması nəzərdə tutulmuşdur.

Tovuz rayonunun Qandalar kəndinə qaz xəttinin çəkilməsi üçün ilkin baxış keçirilmiş, təsərrüfatların sayı, əsas xətdən olan məsafə dəqiqləşdirilmiş, mövcud maliyyə imkanları çərçivəsində kəndin qazlaşdırılması məsələsinə baxılacaqdır.

Ölkəmizdə əsas içməli su mənbəyi olan Kür çayına kanalizasiya və çirkab sularının birbaşa axıdılması məsələsi diqqətdə saxlanılmalıdır. Eyni zamanda, Ağstafa, Qazax, Tovuz şəhərlərində tullantı sularının idarə edilməsi məqsədi ilə kollektorlar və təmizləyici qurğular inşa edilmişdir. Hazırda bu istiqamətdə işlər dövlət investisiya proqramı çərçivəsində mərhələlərlə davam etdirilir.

Tovuzun bir sıra kəndlərinin su problemləri ilə bağlı məsələ yerində araşdırılmış və məlum olmuşdur ki, bu kəndlərdə artezian quyularının qazılmasına baxmayaraq, su çıxmır. Kür çayından suyun gətirilməsi isə çox böyük məsrəf tələb edir. Yeganə alternativ layihə kimi Zəyəm çayı üzərində su anbarının tikilməsi məsələsinə baxıla bilər. Bu, həm Şəmkir, həm də Tovuz rayonunun bir çox kəndlərini su ilə bağlı acınacaqlı vəziyyətdən xilas edə bilər. Bu məsələyə baxılması və diqqətdə saxlanılması çox xahiş olunur.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 İyul tarixli 2178 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Su

ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020–2022-ci illər üçün Tədbirlər Planı"na uyğun olaraq, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin sifarişi ilə Zəyəm çayının məcrasında həcmi 115 milyon kubmetr olan su anbarının inşası məqsədi ilə texniki-iqtisadi əsaslandırma və layihə sənədlərinin hazırlanması işləri aparılır. Zəyəmçay su anbarının tikintisi məqsədi ilə texniki-iqtisadi əsaslandırma və layihə-smeta sənədlərinin hazırlanması üzrə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən keçirilmiş açıq tenderin nəticəsinə uyğun olaraq, 1,4 milyon manat vəsait ayrılmışdır. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin sifarişi əsasında "Hydro-Geo Environment Group" MMC tərəfindən texniki-iqtisadi əsaslandırma və layihə-smeta sənədləri hazırlanmışdır.

Tovuz rayonunun Əlimərdanlı, Qaraxanlı, Xatınlı, Qədirli və Cilovdarlı kəndlərində əhalinin içməli su təminatının yaxşılaşdırılması məqsədi ilə ictimai bulaq layihəsinin icrası başa çatmış və əhalinin ümumi istifadəsinə verilmişdir. Həmin layihənin davamı olaraq Ağdam, Əlibəyli, Yuxarı Öysüzlü, Aşağı Öysüzlü, Vahidli, Hacıalılı və Mülkülü kəndlərində ictimai bulaqların qurulması işləri davam etdirilir, Dondar Quşçu kəndində isə gələcəkdə icrasına başlanacaqdır. Rayonun Qovlar şəhərində, Aşağı Quşçu, Əyyublu, Köhnəqala, Məşədilər, Düz Qırıqlı, Dönük Qırıqlı, Alakol və İbrahimhacılı kəndlərində mənbəyi Zəyəm çayından götürülməklə əhalinin dayanıqlı və keyfiyyətli içməli su ilə təmin olunması üçün müvafiq tədbirlərin görülməsi ilə bağlı aidiyyəti üzrə müraciət edilmişdir.

Gədəbəy rayonunda ən böyük problemlerden biri rayonda idman məktəblərinin, idman müəssisələrinin olmaması, maddi-texniki bazasının aşağı səviyyədə

olmasıdır. Gənc və perspektivli idmançıların peşəkar və proqramlı şəkildə idmanla məşğul olmalarına müvafiq şərait yoxdur. Rayonda 2006-cı ildə açılışında ölkə rəhbərliyinin də iştirak etdiyi idman kompleksi, o cümlədən idman meydançası özəlləşdirildikdən sonra istifadəyə yararsız hala düşmüşdür və hazırda fəaliyyətsiz vəziyyətdədir. Bu məsələlərin həllinə, eyni zamanda, özəlləşdirilən və yararsız vəziyyətə salınan idman zalları ilə bağlı vəziyyətin araşdırılmasına göstəriş verilməsi xahiş edilir.

Bu gün əsas problerimizdən biri də evlərin sənədləşdirilməsi və müvafiq olaraq sığortalanmasıdır. Sığorta məsələləri həyata keçirilmədiyi üçün təbii fəlakət və ya digər hadisələr, yanğın və sair baş verəndə təmir üçün vətəndaşlarımız müxtəlif strukturlara müraciət edir və çox vaxt öz həllini tapmır. Buna görə də bu istiqamətdə işlərin aparılmasını tezləşdirmək məqsədəuyğun olardı.

Ümumilikdə, hökumətin hesabatını müsbət qiymətləndirir və lehinə səs verəcəm.

**Etibar Əliyev.** Qeyd etməyi zəruri biliərəm ki, hökumətin hesabatı kifayət qədər geniş və əhatəlidir. Demək olar ki, hökumətin fəaliyyətinin bütün sahələrini əhatə edir. Hesabatda bütün sahələrdə il ərzində hökümət qurumlarının həyata keçirdikləri fəaliyyətlər yer almışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dəfələrcə çıxışlarında vurğulayıb ki, dövlət qurumlarının fəaliyyəti nəticəyə yönəlik olmalı, qarşıya qoyulan məqsəd və hədəflər dəqiq olmalı və bütün fəaliyyətlər də həmin məqsədlərə istiqamətləndirilməlidir. Məhz nəticəyə yönəlik fəaliyyət sisteminin qurulması, xüsusi ilə nəticəyə yönəlik büdcə sisteminin qurulması həm dövlət vəsaitlərindən istifadənin səmərəliliyini, həm də hökumət qurumlarının daha səmərəli və hesabatlı

işləməsini təmin edə bilər. Böyük Qayıdışı hamımız alqışlayırıq. Böyük Qayıdışla məktəblərimiz, baxçalarımız, səhiyyə müəssisələrimiz, mədəniyyət mərkəzlərimiz də doğma torpaqlarımıza qayıdır. Əlbəttə ki, bu işlər böyük maliyyə vəsaitləri tələb edir.

Artıq 4 ilə yaxındır ki, ictimai maliyyə hesabatları çərçivəsində 3 pilot sektorda təhsil, kənd təsərrüfatı və ətraf mühitin mühafizəsi sektorlarında büdcə xərclərinin səmərəliliyinin artırılması üçün nəticə əsaslı büdcə tərtibi prosesinə keçid başlayıb. Hesabatda bu prosesdəki vəziyyət barədə məlumat və təhlillərə rast gəlmədim. Burada zaman azlığını önə çəkənlər yanılırlar. Dünya Bankı nəticə əsaslı büdcə tərtibi prosesində 5 il müddəti uzun müddət hesab etmir. Xorvatiya nümunəsi buna misal ola bilər.

Ətraf mühitin mühafizəsinin pilot sektor kimi seçilməsi faktı sübut edir ki, hələ COP29-la bağlı qərarın verilməsindən xeyli əvvəl Azərbaycan “yaşıl keçid”lə bağlı səylərini dünyaya nümayiş etdirib.

Ölkədə ən ciddi problemlərdən biri maliyyə intizamsızlığına son qoyulması istiqamətində səylərin artırılmasıdır. 2023-cü ildə Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti dövlət büdcəsindən vəsait alan 126 təşkilatda nəzarət tədbirləri həyata keçirib. 90 təşkilatda yoxlamalarda 586,9 milyon manat məbləğində artıq və əsassız ödənişlər, 131,9 milyon manat məbləğində gömrük ödənişlərinin az hesablandığı və nəticədə bu məbləğdə vəsaitin dövlət büdcəsinə az ödənildiyi aşkar edilib. Gömrükdə aparılan islahatların nəticəsi budurmu? Aşkar edilmiş nöqsanlara hüquqi qiymət verilməsi üçün yoxlamaların nəticələrinə dair tərtib edilmiş aktlar, əlavələri ilə birlikdə aidiyyəti üzrə prokurorluq və hüquq

mühafizə orqanlarına göndərilib. İndiki vəziyyətimizdə maliyyə intizamının güclənməli olduğu bir vaxtda, əksinə maliyyə pozuntularının, daha doğrusu, intizamsızlığının şahidi oluruq. Bunun səbəbinin izah edilməsini xahiş edirəm.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 20 fevral tarixli Fərmanı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" qəbul olunub. Məsələn, yaxşı olardı, hesabatda aydınlıq gətirilərdi ki, konkret olaraq dayanıqlı inkişaf sahəsində 2030-cu ilədək qarşıya qoyulmuş hədəflərə 2023-cü ildə nə qədər yaxınlaşmışıq? Hansı irəliləyişlər və nailiyyətlər olub?

Suallar çoxdur. Məsələn, müəllimlərin biliklərinin diaqnostik qiymətləndirilməsi, həmçinin onların sertifikasiyalaşmadan keçdikdən sonra əməkhaqqındakı əsaslı dəyişiklik kölgə təhsilini – repetitor xidmətini azaldacaqmı? Yaxud belə əmək haqqları müəllimlərin tamamilə öz işlərinə konsentrasiya olunmasına nə dərəcədə imkan verir.

Elm və Təhsil Nazirliyi yaradılanda AMEA-nın institutları da bu quruma verildi. "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda tədqiqat potensialı yüksək olan 2 universitetin bazasında 2 tədqiqat universiteti yaradılacağı nəzərdə tutulub. Lakin bu təşəbbüsün reallaşması prosesi çox ləng gedir. Bu sahədə real potensialın, mümkün maneələrin qiymətləndirilməsinə ehtiyac var.

Qərb ölkələrində elmin maliyyələşməsində özəl sektorun töhfəsi 30-70 faiz təşkil edir. Azərbaycanda biznesin elmə investisiya qoyması üçün təşviq mexanizmləri barədə fikirləşmək, biznes assosiasiyaları ilə bu istiqamətdə müzakirələr aparmaq lazımdır.

Hörmətli Əli müəllim təhsil islahatlarından danışdı. Ölkəmizdə Qarabağ Universiteti və Türkiyə–Azərbaycan Universitetinin yaradılması böyük tarixi hadisədir. Bu universitetlərin qısa zaman kəsiyində tanınmış reytinqlərdə yer almaları üçün filantroplar və xeyriyyəçilərin dəstəyinə böyük ehtiyac vardır. Bu işlərdə bütün yükü dövlətin üzərinə qoymaq olmaz. Dünya təcrübəsi də mövcuddur və çağırışları vacib hesab edirəm.

Azərbaycan Respublikası dövlət büdcəsi xərclərinin funksional təsnifatının "Təhsil" bölməsi üzrə 2023–2026-cı illər üçün Sektor Strateji planında güclü və zəif tərəflərdən iki göstəricinin adını çəkəcəm. Güclü tərəf "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın olması. Strategiyanın əsas müddəalarının yerinə yetirilməməsi də xüsusi narahatlıq yaradır. Bunun izahına ehtiyac vardır.

Zəif tərəflər sırasında isə təhsil müəssisələrinin muxtariyyətinin az olmasının göstərilməsini misal çəkirəm.

Sualım belədir. Nazirlər Kabinetinin təhsil müəssisələrinin muxtariyyətinin artırılmasında gələcək planları varmı?

**Fəzail Ağamalı.** *(çıxışına əlavə).* Hesabat ili milli dövlətçilik tariximizdə ən önəmli illərdən biri olmuşdur. Ötən il milli dövlətçiliyimizin banisi, dünyanın nadir tarixi şəxsiyyətlərindən olan Ulu Öndərimizin 100 illiyini böyük təntənə ilə qeyd etdik. Milli dövlətçiliyimizin güclənməsinə müstəsna töhfələr verən 200 illik erməni işğalına son qoyulmasında əvəzsiz rol oynayan möhtərəm cənab Prezident İlham Əliyevin prezidentlik fəaliyyətinin 20 illiyini böyük məmnuniyyətlə qarşıladıq. Eyni zamanda, 2023-cü ilin sentyabrında ölkə Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin təkrarolunmaz sərkərdəlik məharəti ilə həyata keçirilən və nadir xarakter daşıyan 24

saatlıq antiterror əməliyyatı ilə Xankəndi və onun ətrafında illər uzunu məskunlaşan və xalqımıza qarşı zaman-zaman vəhşiliklər törədən separatçı-xunta rejimi məhv edildi, ərazi bütövlüyümüz və suverenliyimiz tamamlandı.

2020-ci il Vətən müharibəsində olduğu kimi, 2023-cü il antiterror əməliyyatında qazandığımız zəfərdə də hökumətin xidmətləri danılmazdır. Hökumətimiz ciddi sınaqdan uğurla çıxmağı bacardı.

2023-cü ildə dünyada hökm sürən geosiyasi və geoiqtisadi kataklizimlərin doğurduğu gərginlik və risklərin davam etməsinə baxmayaraq, Azərbaycanda iqtisadi artım və iqtisadiyyatın şaxələnməsi, xüsusi olaraq maliyyə sabitliyinin təmin olunması ənənəsi və işğaldan azad olunan torpaqlarımızda bərpa və quruculuq işləri davam etmiş, soydaşlarımızın dədə-baba yurdlarına qayıdışı intensiv xarakter almışdır.

Dövlətimizin istisnasız olaraq bütün strukturları böyük fədakarlıq göstərərək, Qarabağ və Şərqi Zəngəzurda təhlükəsizliyin təmin olunması, bərpa və quruculuq sahəsində cənab Prezident İlham Əliyevin qarşıya qoyduğu vəzifələrin həyata keçirilməsində yüksək peşəkarlıq nümayiş etdirmişlər.

Hesabat ilində respublikamızın nəzərdə tutulan sosial-iqtisadi inkişafının bütün göstəriciləri yerinə yetirilmiş, növbəti illər üçün möhkəm təməl yaradılmışdır. Əhalinin sosial müdafiə və sosial təminat, şəhid ailələrinə və müharibə iştirakçılarına dövlət dəstəyi siyasətinə xüsusi diqqət yetirilmişdir.

Ölkəmizdə sahibkarlığın inkişafı və iqtisadi yüksəlişdə onun rolunun artırılması, biznes və investisiya mühitinin yaxşılaşdırılması, özəl sektorun dəstəklənməsi

istiqamətində dövlət siyasəti hökumət tərəfindən uğurla həyata keçirilmişdir.

Kiçik və orta sahibkarlara güzəştli maliyyə dəstəyinin daha da genişləndirilməsi çağırışların məntiqinə uyğun olardı.

Əvvəlki illərdə olduğu kimi, 2023-cü ildə də hörmətli spiker Sabibə xanım Qafarovanın təşəbbüsü və müvafiq komitələrin moderatorluğu ilə, cəmiyyətimizin ən aktual məsələləri ilə bağlı millət vəkilləri, ayrı-ayrı dövlət qurumları və vətəndaş cəmiyyətinin nümayəndələrinin iştirakı ilə dinləmələr keçirildi. Bu format olduqca səmərəli nəticələr verir və problemlərin həllinə müsbət təsir göstərir.

Müstəqillik illərində Abşeron və Sabunçu rayonlarının çoxsaylı yaşayış məntəqələrinin ətrafında vətəndaşlarımızın məskunlaşması prosesi getmiş, kənd təsərrüfatı təyinatlı torpaqlarda çoxsaylı fərdi yaşayış evi tikilmişdir. Onların təyinatının dəyişdirilməsi qaçınılmaz zərurətə çevrilmişdir. Təyinatın dəyişdirilməsi həm büdcəyə külli miqdarda vəsaitin daxil olmasına imkan yaradar, həm də minlərcə ailəyə sevinc bəxş edərdi.

Ölkəmizə idxal olunan qida və dərman məhsullarının bahalaşmasının törətdiyi çətinliklərin aradan qaldırılması üçün onlara tətbiq edilən əlavə dəyər vergisinin məhdudlaşdırılması aztəminatlı kateqoriyadan olan vətəndaşlarımıza əhəmiyyətli sosial dəstək olardı.

Bəlli olduğu kimi, Bakı şəhərinin ən ciddi problemi avtomobillərin yaratdığı tıxaclardır. Sovet zamanında və keçən əsrin 90-cı illərində yolların genişliyi nəzərə alınmadan, onların ətrafında çoxsaylı tikintilərin aparılması, son illərdə yol çəkilişində buraxılan səhvlər faktiki olaraq həmin yolların genişləndirilməsini mümkünsüz etmişdir.

Ən böyük tıxac özünü Bakı–Sumqayıt, Bakı–Lökbatan istiqamətlərində göstərir. Tıxaclar saatlarla davam edir. Məncə, həmin və onlara oxşar yollarda yüngül konstruksiya ilə 2-3 mərtəbəli yolların, Sumqayıt şəhərinə və Lökbatan qəsəbəsinə yerüstü metro xətlərinin çəkilməsi problemin həllinə müsbət təsir göstərirdi.

Vergi Məcəlləsinin qəbul edilməsindən keçən zaman kəsiyində ölkədə aparılan iqtisadi islahatlar ciddi nəticələr vermiş və bu baxımdan məcəllədə çoxsaylı əlavələr və dəyişikliklər aparılmışdır. Çoxsaylı və tez-tez aparılan dəyişikliklər və əlavələr həm vergi ödəyicilərində, həm də vergi strukturlarında çətinliklər yaradır. Ona görə də Vergi Məcəlləsini təkmilləşdirmək və gələcək prespektivləri də nəzərə almaqla, yeni Vergi Məcəlləsinin hazırlanıb qəbul edilməsinə ciddi ehtiyac duyulur.

Sonda hamınızı Novruz bayramı münasibəti ilə təbrik edirəm.

**İlham Məmmədov.** İlk növbədə fürsətdən istifadə edərək, cənab Baş nazir Əli Əsədov başda olmaqla hökumətin yeni təyin olunmuş üzvlərinin hər birini ürəkdən təbrik edirəm. Keçən dövr ərzində Nazirlər Kabinetinin fəaliyyətinin etimada layiq olduğunu qeyd edərək bundan sonrakı fəaliyyətində də uğurlar arzulayıram. Eyni zamanda, başda cənab Baş nazir Əli müəllim olmaqla hökumət üzvlərini Novruz bayramı münasibəti ilə təbrik edirəm.

2023-cü il zəfər ili kimi xalqımızın şərəf tarixinə əbədi olaraq qızıl xətlə yazılıb. Məhz bu ildə qədirbilən Azərbaycan xalqı Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyini il boyunca təntənəli şəkildə qeyd edib. Ötən il həm də cənab Prezident İlham Əliyevin hakimiyyətinin 20 illiyinin hesabat ili oldu. Bu müddət ərzində təkcə

xalqımız deyil, beynəlxalq aləm Azərbaycan dövlətçiliyinin qısa zaman kəsiyində tarixdə görünməmiş bir inkişaf yolu keçdiyinin şahidi oldu. Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dövlətçiliyi son iki yüz ildən artıq müddətdə görmədiyi möhtəşəm tarixi qələbələrə imza atdı. Azərbaycan xalqı son iki əsrdən artıq müddətdə yaşamadığı tarixi bir zəfəri yaşadı. Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa etdi və ilk dəfə Azərbaycanın bütün ərazilərində Prezident seçkiləri keçirildi. Cənab İlham Əliyevin liderliyi altında Azərbaycan xalqı dünyanın qalib xalqı statusunu qazandı. Bir sözlə, son 20 ildə Azərbaycan cənab İlham Əliyevin rəhbərliyi altında davamlı olaraq inkişaf yolu keçib, qələbələrə və zəfərlərə imza atdı. Hədəflərə xidmət edən siyasət nəticəsində Azərbaycan güclü, qüdrətli və beynəlxalq aləmdə ciddi nüfuz sahibi, geosiyasi proseslərdə fəal rol oynayan ölkəyə çevrildi.

Biz bunu Nazirlər Kabinetinin 2023-cü ilin fəaliyyəti haqqında hesabatında görə bilərik. Bu hesabatı biz zəfər ilinin hesabatı da adlandıra bilərik. Bizə təqdim edilən hesabatda Azərbaycanın iqtisadi gücünü, qüdrətini görməmək mümkün deyil.

Hesabatda hökumətin 2030-cu ilədək 5 milli prioritetdən biri olan Böyük Qayıdışın I Dövlət Proqramı çərçivəsində 2023-cü ildə görülən işlər ən xırda detallarınadək dəqiq ardıcıllıqla elə izah olunur ki, insanın gözü qarşısında Qarabağın o əsrarəngiz gözəlliyi canlanır. Burada xüsusən də:

– əhalinin məskunlaşması sahəsində görülən işlər;
– sənaye və infrastruktur sahəsində görülən işlər;
– aqrar və ekoloji sahədə görülən işlər;
– tikinti, şəhərsalma və xidmət, sosial sahədə görülən

işləri qeyd etmək olar.

Təkcə Qarabağ və Şərqi Zəngəzurun yenidən bərpa olunması istiqamətində görülən işləri hökumətin uğurlu fəaliyyətinin indikatoru kimi dəyərləndirmək olar.

2023-cü ildə hökumətin uğurlu fəaliyyəti respublikamızın sosial-iqtisadi sferasının bütün sahələrində olduğu kimi, səhiyyə sahəsində də öz müsbət nəticələrini göstərib. Belə ki, 2023-cü ildə 21 tibb müəssisəsində təmir işləri aparılıb.

Möhtərəm Prezidentin siyasi iradəsi nəticəsində icbari tibbi sığorta sahəsində də uğurlara imza atılıb. Dəyəri yüksək olan tibbi xidmətlərə əhalinin əlçatanlığını təmin etmək məqsədi ilə icbari tibbi sığorta zərfinə 775 adda yeni xidmətlər əlavə edilib. Bura böyrək, qara ciyər, sümük iliyinin transplantasiyası, beynin xoş xassəli şişləri, ürək qapaqlarının dəyişdirilməsi, bud çanaq endoprotezləri, vətər əzələ köçürmələri və sair kimi bahalı xidmətlər əlavə edilib. Bu da dövlətin öz vətəndaşına diqqət və qayğısının ən bariz nümunəsidir.

Cənab Baş nazir, fürsətdən istifadə edib, təmsil etdiyim Yevlax rayonunun da üzləşdiyi problemlərini dilə gətirməklə onların həlli istiqamətində hökumətin müvafiq tədbirlər görməsini seçicilərim adından xahiş edirəm. Düzdür, dövlət başçısının diqqəti və qayğısı nəticəsində digər bölgələrdə olduğu kimi, Yevlaxda da inkişaf, abadlıq-quruculuq işləri gedir. Lakin bununla belə, müəyyən problemlər də mövcuddur. Bunlardan biri və sakinləri ən ciddi narahat edən Yevlax şəhərini iki yerə bölən Bakı–Tbilisi dəmir yolunun 251-ci kilometrində 1987-ci ildə tikilmiş dəmir yolu keçidinin dəmir yolunun rekonstruksiyası zamanı sökülərək ləğv edilməsidir. Nəticədə Yevlax şəhərinin Aeroport, Şəkitayı, Çənlibel

yaşayış massivlərində yaşayan səkkiz mindən artıq insanın şəhər mərkəzi ilə əlaqəsində ciddi problemlər yaranıb. Adıçəkilən massivlərdə yaşayan insanlar dəmiryolunun şəhər istiqamətinə keçməsi üçün 8 kilometr məsafəlik bir yol qət etmək məcburiyyəti qarşısında qalırlar. Bu da insanların əlavə vaxt itkisinə səbəb olmaqla yanaşı, dəmir yolunda keçid olmadığından, həmin yolu keçmək istəyənlərin həyatına ciddi təhlükə yaradır. Bu da sakinlərin haqlı narazılığına səbəb olur. Bu problemi dəmir yolunun həmin ərazidən keçən hissəsində yeraltı avtomobil tuneli və piyada keçidi salmaqla həll etmək olar. Hökumətdən bu məsələnin həllini diqqətdə saxlamağı xahiş edirik. Ümid edirik ki, hökumət tez bir zamanda bu məsələni həll etməklə 8 mindən artıq insanın rahat, təhlükəsiz və vaxt itkisinə yol vermədən gediş-gəlişini təmin edəcək.

Hesab edirəm ki, bu elə də bahalı bir layihə deyil. Lakin bununla təkcə 8 mindən artıq Yevlax sakininin problemini həll edib sevinc bəxş etmirik, həm də o yoldan istifadə edəcək minlərcə insanın sevincinə səbəb olarıq. Əminəm ki, hökumət bu məsələni tez bir zamanda həll etmək üçün konkret tədbirlər görəcək.

Son olaraq, bir daha qeyd edirəm ki, Nazirlər Kabinetinin hesabatı ölkəmizin inkişafını, əhalinin sosial rifahının ildən-ilə yaxşılaşdığını göstərir və bundan sonrakı fəaliyyəti də ölkəmizin daha da qüdrətlənməsi ilə yanaşı, vətəndaşının tez bir zamanda rifah halında yaşayan ölkəyə çevrilməsinə xidmət edəcək. Hesabatı müsbət qiymətləndirir və həmkarlarımı sənədi dəstəkləməyə çağırıram.

**İltizam Yusifov.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqındakı hesabatı

məqbul hesab edirəm və əvvəlcədən deyim ki, lehinə səs verəcəm. Əsas məqam ondan ibarətdir ki, 2023-cü ildə ölkə tarixində olduqca önəmli, tarixi hadisələr baş vermiş, ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa olunmuş, Azərbaycan adlı bir məmləkətin tarixində şərəfli bir səhifə yazılmışdır. Ötən bir il ərzində ölkəmizin inkişafı, azad olunmuş ərazilərin bərpası, Böyük Qayıdış proqramına uyğun olaraq, soydaşlarımızın öz ata-baba yurdlarına qayıtması prosesinin planlı şəkildə həyata keçirilməsi, iqtisadiyyatın bütün sahələrinin qəbul olunmuş proqramlara uyğun inkişafı davam etdirilmişdir.

Şirvan şəhəri ilə bağlı hökumətin nəzərinə çatdırılası əsas məqamlar:

1. Şirvan şəhərinin mərkəzi idman meydançasının tikintisinin tamamlanması vacibdir. Tamamlanmamış tikili hazırda SOCAR-ın mülkiyyətindədir. Mövcud şəraitdə SOCAR-ın bu işi tamamlaması məqbul hesab edilmədiyi təqdirdə, yarımçıq tikilinin Şirvan şəhər İcra Hakimiyyəti və ya digər aidiyyəti qurumların balansına verilməklə növbəti illərdə dövlət proqramları çərçivəsində maliyyə vəsaiti ayıraraq məsələnin həlli məqsədəuyğun görünür.

2. Ekoloji fəlakət yaşayan Hacıqabul gölünün qismən, mərhələli bərpasına diqqət ayrılması ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşmasına, biomüxtəlifliyin artırılmasına önəmli töhfə vermiş olardı.

3. Şirvanın ictimai nəqliyyatının yenidən qurulması. Kiçik tutumlu, istismar müddətini başa vurmuş, heç bir standartlara, müasir tələblərə cavab verməyən avtobusların iritutumlu, muasir avtobuslarla əvəzləməklə ictimai nəqliyyatın təşkil edilməsi.

4. Elektrik qatarı. İlk dönəmdə sürət qatarının Şirvan şəhərinə qədər hərəkətinin təşkil edilməsi, sonradan

Sabirabad, Saatlı, İmişli və Şərqi Zəngəzur istiqamətində genişləndirilməsi məqsədəuyğun olardı. Bu, regionlardan Bakıya və əks istiqamətdə gündəlik təhlükəsiz sərnişindaşımanı təmin edə, o cümlədən Bakıda tıxacların, atmosfer havasının çirklənməsinin qarşısının alınmasına xidmət edə bilər.

5. Kommunal sahədə xüsusi texnikanın alınmasına çox böyük ehtiyac vardır. Şəhər böyüyür və hazırda xüsusi texnikaların çatışmaması məsələsi özünü daha qabarıq şəkildə göstərir.

6. Şirvanın sənaye şəhəri olmasını, şəhərdə heç bir ali təhsil məktəbinin olmamasını və sosial sifarişi nəzərə alaraq, texniki profilli, müasir texniki bazaya malik peşə təhsili mərkəzinin tikilməsinə ehtiyac vardır.

7. Şirvan şəhərində iş yerlərinin yaradılması, əhalinin məşğulluğunun təmin edilməsi məqsədi ilə "Şirvan Sənaye məhəlləsi"nin yaradılmasına böyük ehtiyac vardır.

8. Sirvan şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması layihəsi işlərinin davam etdirilməsi və tamamlanması vacibdir.

9. Şirvan şəhərində Baş Şirvan Kanalı üzərində piyada körpüsünün tikilməsinə ehtiyac vardır. Hazırda insanların istifadə etdiyi körpü tam qəzalı vəziyyətdə, istifadə üçün yararsız və təhlükəlidir. Qəzalı körpü heç bir qurumun balansında olmadığı üçün bu məsələnin həllinə ehtiyac vardır.

**Könül Nurullayeva**. Nazirlər Kabinetinin 2023-cü ilə dair hesabatı məzmun və mahiyyət etibarı ilə kifayət qədər əhatəli və uğurludur. Hökumət 2023-cü ilə əsasən bir neçə istiqamətdə – ölkəmizdə iqtisadi fəallığın təmin edilməsi, işğaldan azad olunan ərazilərin bərpası, ərzaq təhlükəsizliyinin təmin edilməsi, sosial müdafiənin gücləndiril-

məsi, maliyyə sabitliyinin qorunub saxlanılması ilə bağlı bir sıra ciddi tədbirlər görmüş, hesabatdan da göründüyü kimi, bu istiqamətlərdə xeyli uğurlara nail olunmuşdur.

Ötən il səhiyyə, təhsil, mədəniyyət, turizm sahəsində əldə edilən uğurlar da qeyd olunmalıdır. İcbari tibbi sığortanın daha geniş və uğurlu şəkildə tətbiq olunmasını, səhiyyə sahəsində ardıcıl islahatların aparılmasını qeyd etmək lazımdır.

Hesabatda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin gördüyü işlər barədə də geniş məlumat yer alıb. Düşünürəm ki, nazirliyin və ona tabe olan qurumların sosial müavinətlər, təqaüdlər və gördüyü sair işlər qənaətbəxşdir. Ancaq millət vəkili olaraq, əhali ilə tez-tez təmasda olan şəxs kimi, hesab edirəm ki, görüləsi işlər hələ də var.

Elm və təhsil sahəsində idarəetmənin və təhsil qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində tədbirlər həyata keçirilmişdir.

Dövlət tərəfindən şəhid ailə üzvlərinə, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçulara və əlilliyi müəyyən edilmiş şəxslərə vahid məkandan xidmətlərin göstərilməsi ilə əlaqədar Vahid əlaqələndirmə mərkəzlərinin yaradılması, qeyd olunan şəxslərə təxirəsalınmaz və operativ şəkildə xidmətlərin icrasını təmin etdiyinə görə yüksək dəyərləndirilməlidir. Bütün bunlarla yanaşı, sosial müdafiəyə daha çox vəsaitin ayrılması əhalinin sosial rifahının daha da yüksəldilməsinə və mövcud problemlərin qısa zamanda aradan qaldırılmasına təkan vermiş olardı.

Hər il olduğu kimi, 2023-cü ildə də dövlət tərəfindən gənclərə yüksək diqqət və qayğı göstərilmiş, onların inkişafına böyük dəstək verilmişdir. Gənclər arasında

hərbi vətənpərvərlik tərbiyəsi işinin gücləndirilməsi məqsədi ilə hərbi idman oyunlarının, yarışlarının keçirilməsi də çox müsbət qiymətləndirilməlidir. Ancaq ölkəmizin müharibə şəraitində yaşadığını nəzərə alaraq, gənclərin hərbi qulluğa marağının artırılması və hərbi hazırlığının təmin olunması məqsədi ilə hərbi hazırlıq kurslarının yaradılması, bununla bağlı təlimlərin keçirilməsi də məqsədəmüvafiq olardı.

Mən, həmçinin fürsətdən istifadə edərək, Nizami rayonu üzrə həllini vacib hesab etdiyim sosial-iqtisadi məsələlərə də toxunmaq istəyirəm.

Cənab Baş nazir, Keşlə qəsəbəsində yaşayan sakinləri narahat edən, uzun illər müxtəlif səbəblərdən həll edilməmiş əsas problemlərdən biri də, Keşlə qəsəbəsindən keçən Babək prospekti ilə H.Əliyev prospektini birləşdirən M.Ə.Sabir küçəsinin yenidən qurulması və genişləndirilməsidir. Aidiyyəti dövlət qurumlarına etdiyim müraciətlər araşdırılaraq, qeyd olunan küçənin yenidən qurulması məqsədəmüvafiq hesab edilmiş və bununla bağlı İqtisadiyyat Nazirliyinə rəsmi cavablar verilmişdir. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi də Keşlə qəsəbəsi M.Ə.Sabir küçəsinin yenidən qurulması və genişləndirilməsi işləri üçün mövcud problemin həlli məsələsini Bakı Nəqliyyat Agentliyi və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təklifləri əsas götürülməklə məqsədəmüvafiq hesab etmişdir.

Cənab Baş nazir, yuxarıda qeyd olunanları nəzərə alaraq, 2024-cü ilin dövlət investisiya xərcləri çərçivəsində Babək prospekti ilə H.Əliyev prospektini birləşdirən M.Ə.Sabir küçəsinin yenidən qurulması, eyni zamanda, vətəndaşların kollektiv müraciətini nəzərə alaraq, vaxtı ilə mövcud olmuş Sənaye Tikinti Nazirliyinin 4 saylı Tikinti

Trestinə məxsus, E.Süleymanov küçəsi 137 və 139 saylı binaların tamamlama işlərinin başa çatdırılması, həmçinin Nizami rayonunun Keşlə qəsəbəsi, 250-dən çox ailənin yaşadığı Pəhlivan Fərzəliyev, Mətləb Ağayev küçələrində kanalizasiya xəttinin çəkilməsi üçün aidiyyəti qurumlara müvafiq maliyyə vəsaitinin ayrılmasına köməklik göstərməyinizi Sizdən xahiş edirəm.

Hörmətli Mikayıl müəllim, Nizami rayonunda yerləşən binalarda istilik sisteminin bərpa olunması üçün "Azəristiliktəchizat" ASC-yə son illlər ərzində müxtəlif vaxtlarda dəfələrcə müraciətlər edilmiş, hər dəfəsində maliyə təminatının olmaması səbəbindən təmir-bərpa işlərinin növbəti investisiya proqramında nəzərə alınacağı bildirilmişdir. Lakin növbəti investisiya proqramı zamanı barədə heç bir məlumat verilməmişdir. Xatırladım ki, Nizami rayonunda yerləşən çoxmərtəbəli binalarda mövcud olan istilik sistemlərinin bərpa edilməsi ilə bağlı ətraflı müraciətim ötən ilin oktyabr ayında Sizə göndərilmişdir.

Hörmətli Mikayıl müəllim**,** qeyd etdiyim məsələnin növbəti investisiya proqramına salınmasını nəzərə almağınızı Sizdən xahiş edirəm.

Ötən müddət ərzində vətəndaş müraciətləri ilə əlaqədar etdiyim müraciətlərə operativ qaydada reaksiya verərək, qaldırılan problemlərin həllində göstərdiyiniz köməyə görə Baş nazir başda olmaqla bütün hökumət üzvlərinə bir daha təşəkkürümü bildirirəm.

Müzakirələrdə çıxış edən deputat həmkarlarım kimi, mən də Nazirlər Kabinetinin 2023-cü ildəki fəaliyyəti haqqında hesabatı yüksək qiymətləndirirəm. Hesabata səs verəcəyəm və həmkarlarımı da bu hesabata səs verməyə çağırıram.

**Malik Həsənov.** Fevral ayının 7-də xalqımız möhtərəm Prezidentimizə, müzəffər Ali Baş Komandanımıza etimad göstərdikdən sonra yenidən formalaşmış Nazirlər Kabinetində hökumət üzvlərinin mütləq əksəriyyətinə dövlət başçısı tərəfindən yenidən etimad göstərilməsi təbiidir, çünki bu, qalib Prezidentimizin qalib komandasıdır.

Bu gün bizə təqdim olunan hesabatda da hökumətin bütün sahələr üzrə səmərəli fəaliyyət göstərdiyini, düzgün büdcə siyasəti yürütdüyünü görürük. Məhz bu düzgün hədəflənmiş siyasətin nəticəsidir ki, ölkəmizin iqtisadi qüdrəti günbəgün artır, bu öz əksini büdcəmizin həm mədaxil, həm də məxaric hissəsində əks etdirir.

Hər ötən büdcə ili dövlət büdcəmizin gəlir və xərcləri əvvəlki illərlə müqayisədə rekord həddə qədər artır. Onu da qeyd edərdim ki, hesabat geniş, əhatəli hazırlanmışdır və hörmətli Əli müəllim də hesabatı əhatəli şəkildə təqdim etdi.

Bu gün dövlətimizin qarşısında duran başlıca hədəf işğaldan azad olunmuş vətən torpaqlarında quruculuq və abadlıq işlərinin qısa zamanda başa çatdırılması, soydaşlarımızın öz yurdlarına layiqli qayıdışına nail olmaqdır.

Bu gün deyə bilərik ki, təxminən beş minə yaxın soydaşımız öz yurdlarına dönmüşlər. Təbiidir ki, bütün bu işlər əlavə və irihəcmli büdcə vəsaiti tələb edir. Hesab edirəm ki, hər şey belə uğurla davam etsə, 2026-cı ildən başlayaraq işğal edilmiş ərazilərdən büdcəyə daxilolmalar artacaqdır. Bu, həm aqrar, həm turizm, həm də daha çox "yaşıl" və bərpa olunan enerji resurslarından istifadə ilə bağlı gəlirlər olacaqdır.

Cənab Prezidentimizin də qeyd etdiyi kimi, ən böyük hədəflərimizdən biri də bərpa olunan və "yaşıl enerji" resurslarından səmərəli istifadə edib, daxili tələbatın

ödənilməsinə yönəltmək, son nəticədə isə ölkəmizin karbohidrogen ixracı həcmlərini artırmaqdır. Bu da büdcə gəlirlərini artırmaqla yanaşı, ölkəmizin yüklənən resurslardan asılılığını aradan qaldırmaqla, müasir dünyanın ən böyük iqtisadi asılılıqlarından biri olan enerji təhlükəsizliyini təmin etməyə imkan verəcəkdir.

Hesabatdan da göründüyü kimi, dövr ərzində büdcədə artırmalar içərisində müdafiə xərcləri üstün mövqedə olmuşdur. Çox diqqətəlayiq haldır ki, hər il müdafiə xərclərinin içərisində silah idxalı ilə yanaşı, müdafiə sənayesinin inkişafına yönəldilmiş xərclər artmaqdadır və ölkəmiz silah ixrac edən ölkələr sırasında mövqeyini hər ötən il daha da yaxşılaşdırır. Təbiidir ki, müdafiə sənayesinin inkişafında qardaş ölkə olan Türkiyə Cumhuriyyətinin verdiyi dəstək olduqca önəmlidir və bu dəstəyi tarixi və qardaşlıq köməyi kimi dəyərləndiririk.

Büdcə ayırmaları içərisində müdafiə xərclərindən sonra ikinci yeri təhsilə ayrılan xərclər tutur ki, bu da təbiidir. Ona görə ki, yüksək təhsilli və yalnız vətənsevər ruhlu gənclərin hesabına ölkəmizin qüdrətini yüksəldəcəyik. Məhz müstəqillik dövründə yetişmiş yüksək intellektli və ən əsası isə vətənsevər ruhda tərbiyə edilmiş gənclərimizin hesabına vətən torpaqlarının bütövlüyünü təmin etməyə nail olduq.

Təhsil xərcləri arasında infrastruktur layihələrinə ayrılmış vəsait üstünlük təşkil etmişdir. Bununla belə, ölkəmizdə mövcud olan dörd mindən bir qədər çox məktəbdə yalnız mindən bir qədər çox məktəb binası inşa edilmiş və əsaslı təmir edilmişdir. Ölkəmizdə, xüsusən də hələ də normal tədrisin təşkilinə imkan verməyən, bəzi hallarda hətta insan sağlamlığına təhlükə yaradan məktəb binaları vardır. Belə məktəb binaları təmsil etdiyim

Cəlilabad rayonunda da mövcuddur. Əminəm ki, vəziyyəti daha ağır olan məktəblər seçilərək ilk öncə onların yerində yenilərinin inşası və ya əsaslı təmiri həyata keçirilsin.

Təhsillə əlaqədar diqqət etdiyim digər məqam ali təhsillə bağlıdır. Bu gün ölkəmizdə fəaliyyət göstərən bütün ali təhsil müəssisələri publik hüquqi şəxsə çevrilmişdir və eyni zamanda, özünümaliyələşdirmə prinsipi ilə fəaliyyət göstərirlər. Dövlət tərəfindən hər hansı bir infrastruktur və əməyin ödənilməsinə vəsait ayrılmır. Bu isə ali məktəb müəllimlərinin, xüsusən də bölgələrimizdə fəaliyyət göstərən ali təhsil müəssisələri və filialların əməkdaşlarının əməkhaqlarının aşağı olmasına səbəb olur. Məsələn, Cəlilabad rayonunda Pedaqoji Universitetin filialı fəaliyyət göstərir. Kifayət qədər pedaqoji kadr hazırlığını həyata keçirməyə qadir olan əməkdaşlar vardır, lakin əmək haqları olduqca aşağıdır. Təsəvvür edin ki, orta ümumtəhsil müəssisələrində fəaliyyət göstərən əməkdaşlar ali məktəblərdə fəaliyyət göstərən ali təhsilli kadrlardan yüksək maaş alır. Təklif edərdim ki, tələbə sayı və ya başqa meyarlar nəzərə alınaraq, dövlət büdcəsindən əməyin ödənilməsinə vəsaitin ayrılması məsələsinə baxılsın.

Ötən dövr ərzində sosial müdafiənin təşkili sahəsinə də ciddi həcmdə dövlət vəsaiti ayrılmışdır. Bu da ölkəmizdə həyata keçirilən sosial müdafiə siyasətinin bariz təzahürüdür. Bu gün ölkəmizdə reabilitasiya mərkəzləri şəbəkəsi kifayət qədər genişləndirilmişdir. Bununla belə, bəzi rayonlarımızda reabilitasiya mərkəzləri yoxdur və ya kiçik ölçülüdür, imkanları məhduddur. Vətən müharibəsindən sonrakı dövrdə sağlamlıq imkanları məhdud və reabilitasiyaya ehtiyacı olan vətəndaşlarımızın sayının artdığını nəzərə alaraq, yaxşı olar ki, hər bir rayonda bu

mərkəzlər yaradılsın.

Çıxışımda təmsil etdiyim rayonla bağlı bəzi məsələlərə toxunmaq istəyirəm. Bu məsələlər sırasında yuxarıda qeyd etdiyim kimi, bəzi məktəblərin inşası, qaz təchizatının yaxşılaşdırılması, elektrik təsərrüfatının yenilənməsi, səhiyyə ocaqlarının təmiri, şəhərarası və kəndarası yolların yenilənməsi, içməli və təsərrüfat suyunun təchizini qeyd etmək istərdim. Hörmətli hökumət üzvlərindən xahiş etmək istərdim ki, təmsil etdiyim rayon üzrə öz sahələrinə uyğun şəkildə onların həllinə yardımçı olsunlar.

Təqdim olunan hesabat və məruzə kifayət qədər geniş və əhatəlidir. Hesabatın qəbulunun lehinə səs verəcəyəm və hökumət üzvlərinə bundan sonra da peşəkar fəaliyyətlərində və şəxsi həyatlarında uğurlar arzulayıram.

**Naqif Həmzəyev.** *(çıxışına əlavə).* 2023-cü il xalqımızın, dövlətimizin tarixində çox mötəbər hadisələrlə yadda qaldı: ərazi bütövlüyümüzün tam bərpası, hər qarış torpağımızda suverenliyimizin və dövlətçilik iradəmizin bərpası, həyata keçirməkdə olduğumuz layihələrin miqyası, bizimlə əməkdaşlıq meyillərini dilə gətirən tərəflərin təmsil etdikləri geosiyasi məkanın rolu və əhəmiyyəti Azərbaycan dövlətinin siyasi və geoiqtisadi gücünün mühüm göstəricilərindən yalnız bir neçəsidir.

Nəzərə almaq lazımdır ki, dünya siyasəti hazırda özünün ən gərgin dövrlərindən birini yaşamaqdadır və faktiki vəziyyət dünya iqtisadiyyatına,

eləcə də milli iqtisadiyyatlara bu və ya digər dərəcədə öz təsirini göstərir. Bu kontekstdə 2023-cü ildə dövlət siyasəti nəticəsində milli iqtisadiyyatın bu kimi təsirlərdən mühafizəsi, inflyasiya səviyyəsinin nəzarətdə saxlanması və hədəf göstərici üzrə antiinflyasiya addımları nəticəsində inflyasiyanın bütün komponentləri üzrə artım

sürətində azalma meyli müşahidə edilmişdir.

ÜDM istehsalında sənayenin payına düşən həcm də qeyri-neft-qaz sektorunda məhsul istehsalı üzrə 8 faizlik artımın olması bir daha sübut edir ki, Azərbaycan hər nə qədər karbohidrogen ehtiyatlarla zəngin ölkə olsa da, alternativ enerji mənbələri, xüsusi ilə də "yaşıl enerji"nin payının artımında maraqlıdır.

Azərbaycan Respublikasının yeni dövr hədəflərinin bir qismi, təbii ki, Böyük Qayıdış ilə bağlıdır. Bu çərçivədə, işğaldan azad edilmiş torpaqlarımızda işğal izlərinin təmizlənməsi, azad edilən ərazilərin ölkə iqtisadiyyatına inteqrasiyası, mülki həyatın bərpası cənab Prezident üçün prioritet mövzulardan olmuş və həm cari il, həm də növbəti illər üzrə mərhələli şəkildə mülki, sosial həyatın bərpası üçün dövlət siyasəti həyata keçirilməkdədir.

Həmçinin iqtisadi siyasətin sosial siyasətlə uzlaşdırılması, sosial yönümlü proqramların genişləndirilməsi, biznes və investisiya mühitinin yaxşılaşdırılması, sahibkarların hüquq və mənafelərinin dəstəklənməsi 2023-cü ildə də dövlətin diqqət mərkəzində olmuş, mövcud problemlərin aradan qaldırılması istiqamətində əsaslı tədbirlər həyata keçirilmişdir. Təkcə 2023-cü ildə sahibkarlıq mühitinin yaxşılaşdırılmasına istiqamətlənmiş 80-dən artıq normativ hüquqi aktın qəbul edilməsi sadalanan amillər üçün təsdiqləyici faktdır.

Dövlətin daim diqqət mərkəzində olan prioritet sahələrdən biri olaraq, ordu quruculuğu istiqamətində də daimi olaraq tədbirlər görülür, Azərbaycan Ordusunun dövrün ən müasir silah texnologiyaları ilə təchiz edilməsi, fiziki hazırlıq və döyüş qabiliyyətinin artırılması, mənəvi-psixoloji hazırlığı daim diqqət mərkəzində saxlanılır.

2023-cü ildə baş vermiş hadisələr, xüsusi ilə də 24

saatlıq antiterror əməliyyatı yenidən lider–xalq–ordu birliyini bütün dünyaya nümayiş etdirdi. Ölkəmiz bu gün qlobal geostrateji əhəmiyyəti olan nəqliyyat yolları üzərində yerləşməklə olduqca əlverişli mövqeyə sahibdir və Azərbaycanın cənab Prezident İlham Əliyevin rəhbərliyində etibarlı tərəfdaş mövqeyi onun əhəmiyyətini beynəlxalq subyektlər üçün daha da önəmli edir.

**Nəsib Məhəməliyev.** İlk növbədə qarşıdan gələn Novruz bayramı münasibəti ilə sizi və bütövlükdə, Azərbaycan xalqını ürəkdən təbrik edirəm, xoşbəxtlik arzulayıram.

Biz burada 2023-cü ildə respublikamızda görülmüş işlərlə bağlı hörmətli Baş nazirin geniş və əhatəli məruzəsini dinlədik və hökumətin Milli Məclisə təqdim etdiyi hesabatla tanış olduq. Hesab edirəm ki, əvvəlki illərdə olduğu kimi, 2023-cü ildə də hökumət öz qarşısında duran məsələlərin öhdəsindən gəlib, üzərinə düşən vəzifələri layqincə yerinə yetirib.

Artıq tarixə çevrilmiş 2023-cü il ölkəmiz üçün çox əlamətdar və uğurlu il olmuşdur. Ən əsası isə sentyabr ayında həyata keçirilən bir günlük antiterror əməliyyatı nəticəsində ərazi bütövlüyümüz və suverenliyimiz tam təmin edilmişdir.

Dövlət başçısının həyata keçirdiyi sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq, 2023-cü ildə ölkə iqtisadiyyatında müsbət meyillər davam etmiş, makroiqtisadi sabitlik qorunmuş, iqtisadi artım təmin edilmişdir.

Dövlət büdcəmiz müstəqillik dövünün ən yüksək nəticələrini göstərmiş, rekord həddə ÜDM göstəricilərinə nail olunmuşdur.

İqtisadi siyasətin sosial siyasətlə uzlaşdırılması Prezident İlham Əliyevin hökümət qarşısında müəyyən

etdiyi əsas vəzifələrdən biridir. Təsadüfi deyil ki, əvvəlki illərdə olduğu kimi, 2023-cü ildə də dövlət büdcəsinin sosial yönümlülüyü qorunub saxlanmış, əhalinin sosial təminatının və rifahının yaxşılaşdırılmasına yönəlmiş tədbirlər görülmüşdür. Bütün bunlar təbii olaraq əhali tərəfindən razılıq hissi ilə qarşılanır.

Hesabat ilində başlanan hərbi münaqişələr və geosiyasi gərginliklər dünya iqtisadiyyatında davam edən qeyri-müəyyənliklər, kəskin bahalaşma qlobal inflasiyanın yüksək səviyyəyə qalxmasını şərtləndirir.

2023-cü ildə ölkədə 193 milyard manatlıq ÜDM istehsal edilmişdir. Valyuta ehtiyatları 2023-cü ildə 17,1 faiz artaraq 68,5 milyard ABŞ dollarına çatmışdır.

Xarici ticarət dövriyyəsi 44868,5 milyon dollar, o cümlədən ixracın dəyəri 27583,2 milyon dollar, idxalın dəyəri 17285,3 milyon dollar təşkil etmiş, nəticədə 10297,9 milyon ABŞ dollarlıq müsbət ticarət saldosu yaranmışdır.

2023-cü ildə Azərbaycan iqtisadiyyatında yüksək artım dinamikasını müsbət məqamlar kimi qeyd etmək lazımdır. Hesabat ilində tarixi Azərbaycan torpaqlarının işğaldan azad edilməsi ilə milli iqtisadiyyatın yeni sosial-iqtisadi inkişaf dövrünün təməli qoyulmuşdur. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunda genişmiqyaslı quruculuq işlərinə, həmin ərazilərin yenidənqurulması və bərpasına başlanmışdır.

Hazırda işğalıdan azad olunmuş ərazilərə Böyük Qayıdışla əlaqədar, ölkəmiz tamamilə yeni bir dövrə qədəm qoymuşdur. Bu mərhələdə əsas strateji vəzifə həmin ərazilərin ölkə iqtisadiyyatına sürətlə reinteq-rasiyasını təmin etməkdir. Bu məqsədlə cənab Prezidentin tapşırıqlarına uyğun olaraq, işğaldan azad olunan

ərazilərdə bərpa və yenidənqurma işlərinin aparılması, o cümlədən sosial-iqtisadi, enerji, kommunal, nəqliyyat infrastukturunun yaradılması, rasional məskunlaşma siyasətinin həyata keçirilməsi uğurla davam etdirilir, ölkəmizin müdafiə potensialının və ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsi, onun müasir hərbi texnika və silah sursat təchizatı üçün maliyyə təminatı yaradılaraq konkret tədbirlər görülür.

Hörməli həmkarlar, mən bugünkü şəraitdən istifadə edərək, təmsil etdiyim Balakən rayonunun seçiciləri ilə görüşlər zamanı qaldırılmış məsələləri hökumətin nəzərinə çatdırmaq istərdim.

Regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul olunmuş dörd dövlət proqramı nəticəsində Balakən rayonunda çoxsaylı infrastruktur layihələri həyata keçirilmiş, təhsil, səhiyyə və mədəniyyət obyektləri tikilmiş, əhalinin qaza, elektrik enerjisinə olan tələbatı ödənilmiş, quruculuq, abadlıq işləri aparılmışdır. Bütün bunlara görə Balakən camaatı cənab Prezidentə dərin təşəkkürünü bildirir və görüşlərdə də dəfələrcə onun siyasətini dəstəklədiklərini vurğulayırlar.

"Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın bitməsinə rəğmən, bəzi təhsil müəssisələrinin, səhiyyə, idman və mədəniyyət obyektlərinin yenidən tikilməsi və əsaslı təmir edilməsi ilə bağlı bəzi bəndlər icra olunmamışdır.

- Balakən şəhərində kanalizasiya sisteminin yenidən qurulması;
- Zaqatala Dövlət Qoruğuna və Katexçay şəlaləsinə turizm marşrutunun açılması;
- regionda işsizliyin aradan qaldırılması üçün özünüməşğulluq proqramının genişləndirilməsini xahiş edirlər.

Fürsətdən istifadə edib, bəzi təkliflərimi də səsləndirmək istəyirəm.

1. Onkoloji xəstəliklərin icbari tibbi sığorta xidmətlər zərfinə daxil edilməsi.

2. Ölkədə mövcud olan ən böyük problem işsizlik və işədüzəltmə ilə bağlıdır. Bu problemin qismən həlli üçün bölgələrdə azad iqtisadi ticarət zonaları, yeni emal müəssələrinin yaradılması, texniki peşə məktəblərinin fəaliyyətinin genişləndirilməsi və onların maddi-texniki avadanlıqlar və tədris vəsaitləri ilə təmin edilməsi.

3. Bələdiyyələrin torpaqları və mülkiyyəti ilə bağlı sənədlərinin, habelə bələdiyyələrin torpaq xəritələrinin onlara verilməsi.

4. Ali və orta ixtisas məktəblərində bu günün reallıqları ilə uzlaşmayan ixtisasların mövcud əmək bazarına uyğun, müasir dövrün çağırışlarına cavab verən ixtisaslarla əvəz olunması.

Bütövlükdə, hesabatı qənaətbəxş hesab edirəm, hökumətə uğurlar arzu edirəm.

**Ramin Məmmədov.** Azərbaycan hökumətinin təqdim etdiyi hesabat dövlətimizin əldə etdiyi sosial-iqtisadi uğurların miqyasını göstərir. Ötən il ərzində xalqımız öz tarixinin ən şərəfli səhifələrindən birini yaşadı. Ərazi bütövlüyümüzün və suverenlyimizin tam bərqərar edilməsi yeni tarixi mərhələnin başlanğıcı oldu. Bu il fevral ayının 7-də keçirilmiş növbədənkənar Prezident seçkilərinin nəticələri dövlətin həyata keçirdiyi siyasətin xalq tərəfindən dəstəkləndiyini bir daha sübut etdi. Cənab İlham Əliyevin seçicilərin mütləq əksəriyyətinin səsini qazanaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi çox mühüm tarixi hadisə idi. Bu tarixi biz yeni dövrün başlanğıcı kimi qiymətləndirə bilərik.

Hamımıza məlum olduğu kimi, biz müasir dövrdə çox vacib, aktual çağırışların şahidiyik. İndi müstəqilliyi qoruyub saxlamaq, güclü dövlət kimi beynəlxalq münasibətlər sistemində öz yerini möhkəmləndirmək üçün bu çağırışlara uyğun addımlar atılmalıdır. Nazirlər Kabinetinin hesabatından da göründüyü kimi, biz bir çox istiqamətlərdə yaxşı nəticələr əldə edə bilmişik. Əlbəttə ki, bu, ilk növbədə aparılan düşünülmüş iqtisadi siyasətin nəticəsidir. Azərbaycan iqtisadiyyatının inkişafı bütün digər sahələrdə bizim nailiyyətlərimizin əsasında dayanır. Ümumi daxili məhsulumuz 72 milyard dollara çatıb, strateji valyuta ehtiyatlarının həcmi 70 milyard dollara yaxınlaşıb. Azərbaycanın birbaşa xarici borcu 6,4 milyard dollar təşkil edir ki, bu da ümumi daxili məhsulumuzun cəmi 9 faizi deməkdir. Hesab edirəm ki, bütün bu göstəricilər iqtisadiyyatımızın güclü təməllərə malik olduğunu deməyə əsas verir.

İkinci vacib məsələ odur ki, bu yeni tarixi mərhələdə Azərbaycan dövlətinin qarşısına qoyduğu əsas vəzifələrdən biri də milli prioritetlərdə müəyyən olunmuş "yaşıl enerji ölkəsi" hədəfinə çatmaqdır. Dünya İqtisadi Forumu 2014–2023-cü illərdə iqlim dəyişmələrinin qarşısının alınması və onun mənfi təsirlərinin azaldılması istiqamətində görülmüş işlərin nəticələrinə dair hesabat dərc edib. Bizim ölkəmiz Enerji Keçidi İndeksinə görə dünyada 32-ci yerdədir. Dünya üzrə orta Enerji Keçidi İndeksi 56,3 olduğu halda, Azərbaycanda bu göstərici 62-dir və biz bir çox inkişaf etmiş ölkələri də geridə qoymağa müvəffəq olmuşuq. Dünya İqtisadi Forumunun hesabatlarına istinad etsək, Azərbaycan bərpa olunan enerji mənbələrinə qoyulan investisiyanın ÜDM-də payına görə aparıcı ölkələrin siyahısındadır. Bu göstəricilər COP29 sessiyası-

nın Azərbaycanda keçirilməsi barədə qərarın nə qədər ciddi əsaslara malik olduğunu təsdiq edir. Bəşəriyyətə təhlükə yaradan ekoloji çağırışlar fonunda Azərbaycanın son illərdə həyata keçirdiyi enerji və iqlim siyasəti enerji təhlükəsizliyi arxitekturasının bərpa olunan enerji mənbələri hesabına möhkəmləndirilməsini təşviq edir.

Müasir dövrdə digər bir aktual məsələ təhlükəsizlikdir. Ötən il baş verən hadisələr, Azərbaycan Ordusunun 24 saatdan da az vaxt ərzində separatçı rejimi və Ermənistan ordusunun qalıqlarını tərksilah olmağa məcbur etməsi bizim dövlətimizin gücünü, silahlı qüvvələrimizin qüdrətini göstərir. Azərbaycan Silahlı Qüvvələrinin inkişaf etdirilməsi milli təhlükəsizliyimizin daha etibarlı təmin olunmasının ən vacib şərtlərindən biridir. Təsadüfi deyildir ki, bu gün Azərbaycan Ordusu dünyanın ən güclüləri sırasında yer alır. Azərbaycan güclü hərbi sənaye kompleksi yaradılması istiqamətində ardıcıl tədbirlər görür. Çünki ölkə sərhədlərinin toxunulmazlığının təmin edilməsi və mühafizəsi, ordunun hərbi sursat və maddi-texniki təchizatının müasirləşdirilməsi istiqamətində tədbirlər, xüsusi ilə indiki mürəkkəb geosiyasi şəraitdə həyati əhəmiyyət kəsb edir. Nəzərə alsaq ki, beynəlxalq təşkilatların hesabatlarına görə, dünyada hərbi xərclər son 30 ildə ən yüksək səviyyəyə çatıb, Azərbaycan dövlətinin atdığı addımların nə qədər vacib olduğu bir daha təsdiqini tapmış olur.

Qeyd etdiyim məqamlar hökumətin fəaliyyətinin uğurlu olduğunu, Azərbaycan Prezidenti tərəfindən müəyyən olunmuş iqtisadi inkişaf strategiyasının müvəffəqiyyətlə həyata keçirildiyini deməyə əsas verir.

**Sadiq Qurbanov.** *(çıxışına əlavə).* Bu gün ölkəmiz dayanıqlı inkişafa, möhkəm ictimai-siyasi sabitliyə

malikdir və Azərbaycan çoxəsrlik tarixində heç vaxt indiki qədər güclü, qüdrətli olmayıb.

Sənaye-energetika sahəsində əldə olunmuş bəzi müsbət faktları qeyd etmək istəyirəm. 2023-cü ildə ümumi daxili məhsulda sənayenin payı 40,5 faiz olmaqla, 66 milyard manatdan çox sənaye məhsulu istehsal edilmişdir. Neft-qaz sənayesində 2 faiz azalma müşahidə edilsə də, sənayenin qeyri-neft-qaz sektorunda məhsul istehsalı 8 faiz artmışdır.

2023-cü ildə respublikanın sənaye sektoruna 8,1 milyard manat məbləğində sərmayə yönəldilmiş, bunun 77 faizi neft-qaz sektorunun, 23 faizi isə qeyri-neft-qaz sektorunun sənaye hissəsinin payına düşmüşdür.

Həyata keçirilən tədbirlər nəticəsində respublika üzrə sənaye məhsulunda özəl sektorun payı 2023-cü ildə 2003-cü illə müqayisədə 56,8 faizdən 84,5 faizə yüksəlmişdir. Bu, çox müsbət göstəricidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında sənaye zonalarının yaradılması konsepsiyasına uyğun olaraq, sənayeləşmə işlərinin davam etdirilməsi bu ərazilərdə əhalinin dayanıqlı məskunlaşması və layiqli yaşayış şəraitinin təmin edilməsi məqsədlərinə xidmət edir.

Ümumilikdə, sənaye zonaları ölkədə həyata keçirilən genişmiqyaslı sənayeləşmə siyasətinin ən uğurlu modellərindəndir. Qeyri-neft ixracının artırılması, innovativ istehsalın genişləndirilməsi, ixtisaslı kadrların hazırlanması, yeni iş yerlərinin yaradılması kimi əhəmiyyətli tədbirlərin həyata keçirilməsində sənaye zonalarının yaradılması mühüm yer tutur.

Fəaliyyətə başladığı dövrdən sənaye parkları və məhəllələrində ümumilikdə 6,6 milyard manatdan çox

özəl investisiya yatırılmış və 11,2 mindən artıq daimi iş yeri yaradılmış, dəyəri 12,1 milyard manatdan çox məhsul istehsal edilmişdir ki, bunun da 3,9 milyard manatlıq hissəsi, 32 faizi ixrac olunmuşdur.

Ölkədə su ehtiyatlarının artırılması, əhalinin içməli su təminatının yaxşılaşdırılması, əkinəyararlı torpaqlarda müasir təsərrüfatların yaradılmasının təşviqi məqsədi ilə Laçın rayonunda Zabuxçay su anbarının tikintisinə başlanılmış, Tərtər rayonunda Suqovuşan, Ağdam rayonunda Xaçınçay, Füzuli rayonunda Köndələnçay-1, Köndələnçay-2 və Aşağı Köndələnçay su anbarlarının təmir-bərpa işləri başa çatdırılmışdır.

Hörmətli cənab Baş nazir çıxışında bu məsələlərə hərtərəfli toxundu. Su sahəsində fəaliyyət göstərən qurumlarda struktur və institusional islahatların aparılması bu sahədə ciddi nəticələr əldə olunacağına əminlik verir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazilərində ətraf mühitin sağlamlaşdırılması və ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində, ümumilikdə, 734 monitorinq keçirilmişdir.

Türkiyədən gətirilmiş ağac cinslərindən istifadə olunmaqla 31,4 hektar torpaq sahəsində 25 min ədəddən çox ting əkilmişdir. Hesabat dövrü ərzində Bəsitçay Dövlət Təbiət Qoruğunun 63 hektar torpaq sahəsi minalardan təmizlənmişdir.

2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" olduğunu nəzərə alaraq, ekoloji sahəyə hökumət tərəfindən diqqətin daha da artırılmasını təklif edirəm.

Hesabat ilində dövlət başçısı Qarabağ zonasında ilk nərəyetişdirmə təsərrüfatı olan "Həkəri Balıq Təsərrüfatı"nın açılışında iştirak etmişdir. Həmçinin il ərzində Laçın rayonunun ərazisindən axan Həkəri çayına 33,5

min, Suqovuşan və Xaçınçay su anbarlarına isə 250 min qızılxallı forel və çəki cinsli körpə balıq buraxılmışdır.

**Sədaqət Vəliyeva.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatla tanış oldum. İlk olaraq onu qeyd etmək istərdim ki, bu cür hesabatlar dövlət orqanlarının fəaliyyətinin səmərəliliyini artırmaqla yanaşı, həm də idarəçilikdə şəffaflığı təmin edir.

Ümumilikdə, böyük qələbələr və zəfərlər ili kimi tarixə həkk olan 2023-cü ildə həm də qarşıya qoyulmuş bütün hədəflərə yüksək səviyyədə nail olunmuşdur. Xüsusi olaraq qeyd etmək istərdim ki, Azərbaycan bütün bu uğurlara postmüharibə və pandemiyanın mənfi təsirlərinin mövcud olduğu dövrdə əldə etmişdir. Bu gün ölkəmizdə bütün sahələrdə inkşaf və tərəqqi müşahidə olunur.

Ölkə iqtisadiyyatı öz dayanıqlı inkişaf tempini qoruyub saxlayır, sosial sahədə əhalinin rifahının və həyat səviyyəsinin yüksəlməsi istiqamətində lazımi tədbirlər həyata keçirilir, Ermənistanın viran qoyduğu torpaqlarımız cənnətə çevrilməkdədir, ordumuzun döyüş hazırlığı və maddi texniki bazası gücləndirilir. Şəhid ailələri və qazilər dövlətimizin yüksək diqqət və qayğısı ilə əhatə olunmuşdur. Əlbəttə, bütün bunlar möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən uğurlu siyasət nəticəsində mümkün olmuşdur.

Yaranmış fürsətdən istifadə edərək, bəzi təkliflərimi də irəli sürmək istərdim:

1. Yaxşı olardı ki, peşə təhsili təmamilə pulsuz, ödənişsiz olsun.

2. Yaxşı olardı ki, peşə təhsilində təhsil alan tələbələrə də tələbə krediti ayrılsın.

3. Yaxşı olardı ki, evdə təhsil alan şagirdlərlə bağlı Nazirlər Kabinetinin qərarına düzəliş edilsin, qərardakı

“koma” sözü çıxarılsın.

**Tahir Rzayev.** 2023-cü il uzun sürən düşmən işğalına son qoyulması, Azərbaycan tarixinin unudulmaz şanlı səhifəsi və dövlətimizin rəhbəri, Ali Baş Komandan cənab İlham Əliyevin düşünülmüş uzaqgörən siyasətinin, mətin iradəsinin, müzəffər ordumuzun gücünün, qüdrətinin, xalqımızın yenilməz birliyinin sayəsində suverenliyimizin tam bərpa olunmasının təntənəsi ilidir.

Bu il həm də cənab İlham Əliyevin 20 illik fəaliyyətinin uğurlu hesabatı ili kimi tarixləşdi və Azərbaycan həm cəbhədə, həm də iqtisadi, siyasi, mədəni sahələrdə, beynəlxalq aləmdə böyük gücə, geniş imkanlara malik olduğunu bütün dünyaya sübut etdi.

Tarix, zaman bir daha göstərdi ki, Ulu Öndərimiz Heydər Əliyevin ideyaları ölməz, onun qoyduğu yol uğurludur. Azərbaycan rəhbəri, xalqımız bu ideyaları mənimsədiyi, əziz tutduğu üçün qalib və məğrurdur.

Nazirlər Kabinetinin hesabatında Heydər Əliyev ideyalarına sonsuz ehtiram, inam ifadə olunur, ölkədə həyata keçirilən tədbirlərə böyük önəm verilir. Bu, xalqın milli maraqlarına uyğundur və gələcək inkişfa hesablanmışdır.

Hesab edirəm ki, növbədənkənar Prezident seçkilərindən sonra hörmətli Prezidentimiz cənab İlham Əliyev tərəfindən Nazirlər Kabinetinin, əsasən, tam tərkibdə təsdiq etməsi hökumətin fəaliyyətinə verilən ən yüksək qiymətdir və bugünkü hesabatın təqdir edilməsinə bir zəmanətidir.

Hesabat real faktlara, elmi düşüncələrə əsaslanaraq hazırlanan ölkənin ictimai, iqtisadi, mədəni, təsərrüfat həyatını tam əks etdirən, gələcək perspektivləri göstərən,

qazanılan uğurların aydın təsəvvürünü yaradan və mükəmməlliyi ilə seçilən bir sənəddir. Deputat həmkarlarım kimi, mən də hesabatı yüksək qiymətləndirir və təsdiqinə səs verəcəyəm.

Bu gün Azərbaycan ərazisinə, əhalisinin sayına görə deyil, öz rəhbərinin, Prezidentinin iradəsinə, geniş təfəkkürünə, müdrikliyinə görə çox böyükdür, irəlidədir. Bu, hər birimizdə qürur doğurur və qalib olmağımızla, tanınmağımızla fəxr edirik.

İşğaldan azad edilmiş ərazilərdə möhtəşəm yenidənqurma və bərpa işlərinin aparılması, sosial-iqtisadi, enerji, kommunal, nəqliyyat infrastrukturunun yaradılması, məskunlaşma siyasətinin uğurla həyata keçirilməsi, öz yurdlarına qayıdan vətəndaşların normal həyatı üçün hər cür şəraitin təmin edilməsi, ötən illərdə bu məqsədlə büdcədən 12,1 milyarddan çox, bu il üçün 5 milyard vəsaitin ayrılması Qarabağın xoşbəxt gələcəyindən xəbər verir və hər birimizi sevindirməyə bilməz.

Ordu quruculuğu, ölkənin müdafiə və milli təhlükəsizliyi sahəsində dövlətimizin rəhbərinin, hökumətin gördüyü işlər bəhrələrini verir və vətəndaşlarımız tərəfindən yüksək qiymətləndirilir.

2023-cü il bütün sahələrdə olduğu kimi, kənd təsərrüfatı üçün də uğurlu sayıla bilər. Əvvəlki illə müqayisədə kənd təsərrüfatının istehsalında 3 faizlik artımın əldə olunması bunu deməyə əsas verir. Faktları sadalamaq fikrində deyiləm, ancaq bildirmək istəyirəm ki, keçən il kənd təsərrüfatının mühüm sahələrində yaxşı nəticələr əldə edilmiş və bu ilin möhkəm bünövrəsi qoyulmuşdur. Aqrar sahədə çalışan hüquqi və fiziki şəxslərə, sahibkarlara ayrılan güzəştli kreditlərin, subsidiyaların, vəsaitlərin məbləği artırılmışdır. Ölkənin ərzaq təhlükəsizliyinin

təmin olunması yeni iş yerlərinin yaradılması üçün yeni imkanlar yaradacaqdır.

2023-cü ildə qida təhlükəsizliyi sahəsində qanunvericilik bazasının möhkəmləndirilməsi, beynəlxalq əlaqələrin və ikitərəfli əməkdaşlığın genişləndirilməsi, idxal və ixrac əməliyyatlarının təkmilləşdirilməsi, insanların, heyvan və bitki sağlamlığının qorunması istiqamətində görülən tədbirlər yaxşı nəticələr vermiş, işlərə nəzarət mexanizmi gücləndirilmiş, istehlakçıların hüquqlarının qorunmasına diqqət artırılmışdır.

Dünya su problemi ilə qarşılaşdığı bir dövrdə ölkənin su təsərrüfatı sistemini yenidən qurmaq, idarəetməni təkmilləşdirmək məqsədi ilə görülən tədbirlər öz coğrafiyasını xeyli genişləndirməkdədir. Dövlət rəhbərinin sərəncamına əsasən Dövlət Su Ehtiyatları Agentliyinin yaradılması su təsərrüfatının səmərəli idarə olunmasına imkanlar yaradır. Hesabatdan göründüyü kimi, bu sahədə çox mühüm işlər görülür və çox vacib layihələrin, proqramların həyata keçirilməsi nəzərdə tutulmuşdur. Hazırda ölkəmizdə irili-xırdalı 153 su anbarının olmasına, 20-yə yaxın su anbarının bərpa olunmasının nəzərdə tutulmasına və bir çoxlarında işlərin yekunlaşmasına baxmayaraq, yenə də kənd təsərrüfatı sahələri əkin suyundan korluq çəkir və yüz hektarlarca sahə hər il quraqlıqdan məhv olur. Ancaq mövcud su probleminin aradan qaldırılması yalnız dövlətdən asılı deyildir. Əkin suyunun 49 faizinin, içməli suyun 40 faizə yaxınının itkiyə getməsi, suyun oğurlanması, ciddi israfçılığa yol verilməsi əsaslı tədbirlərin görülməsini tələb edir. Bu sahədə məsuliyyətsizliyə yol verənlər üçün elə bilirəm, tutarlı cərimələr, inzibati cəzalar tətbiq edilməlidir.

Keçən il ölkə üzrə iribuynuzlu mal-qaranın sayının

110.360 baş, xırda buynuzlu mal-qaranın sayının 691.055 baş, atların və quşların sayının azalması narahatlıq doğurur. Bu, örüş, otlaq sahələrinin zəbt olunmasının, əkin altına verilməsinin, ayrı-ayrı insanlar tərəfindən götürülmüş torpaq sahələrindən istifadə olunmamasının, bir çox rayonlarda kənd təsərrüfatı təyinatlı torpaqlarda qeyri-qanuni olaraq tikintilərin aparılmasının nəticəsidir. Belə hallar bazarda ət və heyvandarlıq məhsullarının qiymətlərini artırır, insanların heyvandarlığa marağı azalır və torpaqlar istifadəsiz qalır, səmərə vermir. Hökumətin bu sahədə araşdırmaları, ciddi tədbirləri öz təsirini göstərə bilər və buna ümidvarıq.

Azərbaycan qadınının vətənə, xalqa, ölkəyə sonsuz sevgisi dövlətimiz tərəfindən yüksək qiymətləndirilir və qadın əməyi daim dəyərləndirilir. Ailəli, az yaşlı uşağı olan qadınlarımızın məişət, iş qayğılarının çox olmasını nəzərə alaraq, onların bir saat işə gec gəlib, işdən bir saat tez getmələri haqqında təkliflərin hökumət tərəfindən dəyərləndirməsini xahiş edirəm.

Alternativ xidmət haqqında təkliflər insanların gündəmindədir. İndiki zamanda gücün sayda deyil, peşəkarlıqda, müasir texnologiyalarda və düzgün əməliyyatların təşkilində olduğunu nəzərə alsaq və bunu Azərbaycan Ordusunun timsalında götürsək, elə bilirəm bu barədə müəyyən qənaətə gəlməyə dəyər. Çünki Qarabağ döyüşlərində ordumuzun 10-15 faizi döyüşdü və qalib gəldik. Peşəkar ordumuz var və o, daha da gücləndirilir. Belə olan halda bir il yarım olan əsgərlik müddətini bir ilə, ali təhsillilər üçün altı aya endirməklə, xidmətdə olanların sayını azaldıb peşəkarlığı artırmaqla milyardlarla dövlət vəsaitinə qənaət etmiş olarıq.

Onsuz da biz güclü, peşəkar orduya, müasir texno-

logiyalara malikik. Bu sahədə həyata keçirilən hər bir tədbir milli təhlükəsizliyimizə xidmət edir və xalqımız tərəfindən rəğbətlə qarşılanır.

Hesabatda göründüyü kimi, Azərbaycan Hökuməti hörmətli Prezidentimizin qarşıya qoyduğu vəzifələrə əməli işlə cavab verib və daha yaxşı işləmək əzmi faktlardan aydın görünür. Hörmətli cənab Əli Əsədov başda olmaqla hökumət üzvlərinin hər birinə öz səmərəli fəaliyyətində uğurlar arzulayıram. Hər birinizi qarşıdan gələn bayram münasibəti ilə təbrik edirəm.

Deputat həmkarlarımı da hesabatın təsdiqinə səs verməyə dəvət edirəm.

**Tamam Cəfərova.** Mən də fürsətdən istifadə edərək, cənab Baş nazir başda olmaqla yeni hökuməti təbrik edir, gələcək fəaliyyətlərində uğurlar arzulayıram.

2023-cü il Azərbaycan xalqı və dövləti üçün olduqca uğurlu və əlamətdar il olmuşdur. Müzəffər Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin rəhbərliyi altında bir günlük antiterror əməliyyatları nəticəsində ərazi bütövlüyümüz və suverenliyimiz tam təmin olundu və müasir Azərbaycanın tarixində yeni bir mərhələ başladı.

Bu gün müzakirəyə təqdim olunan Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyətinə dair hesabat dövrü Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə – “Heydər Əliyev İli”nə və cənab Prezident İlham Əliyevin fəaliyyətinin 20-ci ildönümünə təsadüf etmişdir. Bu baxımdan qürurla deyə bilərik ki, 2023-cü il Azərbaycan xalqı və ölkəmiz üçün çox əlamətdar və uğurlu olmuşdur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabat real faktlara əsaslanan, təhlilləri, proqnozları ilə diqqəti cəlb edən bir sənəd

olmaqla bərabər, gələcək vəzifələrin müəyyənləşdirilməsi baxımından da əhəmiyyətlidir. Hesabat mükəmməl hazırlanmışdır və ölkəmizin iqtisadi, siyasi, sosial-mədəni, təsərrüfat həyatının bütün sahələrini özündə əks etdirir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü, düşünülmüş siyasət nəticəsində dövlətimizin beynəlxalq aləmdə böyük nüfuz qazanması, iqtisadiyyatımızın davamlı və dayanıqlı olması, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, çox mühüm layihələrin uğurlu icrası xalqımızı sevindirir və hər bir vətəndaşın ürəyindəndir. Hesabat dövründə Baş nazir hörmətli Əli Əsədov başda olmaqla hər bir hökumət üzvü də öz vəzifəsini yerinə yetirmək əzmində olmuşdur. Buna görə onların hər birinə minnətdarlığımı bildirirəm.

Hesabat ilində iqtisadi siyasətin sosial siyasətlə uzlaşdırılması istiqamətində müvafiq addımların atıldığını görürük. Xatırlatmaq istərdim ki, bu gün dünyanın hətta ən inkişaf etmiş ölkələri belə sosial dövlət ideyasından, sözün həqiqi mənasında, qorxmaqdadırlar. Çünki artıq dövlət sosial ideyaların, layihələrin həyata keçirilməsini iqtisadiyyatına olduqca ağır və əlavə yük hesab edir. Bizdə isə bunun tam əksi müşahidə olunmaqdadır. Dövlətimiz yenə də sosial layihələrini həyata keçirmək iradəsini ortaya qoymaqdadır və təbii ki, bu da vətəndaşların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına xidmət edəcəkdir. Təsadüfi deyildir ki, əvvəlki illərdə olduğu kimi, 2023-cü ildə də dövlət büdcəsinin sosialyönümlülüyü qorunub saxlanılmış, əhalinin sosial təminatının və rifahının yaxşılaşdırılmasına yönəlmiş tədbirlər həyata keçirilmişdir.

Ötən müddət ərzində bütün sahələrdə olduğu kimi,

regionların sosial-iqtisadi inkişafı istiqamətində də uğurlar əldə edilib, regionların siması köklü şəkildə dəyişib, əhalinin rifahının daha da yüksəlməsinə geniş imkanlar açılıb. Cənab Prezidentin birbaşa diqqəti və rəhbərliyi altında regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramlarının icrası çərçivəsində təmsil etdiyim Şamaxı rayonunda da inkişaf göz qabağındadır. Son illərdə rayonda müasir infrastrukturun yaradılması, yolların çəkilməsi və işıqlandırılması, yeni iş yerlərinin açılması, məktəb, uşaq bağçalarının tikintisi sahəsində xeyli işlər görülmüşdür. Fürsətdən istifadə edərək, cənab Prezident İlham Əliyevə rayonumuza göstərdiyi diqqətə və qayğıya görə öz adımdan və rayon ictimaiyyətinin adından təşəkkür edirəm.

Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu tərəfindən Şamaxıda tarixi abidələrin bərpası, məktəb, uşaq bağçalarının tikintisi sahəsində xeyli işlər görüldüyünü xüsusi ilə vurğulamaq və xanım Mehriban Əliyevaya şamaxılıların dərin təşəkkürünü və sevgisini çatdırmaq istəyirəm.

Həmçinin hökumət nümayəndələrinin burada olmağından istifadə edərək, Şamaxının inkişafı ilə bağlı etdiyimiz müraciətlərə diqqətlə yanaşdıqları üçün cənab Baş nazir Əli Əsədova, Elm və Təhsil, İqtisadiyyat və Maliyyə nazirliklərinə, infrastrukturla bağlı aidiyyəti qurumlara, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə, “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinə, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinə təşəkkürümü bildirirəm.

Ümid edirəm ki, Şamaxı rayonunda cari ildə və gələcəkdə də nəzərdə tutulan və davam etməkdə olan layihələrin icrası bundan sonra da uğurla həyata

keçiriləcək.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyətinə dair hesabatını yüksək qiymətləndirirəm. Hökümət üzvlərinə gələcək fəaliyyətlərində uğurlar arzulayıram. Hesabatın lehinə səs verəcəyəm və həmkarlarımı da hesabata səs verəməyə dəvət edirəm.

Hər birinizi və xalqımızı Novruz Bayramı münasibəti ilə ürəkdən təbrik edirəm.

**Vahid Əhmədov.** 2023-cü ildə dünyada baş verən münaqişələr, maliyyə problemləri, biznes mühitinin pisləşməsi, geosiyasi gərginliklər iqtisadi artımın azalmasına səbəb olmuşdur. Ölkədə 2022-ci ilə nisbətən 1,1 faiz çox, yəni 123 milyard manatlıq ÜDM istehsal olunmuş, neft-qaz sektorunda 1,7 faiz azalma, qeyri-neft sektorunda isə 3,7 faiz artım qeydə alınmışdır.

İl ərzində işğaldan azad olunmuş ərazilərdə Böyük Qayıdış proqramına uyğun olaraq, işlər daha da sürətləndirilmişdir. Dövlət proqramının icrası zamanı tələb olunan 32 milyard manat vəsaitdən, – 2023-cü ildə dövlət büdcəsindən 4,8 milyard manat, Ehtiyat fondundan 788 milyon manat təşkil etməklə, – ümumilikdə, 5,5 milyard manat vəsait xərclənmişdir. Azərbaycanın dövlət başçısı cənab İlham Əliyevin, hökümət üzvlərinin, o cümlədən Baş nazir Əli Əsədovun, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyevin Qarabağa müntəzəm səfərləri, bu bölgədə görülən işlərin daim nəzarətdə saxlanılması və son nəticədə əhalinin məskunlaşmasının tezləşdirilməsinə səbəb olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Milli Məclisdə keçirilən andiçmə mərasimində Azərbaycanda yeni dövrün başladığını elan etmiş, bir sıra ciddi proqram səviyyəli məsələləri səsləndirmişdir. Belə

hesab edirəm ki, Nazirlər Kabineti məhz cənab Prezidentin söylədiyi fikirləri əsas tutaraq öz fəaliyyətini qurmalıdır. Bunlardan bir neçəsinə toxunmaq istərdim.

Vurğulamaq istədiyim birinci məsələ əhalinin işsizlik problemidir. Hesabatda 5,2 milyon iqtisadi fəal əhalinin 280 min nəfəri işsiz əhali kimi göstərilmişdir. İşsizlik probleminin həlli ilə əlaqədar, daha öncə büdcə müzakirələrində etdiyim təklifi bir daha qeyd etmək istəyirəm. Azərbaycanda mövcud olan 14 iqtisadi rayonun hər biri üzrə işsizliklə əlaqədar xüsusi proqram tərtib olunmalı, 3 və ya 5 il müddətində hər sahə üzrə açılmalı olan iş yerlərinin sayı həmin proqramda qeyd edilməli və bu sahə prioritet sahə elan olunmalıdır. Hesab edirəm ki, belə olduğu təqdirdə, qısa müddətdə bu məsələnin həllində irəliləyişə nail olmaq mümkündür.

Bunlardan ikincisi, inflyasiya və qiymət artımı məsələsidir. İstər Azərbaycan hökümətinin, istərsə də Azərbaycan Mərkəzi Bankının məsələnin həlli istiqamətində gördüyü işlərdə kifayət qədər müsbət məqamlar qeydə alınmış, İqtisadiyyat Nazirliyi tərəfindən çox ciddi monitorinqlər aparılmış, Mərkəzi Bank inflyasiyanı cilovlamaq üçün mütəmadi monetar tədbirlər həyata keçirmiş, faiz dərəcələrini tənzimləmiş, pul kütləsinə nəzarət mexanizmini gücləndirmiş və bir sıra uğurlu tədbirlər görmüşdür. Bütün görülən tədbirlərə baxmayaraq, 2023-cü ildə inflyasiya Statistika Komitəsinin hesabatda göstərdiyi faizdən daha çox olmuş, hətta ərzaq məhsullarının inflyasiyası 20 faizdən də yüksək olmuşdur. Bu, həm də ərzaqda ciddi qiymət artımına səbəb olmuşdur. Hesab edirəm ki, inflyasiyanın hesablanma mexanizminə yenidən baxılmalı, səbətin tərkibi Nazirlər Kabineti tərəfindən yenilənərək təsdiq olunmalıdır.

İqtisadi rayonlar üzrə sənaye istehsalına nəzər yetirsək, 2023-cü ildə sənaye istehsalının 92 faizi Bakı şəhəri və Abşeron–Xızı iqtisadi rayonunun, 8 faizi isə qalan 12 rayonun payına düşür. 2023-cü ildə sənaye sektoruna yönəldilən 8,1 milyard manat investisiyanın 6,26 milyard manatı neft-qaz sektorunun,1,86 milyard manatı isə qeyri-neft-qaz sektorunun payına düşür. 2023-cü ildə qeyri-neft sənayesində müəyyən qədər artım olsa da, ixracda, əsasən, neft-qaz sektorunun, idxalda isə sənayə avadanlıqlarının üstünlüyü müşahidə edilmişdir. Hesab edirəm ki, regionlarda hər regionun spesifikasına uyğun olaraq, sənayə istehsalını, xüsusi ilə emal sənayesi müəssisələrinin istehsalını genişləndirmək lazımdır.

Kənd təsərrüfatının inkişafında da irəliləmə müşahidə edilmişdir. 2023-cü ildə kənd təsərrüfatı sahəsində 3 faiz artım qeydə alınmışdır. Azərbaycan hökuməti bu sahəyə kifayət qədər subsidiyalar ayırmaqla kənd təsərrüfatının inkişafında önəmli rol oynamışdır. Lakin Azərbaycan Respublikasının Prezidentinin qarşıya qoyduğu ərzaq təhlükəsizliyinin təmin edilməsi məsələsi hələlik tam təmin olunmamış, xüsusi ilə ərzaq buğdası istehsalında ciddi artıma nail olunmamışdır. Kənd təsərrüfatı sahəsində diqqətçəkən məqamlardan biri də suvarma suyunun çatışmazlığı ilə yanaşı, onun təsərrüfatlar arasında düzgün və məqsədli bölünməməsidir. Bu məsələyə ciddi diqqət yetirilməsi kənd təsərrüfatının inkişafı baxımından böyük önəmə malikdir.

Yekun olaraq, təmsil etdiyim Quba rayonu ilə bağlı iki məsələni də diqqətinizə çatdırmaq istərdim. Talabıqışlaq–Qamqam istiqamətində, 23 kilometr uzunluğunda, 8 kəndi əhatə edən yolda uzun müddətdir təmir işləri başlasa da, işlər bu günə qədər yekunlaşmayıb. Eyni zamanda, Bakı–

Quba yolunun Bakıdan Qubaya gedən hissəsi də yararsız vəziyyətdədir, o yolun da bərpasına ehtiyac var. Hökümətdən bu problemin həlli yolunda müəyyən addımların atılmasını xahiş edirəm.

**Vüqar İskəndərov**. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il üçün fəaliyyəti haqqında illik hesabatını dinlədik və müsbət qiymətləndiririk. Hökumətə gələcək fəaliyyətlərində uğurlar arzulayıram.

Bir məsələni hökümət üzvlərinin diqqətinə çatdırmaq istəyirəm. Mən əvvəlki çıxışlarımda Şəki şəhəri M.Ə.Rəsulzadə 313 ünvanında yerləşən binanın qəzalı vəziyyətdə olması ilə bağlı məsələ qaldırmışdım. Deməli, bir neçə il öncə Fövqəladə Hallar Nazirliyi və aidiyyəti qurumlar tərəfindən binanın vəziyyəti aktlaşdırılıb. Hətta bununla bağlı bina sakinlərinə kompensasiya ödənilərək binadan təxliyyə olunmaları üçün Nazirlər Kabinetinə və Maliyyə Nazirliyinə müraciətlər də etmişik. Kompensasiya ödənilməsi barədə Maliyyə Nazirliyinin rəyi və Şəki şəhər İcra Hakimiyyətinin müraciəti Nazirlər Kabinetinə təqdim olunub.

Ötən dəfə çıxışımdan sonra hörmətli Baş nazir hesabatda bu məsələni vurğulamaqla işlərin görülməsinin sürətləndirilməsini qeyd etmişdi. Lakin hələlik məsələ həllini tapmayıb. Yekun olaraq, son mərhələdə cənab Baş nazirin müvafiq icazəsinə ehtiyac var. Bu baxımdan bir daha məsələnin həllinin sürətlənməsini xahiş edirik. Çünki, həqiqətən, binanın vəziyəti təhlükəlidir.

# MÜNDƏRİCAT

15 mart 2024-cü il ................................................................ 3
Edilməmiş çıxışların mətnləri.............................................. 124

Altıncı çağırış

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİ İCLASLARININ

PROTOKOLLARI
VƏ
STENOQRAMLARI

On beşinci sessiya
Yaz

64-cü cild

15 mart 2024-cü il

Buraxılışına məsul
***H. Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi 10,5. Sifariş 54. Tiraj 150.